AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT NEFT FONDU



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

FƏRMANI

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında 1994-cü ildə "Əsrin müqaviləsi" ilə təməli qoyulmuş işgüzar əməkdaşlığın real nəticələrini vermək ərəfəsindədir. Bu sahədə gözlənilən gəlirlərin Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqisinə istiqamətləndirilməsi dövlət siyasətinin başlıca məqsədidir.

Bunu nəzərə alaraq, ölkənin neft yataqlarının xarici şirkətlər ilə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan valyuta vəsaitlərinin öncül sahələrin toplanması və səmərəli idarə edilməsi, həmin vəsaitlərin iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin yönəldilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Dövlət Neft Fondu yaradılsın.
2. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun aşağıdakı formalaşdırılması müəyyən edilsin:
   - Azərbaycan Respublikasının payına düşən xam neftin və qaz gəlirlər (qanunvericiliklə nəzərdə tutulmuş ödənişlər çıxılmaq şərti
   - bonus ödənişləri;
   - akrhesabı ödənişlər (2001-ci ildən başlayaraq);
   - xarici şirkətlərlə bağlanmış müqavilələr çərçivəsində dövlət icarə haqqı;
   - Fondun fəaliyyətindən əldə edilən gəlirlər;
   - xarici şirkətlərlə bağlanmış müqavilələrə uyğun olaraq Azərbaycan aktivlərin satışından və digər daxilolmalardan əldə edilən gəlirlər.
3. Azərbaycan Respublikasının payına düşən xam neftin və qaz Respublikasının Dövlət Neft Şirkəti tərəfindən həyata keçirilsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respu Neft Fondunun Əsasnaməsini və onun ali idarəetmə orqanının tərkibi barədə müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.
5. Azərbaycan Respublikasının Milli Bankına tapşırılsın ki, Azərbaycan Dövlət Neft Fondu fəaliyyətə başlayanadək onun vəsaitlərinin xüsusi hesabda toplanmasını təmin etsin.
6. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, "29" dekabr 1999-cu il
№ 240

2019
2018
2017
2016
2015
2014
2013
2012
2011
2010
2009
2008
2007
2006
2005
2004
2003
2002
2001
2000
1999

20 il

İLLİK HESABAT 2019

20 il

Azərbaycan Respublikası
Dövlət Neft Fondu

1999-2019

İLLİK HESABAT
2019

MÜNDƏRİCAT

1.ARDNF HAQQINDA 6

2.ƏSAS GÖSTƏRİCİLƏR 10

3.İDARƏETMƏ VƏ ŞƏFFAFLIQ 12

3.1. ARDNF-NİN İDARƏ EDİLMƏSİ 12

3.2. ŞƏFFAFLIQ VƏ HESABATLILIQ 16

4.ÖLKƏ İQTİSADİYYATI VƏ ARDNF 17

4.1. MAKROİQTİSADİ İNKİŞAF 17

4.2. ARDNF-NİN GƏLİRLƏRİ 26

4.3. ARDNF-NİN XƏRCLƏRİ 30

5.İNVESTİSİYALAR 36

5.1. İNVESTİSİYA STRATEGİYASI. 36

5.2. ARDNF-NİN İNVESTİSİYA PORTFELİ. 39

5.3. ARDNF-NİN İNVESTİSİYA PORTFELİNİN GƏLİRLİLİYİ 55

5.4. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ. 57

6.ARDNF-NİN 2019-CU İL BÜDCƏSİNİN İCRASI 62

7.ARDNF-NİN KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI 68

ƏLAVƏ 126

QISALTMALAR

ABƏŞ - AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİ
AÇG - AZƏRİ-ÇIRAQ-GÜNƏŞLİ
AMB - AVROPA MƏRKƏZİ BANKI
ARDGK - AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
ARDNF - AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT FONDU
ARDSK - AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
ARMB - AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKI
BVF - BEYNƏLXALQ VALYUTA FONDU
CQD - CƏNUB QAZ DƏHLİZİ
DB - DÜNYA BANKI
FED - ABŞ FEDERAL EHTİYATLAR SİSTEMİ
HPBS - HASİLATIN PAY BÖLGÜSÜ SAZİŞLƏRİ
İMB - İNGİLTƏRƏ MƏRKƏZİ BANKI
OPEC - NEFT İXRAC EDƏN ÖLKƏLƏR BİRLİYİ
RMD - RİSKƏ MƏRUZ DƏYƏR
SFBF - SUVEREN FONDLARIN BEYNƏLXALQ FORUMU
ÜDM - ÜMUMİ DAXİLİ MƏHSUL

1. ARDNF HAQQINDA

1994-cü il sentyabr ayının 20-də ümummilli lider Heydər Əliyevin səyi nəticəsində müasir Azərbaycanın tarixində yeni bir səhifə açıldı. Dünyanın aparıcı 7 ölkəsinin 11 beynəlxalq neft şirkəti ilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi haqqında Saziş - "Əsrin müqaviləsi" imzalandı. ''Əsrin müqaviləsi'' Azərbaycanda yeni neft sazişlərinin imzalanması üçün geniş yol açdı. Heydər Əliyevin müəllifi olduğu Milli Neft Strategiyasının reallaşması sayəsində Azərbaycanın enerji təhlükəsizliyi, dünya birliyində etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim olunması təmin olundu. Bu strategiya özündə 3 əsas komponenti - xarici sərmayənin və təcrübənin cəlb olunması, çoxvariantlı ixrac sisteminin yaradılması və əldə olunmuş gəlirlərin səmərəli, şəffaf idarə edilməsi və istifadə olunmasını ehtiva edir. Milli Neft Strategiyasının tərkib hissələrinin reallaşdırılması istiqamətində həmin dövrdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti vəzifəsini daşıyan İlham Əliyevin misilsiz rolu olmuşdur. O dövrdə beynəlxalq müstəvidə və o cümlədən ölkə daxilində mövcud müxalif qüvvələrin səsləndirdiyi populist fikirlərin əksinə olaraq Neft Strategiyasının reallaşdırılması sahəsində məhz İlham Əliyevin apardığı uğurlu diplomatik missiyası, onun birbaşa təşəbbüsü və düşünülmüş təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) yaradılması ideyasının gerçəkləşdirilməsi mümkün olmuşdur. İlham Əliyevin təklifi ilə dünyada bu sahədə mövcud analoji suveren fondların təcrübələri öyrənilmiş və nəticədə ölkənin təbii sərvətlərindən əldə olunan gəlirlərinin səmərəli və şəffaf idarə edilməsi məqsədilə ümummilli lider Heydər Əliyevin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Azərbaycan Respublikası Dövlət Neft Fondu təsis edilmişdir. ARDNF neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi qurumdur.

ARDNF ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində yaradılmış xüsusi məqsədli dövlət qurumudur. ARDNF-nin Əsasnaməsi 2000-ci ildə təsdiq edilmişdir.

ARDNF-nin yaradılması fəlsəfəsinin əsasını neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edir.

ARDNF-nin missiyası

ARDNF-nin missiyası tükənən təbii sərvətlərdən əldə olunan gəlirlərin toplanması və Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinin daimi gəlir mənbəyinə çevrilməsidir.

ARDNF-nin vəzifələri

ARDNF-nin fəaliyyəti ölkə qarşısında aşağıdakı mühüm vəzifələrin həllinə yönəlmişdir:

1. Ölkədə makroiqtisadi sabitliyin qorunması, maliyyə-vergi intizamının təmin edilməsi, neft gəlirlərindən asılılığın azaldılması və qeyri-neft sektorunun inkişafının təmin edilməsi;
2. Ölkənin sosial-iqtisadi tərəqqisi naminə mühüm ümummilli layihələrin maliyyələşdirilməsi;
3. Neft və qazın bərpa edilməyən təbii ehtiyat olduğunu nəzərə alaraq, onlardan əldə edilən gəlirin nəsillər arasında bərabər bölüşdürülməsi və gələcək nəsillər üçün ehtiyat vəsaitin toplanması.

ARDNF-nin hüquqi əsasları

ARDNF-nin hüquqi fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının qanunları, Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları, ARDNF-nin Əsasnaməsi və daxili prosedur qaydalarına əsaslanır.

ARDNF-nin maliyyələşmə və vəsaitlərinin xərclənməsinə dair qaydaları ARDNF-nin Əsasnaməsi və "Azərbaycan Respublikası Dövlət Neft Fondunun illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları"nda aydın şəkildə müəyyən olunmuşdur. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi, ARDNF-nin xərcləri icmal dövlət büdcəsinin, yəni dövlət büdcəsinə daxil olan və büdcədənkənar dövlət fondlarının birgə büdcəsinin tərkib hissəsidir. İcmal dövlət büdcəsinin xərcləri isə hər il ölkə parlamenti tərəfindən baxılaraq təsdiq edilir. Beləliklə, hər bir vətəndaş öz seçdiyi millət vəkili vasitəsi ilə ARDNF-nin büdcəsinin müzakirəsində iştirak edir. Bu Qanuna uyğun olaraq ARDNF yalnız öz büdcəsi ilə nəzərdə tutulan xərcləri həyata keçirə bilər.

ARDNF-də investisiya və risklərin idarə olunması "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a (İnvestisiya Qaydaları) və hər il Müşahidə Şurası tərəfindən baxıldıqdan sonra Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunan İnvestisiya siyasətinə əsaslanır. ARDNF-nin İnvestisiya siyasətinə əsasən investisiya qərarları risklər nəzərə alınmaqla gəlirliliyin əldə edilməsi məqsədinə əsaslanır. İnvestisiya Qaydalarına əsasən ARDNF öz investisiya qərarlarını tam müstəqil şəkildə qəbul edir.

BİZİM DƏYƏRLƏRİMİZ

Dürüstlük
Biz cəmiyyətin ən yüksək mənəvi dayaqları və etik prinsiplərinə güzəştsiz sadiq qalaraq daxili əminliklə həm doğru düşünür, həm doğru danışır, həm də bunu öz davranış və əməllərimizdə əks etdiririk.

Hörmət
Biz cəmiyyətin ən yüksək mənəvi dayaqları, etik prinsipləri və peşəkar normalarına riayət etməklə, fərqliliklərə və əks fikirlərə təmkin və diqqətlə yanaşırıq.

Nəticəyönümlü komanda işi
Biz konkret nəticələrin əldə olunmasına yönələn səmimi və məhsuldar əməkdaşlıq edirik.

Məsuliyyətli təşəbbüskarlıq
Biz Fondun məqsəd və missiyasından irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrası üçün məsuliyyətin götürülməsinə və təşəbbüskarlığa cəsarətlə yanaşırıq.

Şəffaflıq və hesabatlılıq
Biz fəaliyyət çərçivəsində məlumatları bütün maraqlı tərəflərə tam, vaxtında və düzgün çatdırır və mütəmadi olaraq yeniləyirik.

ARDNF-NİN 20 İLLİK TARİXİ

1999

- Ümummilli lider Heydər Əliyevin qərarı ilə ARDNF təsis edildi.



2000

- ARDNF-nin Əsasnaməsi təsdiq edildi.

2001

- 270,9 milyon ABŞ dolları məbləğində ilk vəsait ARDNF-nin hesabına köçürüldü.
- ARDNF-nin ilk illik büdcəsi təsdiq edildi.
- ARDNF-yə İcraçı direktor təyin edildi.
- ARDNF-nin Müşahidə Şurasının tərkibi təsdiq edildi.
- ARDNF-nin valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar təsdiq edildi.
- ARDNF-nin illik gəlir və xərclər proqramının (büdcəsinin) tərtibi və icrası Qaydaları təsdiq edildi.

2002

- İlk dəfə ARDNF-nin illik maliyyə fəaliyyətinin auditi keçirildi.
- ARDNF-nin Müşahidə Şurasının ilk iclası keçirildi.

2003

- ARDNF-dən dövlət büdcəsinə ilk transfert həyata keçirildi.
- Azərbaycan hökuməti MHŞT-yə qoşulma qərarını bəyan etdi.

2007

- ARDNF-yə BMT-nin "Dövlət xidmətində şəffaflığın, cavabdehliyin və məsuliyyətin artırılması" üzrə mükafatı təqdim edildi.
- ARDNF-yə Şahdəniz layihəsi üzrə ilk mənfəət ödənişi edildi.

2008

- ARDNF-yə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri layihəsi üzrə ilk dividend ödənildi.

2009

- Azərbaycana "2009-cu il MHŞT mükafatı" təqdim edildi.
- ARDNF-nin təşkilatçılığı ilə Bakı şəhərində Suveren Fondların Beynəlxalq Forumunun ilk iclası keçirildi.
- Prezident İlham Əliyevin iştirakı ilə Fondun yeni inzibati binasının təməlqoyma mərasimi keçirildi.
- ARDNF-nin yaradılmasının 10 illiyi tamam oldu.
- ARDNF-nin bir sıra əməkdaşları "Tərəqqi" medalı ilə təltif edildi.

2011

- ARDNF tərəfindən Santyaqo Prinsiplərinin tətbiqi ilə bağlı ilk hesabat təqdim edildi.

2014

- Prezident İlham Əliyevin iştirakı ilə ARDNF-nin yeni inzibati binasının açılış mərasimi keçirildi.

2016

- ARDNF-nin təşkilatçılığı ilə Bakıda Suveren və Pensiya Fondlarının Birgə İnvestisiyası üzrə Dəyirmi Masanın (CROSAPF) 3-cü illik iclası keçirildi.

2017

- Prezident İlham Əliyevin Fərmanı ilə Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya (HSŞK) yaradıldı.

2018

- ARDNF dövlət vəsaitlərinin idarə edilməsi üzrə dünyanın ən nüfuzlu 100 investoru siyahısına daxil edildi.

2019

- ARDNF-nin təşkilatçılığı ilə Bakıda "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" adlı konfrans keçirildi.
- ARDNF-nin bir sıra əməkdaşları Azərbaycan Respublikası Prezidenti tərəfindən 3-cü dərəcəli "Əmək" ordeni və Tərəqqi medalları ilə təltif edildi.
- ARDNF-nin yaradılmasının 20 illiyi tamam oldu.

2. ƏSAS GÖSTƏRİCİLƏR

Qrafik 2.1. İdarəetmədə olan vəsaitlərin dinamikası (milyard ABŞ dolları ilə)



Qrafik 2.2. İnvestisiya portfeli üzrə orta illik gəlirlilik



Qrafik 2.3. İnvestisiya portfelinin valyuta tərkibi



Qrafik 2.4. İnvestisiya portfelinin aktiv növləri üzrə bölgüsü (31.12.2019)

3. İDARƏETMƏ VƏ ŞƏFFAFLIQ

3.1. ARDNF-NİN İDARƏ EDİLMƏSİ

Müşahidə Şurası

ARDNF-nin fəaliyyətinə ümumi nəzarət dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən təşkil edilmiş Müşahidə Şurası tərəfindən həyata keçirilir. Şura ARDNF-nin illik büdcə layihəsini, illik hesabat və maliyyə hesabatını auditor rəyi ilə birlikdə nəzərdən keçirir və rəy verir. Müşahidə Şurasının üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur. Müşahidə Şurasının fəaliyyəti ictimai (əvəzi ödənilmədən) əsaslarla həyata keçirilir.

2019-cu il ərzində Müşahidə Şurası tərəfindən ARDNF-nin fəaliyyətinə dair bir sıra qərarlar qəbul edilmişdir. Belə ki, ARDNF-nin Müşahidə Şurasının 4 iyul 2019-cu il tarixli qərarı ilə Fondun 2018-ci ildə fəaliyyəti haqqında illik hesabatı, 2018-ci ildə maliyyə fəaliyyəti haqqında müstəqil auditorun ("Praysvoterhauskupers Audit Azərbaycan" MMC) rəyi məqbul hesab edilmiş və ARDNF-nin 2018-ci il üzrə büdcəsinin icrası layihəsi (2018-ci ilin büdcəsinin icrası barədə Azərbaycan Respublikasının Hesablama Palatasının rəyi də əlavə edilməklə) Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir. Eyni zamanda, iclasda ARDNF-nin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlarda maliyyə hesabatlarının təqdim edilməsi müddətlərini müəyyən edən müddəalarında dəyişikliklər edilməsi ilə bağlı qərar qəbul edilmişdir. Belə ki, Qərara əsasən ARDNF-nin maliyyə və büdcəsinin icrası barədə hesabatların son təqdim edilməsi müddətinin hər ilin 30 iyun tarixinə qədər uzadılması məqsədəuyğun hesab edilərək Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tövsiyə edilmişdir.

Bununla yanaşı, 6 dekabr 2019-cu il tarixində ARDNF-nin Müşahidə Şurasının iclası keçirilmişdir. İclasda Müşahidə Şurası tərəfindən ARDNF-nin 2020-ci il üçün büdcə layihəsinə, o cümlədən ARDNF-nin idarə edilməsi ilə bağlı xərclərə dair ARDNF-nin İcraçı direktoru tərəfindən təqdim edilmiş məlumatlara baxılaraq, büdcə layihəsi (ARDNF-nin vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri və investisiya siyasəti daxil olmaqla) və ARDNF-nin idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab edilmiş və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2019-cu il tarixli Sərəncamı ilə ARDNF-nin Müşahidə Şurasının 7 nəfərdən ibarət yeni tərkibi təsdiq edilmişdir.

Sərəncama uyğun olaraq 2019-cu ildə Müşahidə Şurasının tərkibi aşağıdakı üzvlərdən ibarət olmuşdur:

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Valeh Ələsgərov
Azərbaycan Respublikasının Milli Məclis sədrinin müavini

Natiq Əmirov
Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri

Şahmar Mövsümov
Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Samir Şərifov
Azərbaycan Respublikasının Maliyyə naziri

Mikayıl Cabbarov
Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Elman Rüstəmov
Azərbaycan Respublikası Mərkəzi Bankının sədri

9 fevral 2020-ci il tarixində keçirilmiş seçkilər nəticəsində Azərbaycan Respublikasının Milli Məclisinin yeni tərkibi formalaşmışdır. ARDNF-nin Müşahidə Şurasında Azərbaycan Respublikası Milli Məclisini təmsil edəcək üzv kimi Milli Məclisin Sədr müavini Adil Əliyev təyin edilmişdir.

İcraçı direktor

ARDNF-nin fəaliyyətinə operativ rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilən İcraçı direktor həyata keçirir.

ARDNF-nin İcraçı direktoruna ARDNF-ni qanuni olaraq təmsil etmək, işçiləri vəzifəyə təyin etmək və vəzifədən azad etmək, ARDNF-nin işini təşkil etmək, Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq olunmuş Qaydalara uyğun olaraq ARDNF-nin vəsaitlərinin idarə edilməsi və yerləşdirilməsi üzrə sərəncam vermək səlahiyyətləri verilmişdir. İcraçı direktor ARDNF-nin illik büdcəsini, ARDNF-nin vəsaitinin istifadə edilməsinə dair illik proqramını hazırlayır və təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 noyabr 2019-cu il tarixli Sərəncamına əsasən ARDNF-nin İcraçı direktoru Şahmar Mövsümov Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri vəzifəsinə təyin edilmişdir. Prezidentin eyni tarixli digər Sərəncamı ilə ARDNF-nin İcraçı direktorunun müavini İsrafil Məmmədov ARDNF-nin İcraçı direktoru təyin edilmişdir.

İcraçı direktorun müavini

İcraçı direktorun müavini Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. İcraçı direktorun müavini İcraçı direktorun həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 iyul 2013-cü il tarixli 3014 nömrəli Sərəncamı ilə İcraçı direktorun müavini vəzifəsinə təyin edilmiş İsrafil Məmmədov Prezidentin 29 noyabr 2019-cu il tarixli Sərəncamı ilə ARDNF-nin İcraçı direktoru təyin edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2020-ci il tarixli Sərəncamı ilə Rövşən Cavadov ARDNF-nin İcraçı direktorunun müavini vəzifəsinə təyin edilmişdir.

İcraçı direktorun müşaviri

İcraçı direktorun müşaviri ARDNF-nin İcraçı direktoru tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir. 6 iyul 2017-ci il tarixində Nərgiz Nəsrullayeva-Müdüroğlu ARDNF-nin İcraçı direktorunun müşaviri vəzifəsinə təyin edilmişdir.

ARDNF-nin təşkilati strukturu

ARDNF tərəfindən həyata keçirilən xarici maliyyə bazarlarında investisiya fəaliyyəti ARDNF-nin tərkibində fəaliyyət göstərən üç departament – İnvestisiya departamenti, Risklərin idarə edilməsi departamenti və Hesablaşmalar departamenti vasitəsi ilə aparılır.

İnvestisiya departamenti

İnvestisiya departamenti maliyyə bazarlarındakı vəziyyəti təhlil edərək investisiya strategiyasının hazırlanmasını və mövcud strategiyaya uyğun olaraq sabit gəlirli qiymətli kağızlar, pul bazarı alətləri, səhmlər, daşınmaz əmlak, qızıl və müxtəlif valyutaların alqı-satqısını həyata keçirir.

Departamentdə üç şöbə fəaliyyət göstərir:

- Sabit gəlirli qiymətli kağızlar və pul bazarları şöbəsi;
- Səhmlər və alternativ investisiyalar şöbəsi;
- Daşınmaz əmlak şöbəsi.

Risklərin idarə edilməsi departamenti

Risklərin idarə edilməsi departamenti ARDNF-nin investisiya siyasətinin hazırlanması və bençmarkların seçilməsi ilə bağlı müvafiq təhlillərin aparılması, risk limitlərinin müəyyən olunması və təkliflərin hazırlanması işini həyata keçirir. Eyni zamanda ənənəvi və alternativ maliyyə alətləri üzrə risklərin qiymətləndirilməsi və idarə edilməsi, gəlirliliyin və bençmarka nəzərən kənarlaşmanın hesablanması, ARDNF-nin investisiya fəaliyyətinin və investisiya portfelinin müvafiq qaydalara uyğun olmasına nəzarətin həyata keçirilməsi, investisiya siyasətinə uyğun olaraq investisiya portfeli üzrə müxtəlif bölgülərin nəzarət altında saxlanılması da bu departament tərəfindən həyata keçirilir.

Departamentdə iki şöbə fəaliyyət göstərir:

- Modelləşdirmə və gəlirliliyin ölçülməsi şöbəsi;
- Alternativ investisiyalar üzrə risklərin idarə edilməsi şöbəsi.

Hesablaşmalar departamenti

Maliyyə və əməliyyatlar müdiriyyəti nəzdində fəaliyyət göstərən Hesablaşmalar departamentində əqdlərin müəyyən edilmiş norma və qaydalara uyğunluğu yoxlanılır, əqdlərin verifikasiyası və icrası təmin edilir, eləcə də hesabların açılmasına dair sənədləşmə işləri həyata keçirilir, nağd vəsaitlər və əqdlər bank çıxarışları ilə, xarici menecerlərin əməliyyatları kastodial bankın məlumatları ilə gündəlik və aylıq olaraq tutuşdurulur.

Büdcə proqnozlaşdırma və layihələr departamenti

Büdcə proqnozlaşdırma və layihələr departamentinin əsas məqsədi ölkənin makroiqtisadi və fiskal tələblərinə, habelə ARDNF-nin dayanıqlı inkişaf məqsədlərinə cavab verən optimal büdcəsinin tərtibi və təsdiqini təmin etmək və ARDNF-nin büdcəsi çərçivəsində maliyyələşdirilən layihələrə effektiv nəzarət və monitorinq sistemini yaratmaqdır.

Departamentin tərkibində iki şöbə fəaliyyət göstərir:

- Büdcə və proqnozlaşdırma şöbəsi;
- Layihələr şöbəsi.

Sxem 1. **ARDNF-nin təşkilati strukturu**



Etik Davranış Qaydaları

ARDNF-nin İcraçı direktorunun 13 may 2019-cu il tarixli 17 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun işçilərinin etik davranış Qaydaları" təsdiq edilmişdir.

Bu sənəd Fondun əməkdaşlarının etik davranış qaydalarını və onlara əməl edilməsi ilə bağlı münasibətləri, qaydalara əməl olunmasına nəzarət və onun pozulmasına görə məsuliyyəti, ARDNF-nin korporativ dəyərlərini və onlara uyğun tələblərini müəyyən edir.

3.2. ŞƏFFAFLIQ VƏ HESABATLILIQ

Yaradıldığı gündən etibarən şəffaflıq və hesabatlılıq ARDNF-nin fəaliyyətinin əsas prinsiplərindən birini təşkil edir. ARDNF tərəfindən şəffaflığın təmin edilməsi ilk növbədə ARDNF-nin maliyyə fəaliyyəti haqqında hesabatının müstəqil beynəlxalq nüfuzlu auditor tərəfindən yoxlanılması vasitəsilə həyata keçirilir. ARDNF-nin 2019-cu il üzrə maliyyə fəaliyyətinin auditi "Prays Voter Haus Kupers" şirkəti tərəfindən keçirilmişdir.

ARDNF-nin ictimaiyyətlə əlaqələri ARDNF-nin İnformasiya siyasətinə uyğun olaraq qurulur. ARDNF-nin İnformasiya siyasəti "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini nəzərə alaraq ARDNF-nin tərəfdaşlar və ictimaiyyətlə informasiya dövriyyəsinə dair əlaqələrini düzgün və effektli şəkildə təşkil etmək, həmçinin şəffaf dövlət təsisatı imicinin qorunması və inkişaf etdirilməsini təmin etmək məqsədi ilə hazırlanmışdır. İnformasiya siyasəti ARDNF-nin məqsəd və vəzifələrinin icrası çərçivəsində həyata keçirdiyi əməliyyatlar və tədbirlərə dair tərəfdaşların və ictimaiyyətin informasiya tələbatının ödənilməsinin prinsip, məqsəd və vəzifələrini müəyyən edir.

İctimaiyyət ARDNF-nin aktivləri, investisiya fəaliyyəti, gəlir və xərcləri, həyata keçirilən layihələr, ARDNF-nin təşkil etdiyi müxtəlif tədbir və görüşlər barədə pres-relizlər vasitəsi ilə məlumatlandırılır.

ARDNF şəffaflığın təmin olunması məqsədi ilə müvafiq məlumatları, o cümlədən gəlir və xərcləri haqqında rüblük məlumatları, fəaliyyəti barədə illik hesabatları ARDNF-nin rəsmi internet səhifəsində (www.oilfund.az) və sosial şəbəkələrdəki rəsmi səhifələrində yerləşdirir.

ARDNF-yə daxil olan müxtəlif şifahi və yazılı sorğular "İnformasiya əldə etmək" haqqında Qanunda nəzərdə tutulmuş vaxt çərçivəsində və sahibi olduğu informasiyanın təmin edilməsi şərti ilə cavablandırılır.

ARDNF-nin İcraçı direktoru Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyanın sədridir. HSŞ Komissiyasının fəaliyyəti barədə məlumatları http://hssk.gov.az/ linkindən əldə etmək mümkündür.

Suveren Fondların Beynəlxalq Forumu

Suveren Fondların Beynəlxalq Forumu (SFBF) Suveren Fondların Beynəlxalq İşçi Qrupunun 2009-cu il aprelin 5-6-da Əl-Küveyt şəhərində keçirilmiş iclasında yaradılmışdır. SFBF könüllü qrup olub, əsas məqsədi suveren fondların ümumi maraqlarına dair məsələlər ətrafında fikir mübadiləsi aparmaq və Santyaqo Prinsipləri və suveren fondların fəaliyyətinin anlaşılmasını asanlaşdırmaqdır.

ARDNF SFBF-nin aktiv üzvüdür və davamlı olaraq Forumun iclaslarında iştirak edir. Təsadüfi deyil ki, SFBF-nin ilk illik rəsmi iclası 8-9 oktyabr 2009-cu il tarixlərində Azərbaycan hökuməti və ARDNF-nin təşkilatçılığı ilə Bakı şəhərində keçirilmişdir.

10-13 sentyabr 2019-cu il tarixlərində Alyaskanın paytaxtı Cünoda Alyaska Suveren Fondunun təşkilatçılığı ilə SFBF-nin on birinci illik rəsmi iclası keçirilmişdir. Tədbirdə SFBF-nin 32 üzvünün maliyyə və inkişaf institutlarını təmsil edən 70-dən çox nümayəndəsi iştirak etmişdir. İclas zamanı keçirilən səsvermə nəticəsində SFBF-nin on üçüncü illik rəsmi iclasının "CDP Equity" fondunun təşkilatçılığı ilə İtaliyanın Roma şəhərində keçirilməsi qərara alınmışdır. "Qlobal çağırışlar: Texnologiya, Tərəfdaşlıq, Arktika" mövzusunda keçirilən tədbirdə mövcud qlobal investisiya vəziyyəti və beynəlxalq əməkdaşlıq, dünyada maliyyə sabitliyi, innovativ texnologiyaya investisiya yatırımı kimi mövzular müzakirə edilib, panel sessiyalar təşkil olunmuşdur.

SFBF-nin on ikinci illik iclası ARDNF-nin təşkilatçılığı ilə Bakı şəhərində keçiriləcəkdir.

Santyaqo Prinsiplərinin 24-cü prinsipinə əsasən ARDNF bu prinsiplərin tətbiqi ilə bağlı ilk hesabatını 2011-ci ilin may ayında ictimaiyyətə açıqlamışdır və hesabat illik əsasda nəzərdən keçirilir. Hesabat ilə ətraflı şəkildə Əlavədə tanış olmaq olar.

4. ÖLKƏ İQTİSADİYYATI VƏ ARDNF

4.1. MAKROİQTİSADİ İNKİŞAF

Neft bazarları

2019-cu ildə dünya neft bazarlarında müəyyən durğunluq hökm sürmüşdür. 2018-ci ilin sonlarında qiyməti 50 ABŞ dollarınadək düşən neft öz dəyərini qismən bərpa etsə də, 2019-cu ildə neftin 1 barelinin qiyməti əksər proqnozlara rəğmən 60 və 70 ABŞ dolları arasında dəyişmiş, ilin yekununda isə onun orta qiyməti 64 ABŞ dolları təşkil etmişdir. İl ərzində ABŞ-İran qarşıdurmasının kəskinləşməsi, Səudiyyə Ərəbistanında ən böyük neft sənaye kompleksinin hərbi təcavüzə məruz qalması, eləcə də OPEC-in təklifin artımının qarşısını almaq istiqamətində həyata keçirdiyi tədbirlər də qiymətlərin yüksəlməsinə təkan verə bilməmişdir. Buna səbəb kimi həm ABŞ-dakı şist yataqlarının istismarının dinamik inkişafı, həm də dünya iqtisadiyyatında riskdənqaçma tendensiyalarını göstərmək olar. Nəticədə resurs ixracatçıları olan ölkələrdə, xüsusilə də Yaxın Şərq regionunda iqtisadi artım yenə zəifləmişdir. Dünya Bankının (DB) qiymətləndirmələrinə əsasən, 2019-cu ildə təbii resursların xalis ixracatçıları olan ölkələrdə Ümumi Daxili Məhsul (ÜDM) orta hesabla 1,9% artmışdır.

Qlobal inkişaf baxımından 2019-cu il dünya iqtisadiyyatındakı artımın ləngiməsi və 2008-2009-cu illərin böhranından sonra ən aşağı göstəriciyədək enməsi ilə xarakterizə olunmuşdur. Dünyanın ÜDM istehsalında 2,4% artım qeydə alınmışdır ki, bu göstərici 2017-ci ilin (3,2%) və 2018-ci ilin (3,0%) artım səviyyəsindən xeyli aşağıdır. Daha spesifik olaraq, inkişaf etmiş ölkələrdə ÜDM artımı 1,6%, yeni sənayeləşən və inkişaf etməkdə olan ölkələrdə isə 3,5% təşkil etmişdir.

2020-Cİ İLDƏ NEFTİN QİYMƏTİ

2020-ci ilin neft bazarına dair ilkin gözləntilər kifayət qədər optimist xarakter daşıyırdı. 2019-cu ilin dekabr ayında Brent markalı neftin orta qiyməti 67 ABŞ dolları, yəni 2018-ci ilin müvafiq göstəricisindən 10 ABŞ dolları yuxarı olmuşdur. Bu artıma cavabdeh olan amillərin növbəti il özünü daha qabarıq şəkildə göstərəcəyi və beləliklə, neftin qiymətində yuxarıya meylli tendensiyanın hökm sürəcəyi güman olunurdu. Həmin amillər arasında dünya iqtisadiyyatının 2020-ci ildə tədricən canlanması ilə bağlı gözləntilər, ABŞ ilə Çin arasındakı ticarət danışıqlarının uğurlu gedişatı, eləcə də OPEC və partnyor ölkələrinin hasilatın məhdudlaşdırılması siyasətinə davam etmək qərarına gəlməsini qeyd etmək olar. Bundan əlavə, yanvar ayının əvvəllərində Yaxın Şərqdə siyasi vəziyyətin gərginləşməsi neft daşımalarında arakəsmələrin sayını artıraraq risk premiyasını qaldırmışdır.

Lakin Çində meydana gəlmiş və daha sonra bütün dünyada yayılmağa başlayan koronavirus epidemiyası bazar modellərini alt-üst edərək bir çox enerji şirkətini proqnozlarını əhəmiyyətli dərəcədə dəyişməyə vadar etmişdir. Milyardlarla insan təcrid rejiminə keçdikcə qlobal iqtisadi aktivlik İkinci Dünya Müharibəsindən etibarən görünməmiş miqyasda aşağı enmişdir - ABŞ, İtaliya, Fransa kimi ölkələrdə ÜDM-in ilin ikinci rübündə enməsi 25-30%, Çində isə ən azı 10% səviyyəsində təxmin olunur. Yanacağa olan tələbatın aşağı enməsi həm ümumi iqtisadi aktivliyin zəifləməsi, həm də beynəlxalq səyahətlərin kəskin azalması ilə bağlıdır. Bundan əlavə, mart ayında Rusiyanın OPEC+ razılaşması çərçivəsində neft hasilatının daha da azaldılması təklifindən imtina etməsindən sonra Səudiyyə Ərəbistanı və ona yaxın ölkələr razılaşmadan çıxaraq hasilatın maksimum artırılmasını elan etmişdir. Bu tələbatın gündəlik 20 milyon barel miqyasında sürətlə aşağı enməsi şəraitində böyük həcmdə neft təklifinin müştəri tapa bilməməsinə və dünyadakı neft anbarlarının sürətlə dolmasına səbəb olmuşdur. OPEC təşkilatı keçən ilin sonunda tələbatın 2020-ci ildə gündəlik 1,08 milyon barelə artacağını bildirsə də, sonuncu hesabatında bu göstəricini 0,06 milyon barelədək endirmişdir və böyük ehtimal ilə bu göstərici daha da azalacaqdır. Hadisələrin bu gedişatı neftin qiymətinin qısa zamanda 25-30 ABŞ dolları səviyyəsinə düşməsinə səbəb olmuş və proqnozların yaxın zamanda daha radikal endirilməsi zəruriyyətini yaratmışdır.

Lakin neft bazarlarında yaranmış təklif artıqlığının çox yüksək riskli həddə çatdığı məlum olduqda Rusiya və Səudiyyə Ərəbistanı yenidən danışıqları bərpa etdilər. 10 aprel 2020-ci il tarixində OPEC+ qrupu üzvləri və yeni iştirakçılar, o cümlədən bu danışıqlara ilk dəfə qoşulan ABŞ arasında birgə razılıq əldə olunmuşdur. Sözügedən razılıq neft hasilatının misli görünməmiş miqyasda, gündə 10 milyon barelə (ümumi hasilatın 10%-dən çoxu) azaldılmasını nəzərdə tutur. Bu azalma 20 mb/g təşkil etmiş qlobal tələbat itkisini tamamilə kompensasiya etməsə belə ən azından xam neftin anbarlarda saxlanma imkanlarının tükənməsi təhlükəsinin qarşısını almış və bazara müəyyən qədər sabitlik gətirə bilmişdir. Beləliklə, ABŞ Enerji İnformasiya İdarəsinin (EİA) sonuncu yenilənməsində Brent neftinin barelinin illik orta qiyməti 33,04 ABŞ dol-

ları, WTI neftinin qiyməti isə 29,34 ABŞ dolları səviyyəsində proqnozlaşdırılmışdır. İlin əvvəlində irəli sürülən proqnozlarla müqayisədə (68 və 65 ABŞ dolları) 50-60% enmə müşahidə olunur. Barclays Bankı Brent markalı neftin qiymətini 31 ABŞ dolları, Goldman Sachs isə 30 ABŞ dolları səviyyəsində təxmin edir.

Təbii qaz bazarları qısamüddətli şoklara neftdən fərqli reaksiya göstərsə də, orada da qiymətlər aşağı yönümlə təzyiqə məruz qalır. Goldman Sachs tərəfindən verilən cari il üçün proqnozda ABŞ maye qazı üzrə qiymət 2,50 $/MMBtu-dan 1,60 $/MMBtu-dək endirilmişdir, Avropa və Asiya bazarlarında isə qazın qiyməti 2,30-2,50 $/MMBtu aralığında ehtimal olunur. ABŞ qazının dünyada tələbatın sabit artımından asılı və qiymətinin daha elastik olduğundan onun xüsusilə böyük risklərlə üzləşməsi ehtimal olunur. Eyni zamanda, artıq 2021-ci ildə qaz bazarında yeni canlanma proqnozlaşdırılır və bu da qiymətlərin 10-15% bahalaşmasına səbəb ola bilər. Həmçinin nəzərdə saxlamaq lazımdır ki, epidemioloji şəraitin ilin ortalarınadək sabitləşməyəcəyi təqdirdə daha kəskin bazar zəifləməsini gözləmək olar.

2019-cu ildə Brent neftinin qiyməti (ABŞ dolları/barel)



Mənbə: Statista.com

Ölkə iqtisadiyyatı və ARDNF

2019-cu ildə qarşısına qoyulmuş məqsəd və vəzifələrin icrasına uyğun olaraq ARDNF tərəfindən neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirlərin gələcək nəsillər üçün toplanması və vəsaitlərin idarə edilməsi təmin edilmişdir. Belə ki, ötən il xam neftin qiymətlərinin sabitliyi şəraitində, eləcə də Fondun vəsaitinin idarəolunmasından əldə edilən gəlirlərin yüksək olması şəraitində ARDNF-nin gəlirlərində əhəmiyyətli artım qeydə alınmışdır.

2019-cu ildə manatın məzənnəsi sabit səviyyədə dəyişməz qalaraq 1,70 təşkil etmişdir. Ötən ildə inflyasiya göstəricisi də mülayim 2,6% səviyyəsində olmuşdur. ÜDM-in həcmi 2019-cu ildə nominal rəqəmlərdə 81 681,0 milyon manata qədər, real ifadədə isə 2,2% artmışdır (müqayisə üçün 2018-ci ildə ÜDM 1,4%, 2017-ci ildə isə 0,1% artmışdır).

2019-cu ildə adambaşına düşən ÜDM-in dəyəri 8 247,0 manat olmuş, 2018-ci ilin müvafiq göstəricisi ilə müqayisədə real hesabla 1,4% artmışdır.

Eyni zamanda Beynəlxalq Valyuta Fondunun (BVF) qiymətləndirməsinə əsasən, alıcılıq qabiliyyəti nəzərə alınarkən hesablanan ÜDM-in adambaşına düşən payı 18 615,8[1] ABŞ dolları səviyyəsində qiymətləndirilmiş və real hesabla 1,5% yüksəlmişdir. Əhalinin gəlirləri əvvəlki il ilə müqayisədə nominal ifadədə 7,4% artaraq 57 035,0 milyon manata qədər yüksəlmişdir. Adambaşına düşən gəlirin məbləği 6,5% artaraq 5 758,6 manata, orta aylıq nominal əmək haqqı isə 16,6% səviyyəsində artım tempini nümayiş etdirərək 634,8 manata çatmışdır.

Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında əvvəlki ilin müvafiq məbləğindən nominal ifadədə 7,1% çox və ya 52 500 milyon manat səviyyəsində vəsait qalmışdır. Ölkədə istehsal edilən ÜDM-in 61,7%-lik payı qeyri-neft sektorunun payına düşmüşdür.

Qrafik 4.1.1. Alıcılıq qabiliyyəti pariteti qiymətləri ilə adambaşına düşən ÜDM (cari beynəlxalq dollar ilə)



Mənbə: BVF

Ümumi həcmi 81 681,0 milyon manat təşkil edən ÜDM-in 54,4%-i malların istehsalı, 36,9%-i xidmətlər, 8,7%-i isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Əvvəlki il ilə müqayisədə qeyri-neft sektorunda əlavə dəyər istehsalı real hesabla 3,5%, neft sektorunda isə 0,4% artmışdır.

Qrafik 4.1.2. Qeyri-neft sektorunun ÜDM-də payı



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (ARDSK)

Eyni zamanda xidmətlər sektorunda nisbi sabitlik hökm sürmüşdür. Ötən ildə sənaye sektoru Azərbaycan iqtisadiyyatının strukturunda aparıcı mövqeyini saxlamış, onun ÜDM-də payı 41,4% təşkil etmişdir.

[1] BVF-nin 2019-cu il üzrə qiymətləndirmələri

Qrafik 4.1.3. ÜDM-in istehsal strukturu



Mənbə: ARDSK

2019-cu ildə Azərbaycan iqtisadiyyatının əksər sahələrində real artım qeydə alınmışdır. Xüsusilə də sözügedən sahələrdə islahat proseslərinin baş verdiyini nəzərə alaraq, informasiya və rabitə (15,9%), kənd təsərrüfatı (7,3%), eləcə də turizm və ictimai iaşə (6,4%) sektorlarının irəliləyişini qeyd etmək lazımdır. Həmçinin son illərdə aparılan islahatların bəhrəsi olaraq qeyri-neft sənayesinin əhəmiyyətli artması (14,5%) xüsusi vurğulanmalıdır.

Qrafik 4.1.4. İstehsal sahələrinin artım templəri



Mənbə: ARDSK

Hesabat ilində Azərbaycanda əsas kapitala yönəldilmiş vəsait 2018-ci il ilə müqayisədə real ifadədə 2,3% azalaraq 17 184,3 milyon manat təşkil etmişdir. Həmin məbləğdən 69,8%-i daxili, 30,2%-i isə xarici investisiyaların payına düşmüşdür. Vəsaitin 65,4%-i bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. İnvestisiya qoyuluşundakı azalma neft sektoru ilə bağlıdır, qeyri-neft sektorunda isə 4,0% (nominal) artım qeydə alınmışdır.

Qrafik 4.1.5. Əsas kapitala yönəldilmiş vəsaitlərin dinamikası (milyon manat ilə)



Mənbə: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi

Strateji valyuta ehtiyatları

31 dekabr 2019-cu il tarixinə ölkənin strateji valyuta ehtiyatlarının (ARDNF və Azərbaycan Respublikası Mərkəzi Bankı) həcmi 49 581,3 milyon ABŞ dolları təşkil edərək keçən ilin sonu ilə müqayisədə 5,4 milyard ABŞ dolları və yaxud 12,3% artmışdır. Həmin ehtiyatların 87,4%-i ARDNF-nin aktivlərinin payına düşür.

2019-cu ildə ABŞ dolları ifadəsində ARDNF-nin vəsaitinin ÜDM-ə nisbəti 90%-ə bərabər olmuşdur.

Qrafik 4.1.6. ARDNF-nin aktivlərinin ÜDM-ə nisbəti



Mənbə: ARDNF və ARDSK

2019-cu ildə əvvəlki illər ilə müqayisədə xam neftin qiymətlərinin sabitliyi şəraitində, eləcə də ARDNF-nin vəsaitinin idarəolunmasından əldə edilən gəlirlərin il ərzində əhəmiyyətli artması ilə bağlı Fondun gəlirlərində əhəmiyyətli artım qeydə alınmışdır. Ötən il ARDNF-yə daxil olan neft gəlirləri üzrə xam neftin bir barelinin Fonda ortaçəkili mədaxil qiyməti 64 ABŞ dollarına bərabər olmuş, ARDNF-nin büdcə gəlirləri 11,19 milyard ABŞ dolları təşkil etmiş, ARDNF-nin ehtiyatları isə 43,32 milyard ABŞ dolları səviyyəsinə yüksəlmişdir.

Qrafik 4.1.7. ARDNF-nin gəlir, xərc və aktivləri (milyard ABŞ dolları ilə)



2019-cu ilin sonuna Azərbaycan Respublikası Mərkəzi Bankının (ARMB) rəsmi valyuta ehtiyatları ilin əvvəli (5 625,7 milyon ABŞ dolları) ilə müqayisədə təxminən 632,3 milyon ABŞ dolları (11,2%) artaraq 6 258 milyon ABŞ dolları təşkil etmişdir. Beləliklə, strateji valyuta ehtiyatlarının (ARDNF və ARMB) həcmi 49,6 milyard ABŞ dolları təşkil etmişdir.

Qrafik 4.1.8. Strateji valyuta ehtiyatları (milyard ABŞ dolları ilə)



Mənbə: ARDNF və ARMB

Fiskal dayanıqlığın təmin edilməsi

2019-cu ildə ölkədə fiskal tarazlığın qorunmasında ARDNF-nin böyük rolu olmuşdur. Belə ki, 2019-cu ildə dövlət büdcəsinin daxilolmalarının 11,36 milyard manatı və yaxud 47,0%-i ARDNF-dən dövlət büdcəsinə köçürülən transfert ödənişləri hesabına formalaşmışdır ki, xam neftin qiymətlərindən asılı olmayaraq ARDNF tərəfindən dövlət büdcəsi qarşısında öhdəliklərin vaxtında icrası, fiskal sabitliyin qorunması təmin edilmişdir. ARDNF-nin aktivlərinin artımı ölkənin maliyyə dayanıqlılığının qorunmasına və borclanma əmsalının aşağı düşməsinə müsbət təsir etmişdir.

Eyni zamanda 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 24 218,1 milyon manat, xərcləri 24 425,9 milyon manat həcmində icra olunmuş və 2019-cu ildə dövlət büdcəsinin kəsiri ÜDM-in (81 681,0 milyon manat) -0,3%-ni təşkil etmişdir.

Qrafik 4.1.9. 2011-2019-cu illər ərzində Azərbaycan dövlət büdcəsinin profisiti/kəsirinin ÜDM-ə nisbəti



Mənbə: ARMB

2003-2019-cu illərdə ARDNF tərəfindən dövlət büdcəsinə ümumilikdə 99,94 milyard manat vəsait transfert edilmişdir.

Qrafik 4.1.10. 2003-2019-cu illərdə ARDNF-nin transfertinin dövlət büdcəsinin gəlirlərində payı



Mənbə: ARDNF, ARDSK

Hesabat ilində xam neftin orta satış qiymətinin ARDNF-nin büdcəsində nəzərdə tutulmuş 60 ABŞ dollarından daha yüksək, 64 ABŞ dolları səviyyəsində olması, eləcə də Fondun vəsaitinin idarəolunmasından gəlirlilik göstəricisinin proqnozları əhəmiyyətli dərəcədə üstələməsi ARDNF-nin ümumi gəlirlərinin büdcəyə nisbətən 23,2%, vəsaitlərin idarəolunmasından əldə edilən gəlirlərinin isə 151,4% artıq icrasına şərait yaratmışdır. 2001-2019-cu illər ərzində ARDNF-nin daxilolmaları 159,4 milyard ABŞ dolları səviyyəsində olmuş, bu vəsaitin təxminən 43,3 milyard ABŞ dolları (27,2%) yığıma yönəldilmişdir.

RESURS İXRACATÇISI ÖLKƏLƏRİNİN FİSKAL YANAŞMALARI: ÜÇ NÜMUNƏ

Təbii resursla zənginlik bəzi hallarda bir-biri ilə mürəkkəb əlaqədə olan çoxsaylı iqtisadi qüsurların yaranmasına səbəb olur. Əksər təbii resursların qiymətlərinin qeyri-sabit və tsiklik olması, eləcə də resurs satışından qaynaqlanan yüksək gəlirlərin iqtisadi və institusional inkişafa stimulları məhv edə bilməsi bir çox resurs ixracatçısı üçün müxtəlif problemlər yaratmışdır. Resurs hasilatının əksər ölkələrdə tamamilə və ya qismən hökumətlərin nəzarətində olduğunu nəzərə alaraq fiskal siyasətin düzgün qurulması xüsusi önəm daşıyır. Resurs ölkələrinin təmin etməli olduğu əsas vəzifələr bunlardır: dövlət xərclərini resurs tsiklinin qalxma və enmələrindən qorumaq, gəlirlərin bir qismini gələcək nəsillər üçün saxlamaq və sözügedən əlavə gəlirləri uzunmüddətli inkişafa əngəl yaradan məsələlərin aradan qaldırılmasına yönəltmək. Lakin hər ölkə seçim qarşısında qalaraq öz milli inkişaf strategiyası və makroiqtisadi vəziyyətinə uyğun olaraq bəzi məqsədləri digərlərindən üstün tutmalıdır. Burada üç çox fərqli resurs ölkəsinin nümunəvi sayılan fiskal çərçivələrinə nəzər salacağıq.

Öz neft gəlirlərini idarə etmək məqsədilə böyük suveren fond yaradan ilk ölkələrdən biri Norveç olmuşdur. İlkin yığım dövründən sonra o, ancaq Fondun vəsaitinin idarəolunmasından gələn gəliri dövlət büdcəsinə yönəltməyə icazə verən ehtiyatlı büdcə qaydası qəbul etmişdir. İllik neft gəlirləri isə birbaşa Norveçin iki fonduna daxil olurdu. Bu yanaşma Norveçə son illərdə 1 trilyon ABŞ dollarına yaxın vəsait yığmağa kömək etmişdir ki, bu da neft sərvətlərinin nümunəvi idarəolunması misalı kimi təqdim edilir. Digər tərəfdən, ölkənin ilkin şəraiti də nəzərə alınmalıdır: nəhəng neft ixracatçısına çevrildiyi zaman Norveç kəskin infrastruktur çatışmazlıqları yaşamırdı və artıq orta gəlirli bazar iqtisadiyyatına malik idi, beləliklə də onun neftdən asılılığı digər resurs ixracatçılarının böyük əksəriyyətində olduğu kimi deyildi. Bu səbəbdən inkişaf etməkdə olan ölkələr başqa modellər düşünməli oldu. Bu problemə ən yaxşı cavablardan biri kimi Çilinin yanaşması qeyd olunur. Böyük mis istehsalçısı olan bu ölkə pik qiymətlər dövründə toplanan gəlirlərinin bir hissəsini aşağı qiymət dövrləri üçün saxlayaraq, iqtisadiyyatı protsiklikdən (kəskin artım və yaxud azalma) qorumuşdur. Bu məqsədlə, Çili mis ixracından əldə edilən gəlirlərinin hər il xərcləyə biləcəyi məbləğin yuxarı həddini müəyyən edən struktur büdcə balansı qaydasını qəbul etmişdir. Həmin qayda elə qurulmuşdur ki, bu hədd ildən-ilə faktiki resurs gəlirindən asılı olmadan təxminən dəyişməz qalır. Yerdə qalan gəlirlər isə "yağışlı gün" və yaxud "təhlükəsizlik yastığı" üçün yığılan Ehtiyat Fonduna və ölkənin pensiya öhdəliklərini yerinə yetirən Pensiya Fonduna yönəldilir. Bu fiskal siyasət Çiliyə illik büdcəni sabitləşdirərək "bazardan sıxışdırılma" effektindən qorunmağa, eləcə də böhran illərində dövlət xərclərini sabit saxlayaraq (hətta bir qədər artıraraq) onlardan mümkün qədər zərərsiz çıxmağa imkan vermişdir. Eyni zamanda Çilinin fiskal qaydası uzunmüddətli dövr üçün valyuta ehtiyatlarını yığmaq məqsədini güdmür: hal-hazırda ölkənin ehtiyatları ÜDM-nin təxminən 15%-ni təşkil edir.

Ən böyük brilyant ixracatçısı olmuş Afrika ölkəsi - Botsvana tam başqa bir yanaşma seçmişdir. Botsvana hökuməti təbii resurs gəlirlərindən sırf investisiya layihələrinə - infrastrukturun qurulması, qeyri-resurs iqtisadiyyatının yaradılması, Afrikada ən yaxşılarından olan səhiyyə və təhsil sistemlərinin inkişafı məqsədlərinə istifadə olunmasına icazə vermişdir. Bütün bu investisiya layihələri müvafiq müstəqil qurum tərəfindən təhlil olunaraq təsdiq olunmalı və Milli İnkişaf Planına daxil olunmalıdır.

Xarici ticarət

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin (ARDGK) statistik məlumatlarına əsasən, hesabat ilində xarici ticarət əməliyyatlarının həcmi 33,31 milyard ABŞ dollarına bərabər olmuş və bunun 19,64 milyard ABŞ dolları ixracın, 13,67 milyard ABŞ dolları isə idxalın payına düşmüşdür. Hesabat ilində xarici ticarət əməliyyatlarının həcmində 2018-ci il ilə müqayisədə 7,7% artım müşahidə edilmişdir, ixrac əməliyyatlarının həcmi 0,9%, idxal əməliyyatlarının həcmi isə 19,3% artmışdır.

Qrafik 4.1.11. Xarici ticarət əməliyyatları (milyard ABŞ dolları ilə)



Mənbə: ARDGK

Qeyri-neft sektorunda ixrac

2019-cu ildə qeyri-neft məhsullarının ixracında əsas yeri meyvə-tərəvəz, plastmas, alüminium, qara metallar və onlardan hazırlanan məmulatlar, pambıq, kimya sənayesi məhsulları təşkil etmişdir. Qrafik 4.1.12.-dən göründüyü kimi, əsas ixrac məhsullarından meyvə-tərəvəz və pambıq ixracında illər üzrə əhəmiyyətli artım müşahidə edilmişdir.

Qrafik 4.1.12. Qeyri-neft sektorunda ən çox ixrac olunan mallar (milyon ABŞ dolları ilə)



Mənbə: ARDGK

4.2. ARDNF-NİN GƏLİRLƏRİ

2019-cu ildə ARDNF-nin büdcəsində xam neftin bir barelinin orta satış qiyməti 60 ABŞ dolları götürüldüyü halda il ərzində bir barelin ortaçəkili satış qiyməti 64 ABŞ dolları təşkil etmişdir. Neftin qiymətinin ARDNF-nin büdcəsində nəzərdə tutulana nisbətən yüksək olması ARDNF-nin karbohidrogenlərin satışından daxilolmalarının büdcədə nəzərdə tutulandan artıq icra olunmasına şərait yaratmışdır. Hesabat ilində Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər, bonus ödənişləri, akrhesabı ödənişlər, neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı) və ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər ARDNF-nin büdcə gəlirlərinin formalaşma mənbələrini təşkil etmişdir. 2019-cu ildə ARDNF-nin büdcə gəlirləri 19 030,6 milyon manat (11 194,5 milyon ABŞ dolları) təşkil etmişdir. 2018-ci ilə (10 361,0 milyon ABŞ dolları) nəzərən 2019-cu ildə ARDNF-nin gəlirləri dollar ifadəsində 8% çox olmuşdur.

Qrafik 4.2.1. **ARDNF-nin gəlirləri (milyard ABŞ dolları ilə) və neftin orta satış qiyməti (ABŞ dolları ilə)**



Mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər. Mənfəət neftinin və qazın satışından ARDNF-nin büdcəsinə 2019-cu ildə 14 614,7 milyon manat və ya 8 596,9 milyon ABŞ dolları məbləğində vəsait daxil olmuşdur.

Azərbaycan Respublikasında dənizdə və quruda yerləşən yataqların işlənməsi üzrə bağlanmış Hasilatın Pay Bölgüsü haqqında Sazişlərə (HPBS) uyğun olaraq 2019-cu ildə Azəri-Çıraq-Günəşli (AÇG) yatağından hasil edilmiş mənfəət neftinin satışından daxil olmuş məbləğ bu gəlir maddəsi üzrə ümumi daxilolmaların təqribən 92,1%-ni (7 921,3 milyon ABŞ dolları) təşkil etmiş və Şahdəniz yatağından hasil olunmuş təbii qazın satışından 277,3 milyon ABŞ dolları, kondensatın satışından 343,2 milyon ABŞ dolları və digər yataqlar üzrə 55,1 milyon ABŞ dolları həcmində vəsait daxil olmuşdur. Bununla yanaşı, 2016-cı ilin may ayından etibarən Dövlət Neft Şirkəti tərəfindən "Şahdəniz" Faza 1 layihəsi çərçivəsində SOCAR (Azərbaycan dövləti) və alıcılar arasında qazın alqı-satqısı üzrə bağlanmış sazişlər çərçivəsində müvafiq illik qaz həcmlərinin artıq həcmdə SOCAR tərəfindən alışı səbəbindən həmin artıq həcmlərin alışına yönəldilmiş ümumilikdə 820,4 milyon ABŞ dolları məbləğində vəsait ARDNF-yə daxil edilməmişdir.

Qrafik 4.2.2. **2019-cu ildə ARDNF-nin gəlirləri (milyon ABŞ dolları ilə)**



Qrafik 4.2.3. **2019-cu ildə mənfəət nefti və qazın satışından ARDNF-yə daxilolmalar (milyon ABŞ dolları ilə)**



ARDNF-nin vəsaitlərinin idarə olunmasından əldə edilən gəlirlər. 2019-cu ildə ARDNF-nin qəbul olunmuş investisiya siyasətinə uyğun olaraq borc öhdəlikləri və pul bazarları alətləri, səhm, daşınmaz əmlak və qızıl portfelləri üzrə vəsaitlərin yerləşdirilməsi həyata keçirilmişdir. Bu gəlir maddəsi üzrə 2019-cu ildə ARDNF-yə 2 132,9 milyon ABŞ dolları və yaxud 3 625,9 milyon manat məbləğində gəlir daxil olmuşdur. Hesabat ilində ARDNF-nin investisiya portfelinin gəlirliliyi 5,29% təşkil etmişdir ki, bu nəticə də ötən ilin müvafiq göstəricisi (0,35%) ilə müqayisədə 4,94% çoxdur.

Bonus ödənişləri ilə bağlı daxilolmalar. 2019-cu ildə ARDNF-yə neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı 450,8 milyon ABŞ dolları və yaxud 766,4 milyon manat bonus ödənişləri daxil olmuşdur. Cədvəl 4.2.1.-də şirkətlər üzrə bonus ödənişləri verilmişdir.

Cədvəl 4.2.1. 2019-cu ildə ARDNF-nin bonus ödənişləri ilə bağlı daxilolmaları

Vəsaiti köçürən qurumun adı	Yatağın adı	Tarix	Məbləğ	
			milyon ABŞ dolları	milyon AZN
BP Eksploreyşn (Kaspian Si)	Azəri-Çıraq-Günəşli	03.01.2019	450,00	765,00
BP Eksploreyşn (Kaspian Si)	Şahdəniz	25.01.2019	0,27	0,47
Petronas	Şahdəniz	29.01.2019	0,15	0,25
LUKOİL	Şahdəniz	29.01.2019	0,10	0,16
NİCO	Şahdəniz	29.01.2019	0,09	0,16
TPAO	Şahdəniz	31.01.2019	0,18	0,31
Cəmi			**450,79**	**766,35**

Tranzit haqları ilə bağlı daxilolmalar. 2019-cu ildə karbohidrogenlərin Azərbaycan ərazisi ilə ötürülməsindən ARDNF-nin büdcəsinə 11,1 milyon ABŞ dolları və yaxud 18,9 milyon manat məbləğində gəlir (tranzit haqqı) daxil olmuşdur. Sözügedən gəlir maddəsi üzrə daxilolmalar barədə ətraflı məlumat Cədvəl 4.2.2.-də verilmişdir.

Cədvəl 4.2.2. 2019-cu ildə ARDNF-nin tranzit haqları ilə bağlı daxilolmaları

Vəsaiti köçürən qurumun adı	Tarix	Məbləğ	
		milyon ABŞ dolları	milyon AZN
ABƏŞ	15.01.2019	1,09	1,84
ABƏŞ	13.02.2019	0,95	1,62
ABƏŞ	13.03.2019	0,98	1,66
ABƏŞ	15.04.2019	1,10	1,88
ABƏŞ	13.05.2019	0,55	0,95
ABƏŞ	18.06.2019	0,59	1,00
ABƏŞ	12.07.2019	1,05	1,79
ABƏŞ	14.08.2019	0,49	0,83
ABƏŞ	12.09.2019	1,09	1,85
ABƏŞ	15.10.2019	1,06	1,80
ABƏŞ	19.11.2019	1,10	1,88
ABƏŞ	**12.12.2019**	**1,09**	**1,84**
Cəmi		**11,14**	**18,94**

Akrhesabı ödənişlər ilə bağlı daxilolmalar. 2019-cu ildə Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR ilə BP Eksploreyşn (Kaspian Si) Limited və SOCAR-ın ortaq neft şirkəti arasında imzalanmış sazişə uyğun olaraq 4,7 milyon manat (2,8 milyon ABŞ dolları) məbləğində akrhesabı ödənişlər ARDNF-yə köçürülmüşdür. Şirkətlər üzrə akrhesabı ödənişlər Cədvəl 4.2.3.-də göstərilmişdir.

Cədvəl 4.2.3. 2019-cu ildə ARDNF-nin akrhesabı ödənişləri ilə bağlı daxilolmaları

Vəsaiti köçürən qurumun adı	Yatağın adı	Tarix	Məbləğ	
			milyon ABŞ dolları	milyon AZN
BP Eksploreyşn (Kaspian Si)	Abşeron yarımadası ətrafında dayazsulu sahə	24.04.2019	0,64	1,09
BP Eksploreyşn (Kaspian Si)	Şəfəq-Asiman	05.07.2019	2,12	3,60
Cəmi			**2,76**	**4,69**

4.3. ARDNF-NİN XƏRCLƏRİ

2019-cu ildə ARDNF-nin büdcə xərcləri məcburi köçkünlərin məskunlaşdırılması tədbirlərinə ayrılmış vəsait, dövlət büdcəsinə transfert və ARDNF-nin idarə edilməsi ilə bağlı xərc maddələri hesabına formalaşmışdır. Hesabat ilində ARDNF-nin büdcəsindən bu istiqamətlər üzrə ümumilikdə 11 588,6 milyon manat (6 816,8 milyon ABŞ dolları) məbləğində vəsait ayrılmışdır. 2019-cu ildə ARDNF-nin büdcəsindən dövlət büdcəsinə köçürülmüş transfertin məbləği 11 364,3 milyon manat və eyni zamanda ümumi büdcə xərclərinin 98,1%-ni təşkil etmişdir. Sosial layihənin maliyyələşdirilməsi (200 milyon manat) və ARDNF-nin idarə edilməsi ilə bağlı xərclər (24,3 milyon manat) ARDNF-nin 2019-cu ildəki büdcə xərclərinin 1,9%-ni təşkil etmişdir. Qrafik 4.3.1. və Qrafik 4.3.2. vasitəsi ilə ARDNF-nin 2019-cu il büdcə xərclərinin xərc maddələri üzrə strukturu təqdim edilmişdir.

Qrafik 4.3.1. 2019-cu ildə ARDNF-nin xərclərinin strukturu



Qrafik 4.3.2. 2019-cu ildə ARDNF-nin xərcləri (milyon manat ilə)



Dövlət büdcəsinə transfert. 2019-cu ildə dövlət büdcəsinin gəlirləri 24 218,1 milyon manat təşkil etmiş və bunun 11 364,3 milyon manatı və yaxud 46,9%-i ARDNF tərəfindən transfert edilmişdir. Transfert dövlət büdcəsi xərclərinin (24 425,9 milyon manat) 46,5%-ni təşkil etmişdir.

2003-2019-cu illərdə dövlət büdcəsinə ümumilikdə ARDNF tərəfindən 99,9 milyard manat və yaxud 99,7 milyard ABŞ dolları məbləğində vəsait köçürülmüşdür. Bu dövr ərzində ARDNF-nin cəmi büdcə xərcləri 112,4 milyard manat olmuş və transfertlər bu xərclərin 88,9%-ni təşkil etmişdir. Dövlət büdcəsinə transfertin illər üzrə bölgüsü, həmçinin 2003-2019-cu illərdə transfertin dövlət büdcəsinin gəlir və xərclərində payı müvafiq olaraq Qrafik 4.3.3., 4.3.4. və 4.3.5.-də göstərilmişdir.

Qrafik 4.3.3. ARDNF-dən dövlət büdcəsinə transfertin illər üzrə bölgüsü (milyon manat ilə)



Qrafik 4.3.4. Transfertin dövlət büdcəsinin gəlirlərində payı



Qrafik 4.3.5. Transfertin dövlət büdcəsinin xərclərində payı



Məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi. “Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” layihəsi ARDNF tərəfindən 2001-ci ildən başlayaraq maliyyələşdirilməkdədir. 2001-2019-cu illər ərzində ARDNF-nin büdcəsindən ümumilikdə bu tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə 2 502,7 milyon manat vəsait xərclənmişdir. O cümlədən hesabat ilində ARDNF tərəfindən məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə 200 milyon manat vəsait ayrılmışdır. 2001-ci ildən etibarən Dövlət Proqramının maliyyələşdirilməsinə ayrılan vəsaitin illər üzrə bölgüsü Qrafik 4.3.6.-da təqdim edilmişdir.

Qrafik 4.3.6. ARDNF tərəfindən qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün ayrılan vəsaitin illər üzrə bölgüsü (milyon manat ilə)



ARDNF-dən ayrılmış ümumi vəsait hesabına 36 752 ailə üçün fərdi evlərdən ibarət 72 qəsəbə, habelə hündürmərtəbəli binalardan ibarət 22 məhəllə və bir çox sosial-infrastruktur obyektləri tikilmişdir. 2019-cu ildə qeyd edilən tədbirlər çərçivəsində 3 məhəllə və 1 qəsəbədə 1 855 məcburi köçkün ailəsi üçün mənzillər tikilmiş və ailələr həmin mənzillərə köçürülmüşdür. Bundan əlavə 4 məktəb, 4 uşaq bağçası, 3 tibb məntəqəsi, 4 icma mərkəzi, 4 inzibati bina, 2 rabitə qovşağı, 11 su anbarı, 12 nasos stansiyası, 20 yüksək gərginlikli iri və kiçik transformatorlar, 1 elektrik yarımstansiyası, 19,2 km avtomobil yolları, 41,9 km içməli su xətti, 69,3 km elektrik xəttləri, 54,4 km qaz xətti və 9,3 km kanalizasiya sistemi olan sosial-mədəni-infrastruktur obyektlərinin tikintisi tamamlanmışdır. Bu maddə üzrə xərclər ARDNF-nin 2019-cu il üzrə ümumi büdcə xərclərinin 1,7%-ni təşkil etmiş və 2018-ci il səviyyəsində olmuşdur.

ARDNF TƏRƏFİNDƏN MALİYYƏLƏŞDİRİLƏN LAYİHƏLƏR

2001

- İlk layihənin, “Qaçqın və məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər”in maliyyələşdirilməsinə başlanıldı.

2005

- BTC-nin Azərbaycan Respublikası ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirildi.

2007

- ARDNF-nin vəsaitləri hesabına “Bakı–Tbilisi–Qars yeni dəmir yolu” layihəsinin maliyyələşdirilməsinə başlanıldı.

2002

- BTC əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə start verildi.

2006

- “Oğuz-Qəbələ-Bakı su kəmərinin çəkilməsi” və “Samur-Abşeron suvarma sisteminin yenidən qurulması” layihələrinin maliyyələşdirilməsinə başlanıldı.
- Azərbaycan İnvestisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılmasına vəsait yönəldildi.

2010

- “Oğuz-Qəbələ-Bakı” su kəməri istismara verildi.

2018

- "Star" neft emalı kompleksinin rəsmi açılışı oldu.
- Xəzər dənizində yeni, müasir, üzən qazma qurğusu istismara verildi.

2019

- Türkiyədə TANAP - Trans - Anadolu qaz kəmərinin istifadəyə verilməsi mərasimi keçirildi.

2008

- “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsinə başlanıldı.

2017

- “Bakı–Tbilisi–Qars yeni dəmir yolu”nun rəsmi açılışı oldu.

2014

- “Cənub Qaz Dəhlizi”nin təməli qoyuldu.
- “Cənub Qaz Dəhlizi” QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının maliyyələşdirilməsinə vəsait yönəldi.

5. İNVESTİSİYALAR

5.1. İNVESTİSİYA STRATEGİYASI

ARDNF-nin investisiya strategiyasının əsasını irihəcmli itkilərin minimuma endirilməsi şərti ilə maksimal gəlirliliyin əldə edilməsi təşkil edir. Portfelin maliyyə alətləri və ölkələr üzrə geniş diversifikasiyası, eləcə də makroiqtisadi mühitin daimi təhlili bu məqsədə nail olmağa və investisiya portfelinin stabil gəlirliliyinin təmin edilməsinə xidmət edən amillərdəndir.

ARDNF-nin investisiya fəaliyyətinin hüquqi bazasını təyin etmək və yüksək şəffaflığın təmin edilməsi məqsədilə dövlət tərəfindən ARDNF-nin vəsaitlərinin idarə edilməsinin əsas prinsip və istiqamətləri müəyyənləşdirilmişdir. ARDNF-nin vəsaitləri Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"a (İnvestisiya Qaydaları) və Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə illik əsasda təsdiq olunan "Azərbaycan Respublikası Dövlət Neft Fondunun İnvestisiya siyasəti"nə əsasən idarə olunur.

İnvestisiya Qaydaları ARDNF-nin vəsaitlərinin idarə edilməsinin ümumi prinsiplərini müəyyən edir. Belə ki, qeyd olunan İnvestisiya Qaydaları vəsaitlərin maliyyə alətlərinə və valyutalara görə bölgüsünü, investisiya alətləri üzrə məhdudiyyətləri, xarici menecerlərə qarşı olan tələbləri, eləcə də ARDNF-nin tərəf müqabilləri (kastodial banklar, müxbir banklar və s.) ola biləcək qurumların minimal kredit reytinq dərəcələrini müəyyənləşdirir.

İnvestisiya siyasəti ARDNF-nin investisiya portfelinin hədəflərini, proqnozlaşdırılan həcmini, valyuta tərkibini, vəsaitlərin strateji bölgüsünü, hədəf gəlirliliyi (bençmark) və bir sıra risk hədlərini müəyyən edir.

ARDNF-nin uzunmüddətli hədəflərinə uyğun olaraq, portfelin investisiya alətləri üzrə bölgüsü illik əsasda nəzərdən keçirilir və təsdiqlənir. 2019-cu il İnvestisiya siyasətinə əsasən investisiya portfeli aşağıdakı altportfellərə bölünmüşdür:

- 55% - borc öhdəlikləri və pul bazarları alətləri (aşağı uzaqlaşma intervalı maksimum 5 faiz olmaqla);
- 25% - səhm (maksimum 5 faizə qədəri səhmlərə və kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondları olmaqla);
- 10% - daşınmaz əmlak (yuxarı uzaqlaşma intervalı maksimum 2 faiz olmaqla);
- 10% - qızıl (yuxarı uzaqlaşma intervalı maksimum 3 faiz olmaqla).

2019-cu ilin dekabr ayına olan vəsaitlərin strateji bölgüsünə əsasən ARDNF-nin investisiya portfelinin 68,7%-i sabit gəlirli qiymətli kağızlar və pul bazarı alətlərindən, 14,1%, 11,4%, 5,8%-i isə müvafiq olaraq səhmlər, qızıl və daşınmaz əmlak investisiyalarından ibarət olmuşdur.

Cədvəl 5.1.1. Vəsaitlərin hədəf bölgüsü

PORTFEL 31 DEKABR 2018

Sabit gəlirli qiymətli kağızlar 76,5%
Səhmlər 12,8%
Daşınmaz əmlak 5,3%
Qızıl 5,4%

PORTFEL 31 DEKABR 2019

Sabit gəlirli qiymətli kağızlar 68,7%
Səhmlər 14,1%
Daşınmaz əmlak 5,8%
Qızıl 11,4%

HƏDƏF PORTFELİ 31 DEKABR 2019

Sabit gəlirli qiymətli kağızlar 55%
Səhmlər 25%
Daşınmaz əmlak 10%
Qızıl 10%

Sabit gəlirli qiymətli kağızlar və pul bazarları alətləri üçün seçilmiş hədəf gəlirliliyi 6 aylıq LİBOR faiz dərəcəsi (avroda ifadə olunan aktivlər üçün 6 aylıq EURİBOR faiz dərəcəsi), cari səhm portfelinin hədəf gəlirliliyi isə "MSCI World" indeksi olaraq müəyyən edilmişdir.

Cədvəl 5.1.2. 2019-cu il üzrə ARDNF-nin investisiya fəaliyyətinin cari istiqamətlərini cəmləşdirir.

Cədvəl 5.1.2. 2019-cu il üzrə ARDNF-nin investisiya istiqamətləri

Qlobal aktiv növləri	Portfelə daxil olan aktiv növləri	Həyata keçirilən strategiya	Həyata keçirilmə metodları
Ənənəvi	Səhmlər	Qlobal səhm bazarlarına investisiya	"MSCI World", "MSCI Europe ex UK", "S&P 100" indeksləri, Bank VTB-də olan strateji səhm payı
	Sabit gəlirli qiymətli kağızlar	İstiqrazlara və pul bazarları alətlərinə investisiya	Dövlət, beynəlxalq təşkilatlar, agentlik və korporativ investisiya dərəcəli sabit gəlirli qiymətli kağızların və pul bazarları alətlərinin alınması
Alternativ	Özəl səhmlər	Özəl səhm fondlarına investisiya	Şirkətlərdə nəzarət səhm payı almağı hədəfləyən ("buyout") və inkişaf ("growth") fondlarına investisiyalar; "Neuberger Berman" şirkəti ilə birgə qurulmuş Ayrıca İdarə Olunan Özəl Səhm Mandatı; Xəzər dənizində yeni müasir üzən qazma qurğusunun tikinti layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi (AzRiqs)
	Daşınmaz əmlak	Kommersiya təyinatlı daşınmaz əmlakın alınması, müştərək və daşınmaz əmlak fondlarına investisiyalar	Moskva, London, Paris, Seul və Tokio şəhərlərində yerləşən kommersiya tipli daşınmaz əmlaka yatırılan birbaşa investisiyalar; Almaniya, Yaponiya, Çin, Honq Konq, ABŞ və Sinqapurun mərkəzi biznes ərazilərində yerləşən ofis və kommersiya tipli daşınmaz əmlaka yatırılan müştərək investisiyalar; Asiya və Sakit Okean hövzəsi, Avropa və ABŞ-da kommersiya və logistika təyinatlı daşınmaz əmlaka yatırım edən fondlara investisiyalar
	Qızıl	Fiziki qızıla investisiya	Qızıl külçələrinə investisiya

Qrafik 5.1.1. ARDNF-nin investisiya portfelinin coğrafi regionlar üzrə təsnifatı



Xarici menecerlər tərəfindən idarə olunan vəsaitlər

2019-cu ilin dekabr ayının nəticələrinə əsasən investisiya portfelinin 10,7%-i xarici menecerlər tərəfindən idarə edilir. ARDNF-nin vəsaitlərinin idarə olunmasında xarici menecerlərin xidmətlərindən istifadə edilməsi onların müvafiq sahələrdəki bilik və bacarıqlarından faydalanmaq, eləcə də qabaqcıl dünya təcrübəsinin daxili idarəetmədə olan portfelə tətbiqi nöqteyi-nəzərindən ciddi əhəmiyyət kəsb edir.

ARDNF-nin vəsaitlərinin bir hissəsi aşağıda qeyd edilən xarici menecerlər tərəfindən idarə olunur:

Sabit gəlirli qiymətli kağızlar üzrə:

- Dünya Bankı – ARDNF-nin aktivlərinin 240 milyon ABŞ dollarını (ARDNF-nin investisiya portfelinin 0,5%-ni) idarə edir;
- “DWS International” – ARDNF-nin aktivlərinin 111 milyon ABŞ dollarını (ARDNF-nin investisiya portfelinin 0,3%-ni) idarə edir.

Səhmlər üzrə:

- “UBS Asset Management” – ARDNF-nin aktivlərinin 1 775 milyon ABŞ dollarını (ARDNF-nin investisiya portfelinin 4,1%-ni) idarə edir;
- “State Street Global Advisors” (SSgA) – ARDNF-nin aktivlərinin 1 409 milyon ABŞ dollarını (ARDNF-nin investisiya portfelinin 3,3%-ni) idarə edir;
- “Mellon Investments Corporation” – ARDNF-nin investisiya portfelinin 390 milyon ABŞ dollarını (ARDNF-nin investisiya portfelinin 0,9%-ni) idarə edir;
- “BlackRock Investment Management” – ARDNF-nin investisiya portfelinin 370 milyon ABŞ dollarını (ARDNF-nin aktivlərinin 0,8%-ni) idarə edir;
- “Sumitomo Mitsui Trust International” (Sumitomo) – ARDNF-nin investisiya portfelinin 345 milyon ABŞ dollarını (ARDNF-nin aktivlərinin 0,8%-ni) idarə edir.

Qızıla investisiya

İnvestisiya siyasətinə əsasən investisiya portfelinin məcmu dəyərinin 10%-ə qədəri qızıla investisiya edilə bilər. 2019-cu il ərzində ARDNF tərəfindən 50 290 kq (1 616 873 troya unsiyası) miqdarında qızıla əlavə investisiya edilmiş və 31 dekabr 2019-cu il tarixinə qızılın investisiya portfelində ümümi miqdarı 101 244 kq (3 255 059 troya unsiyası) və ya 4 930 milyon ABŞ dolları təşkil etmişdir. Qeyd edilən qızılın 99%-dən çox hissəsi ölkəyə gətirilmişdir.

5.2. ARDNF-NİN İNVESTİSİYA PORTFELİ

Dünyada makroiqtisadi vəziyyət

Dünya iqtisadiyyatı 2019-cu ili qlobal maliyyə böhranından sonra qeydə alınmış ən aşağı illik artım ilə, yəni 2,4%-lik artımla tamamlasa da, əksər investisiya aktivləri yüksək gəlirliliklə səciyyələnmişlər. Belə ki, “MSCI World” indeksi 2009-cu ildən bəri ən yüksək gəlirlilik nümayiş etdirərək ili 25% gəlirliliklə başa vurmuşdur. Federal Ehtiyat Sistemi (FED) də daxil olmaqla bir çox mərkəzi banklar tərəfindən yumşaq monetar siyasətin həyata keçirilməsinə davam edilmiş, ümumilikdə 59 dəfə faiz dərəcəsinin aşağı salınması faktı müşahidə olunmuşdur.

ABŞ yüksək iqtisadi artım nümayiş etdirərək ili 2,3% artımla bağlamışdır. Bu nailiyyətin əsas səbəbi kimi həyata keçirilən yeni iqtisadi siyasət göstərilmişdir. Bu yeni siyasətə əsasən, ABŞ iqtisadiyyatı müəyyən edilən məşğulluq səviyyəsi ilə bağlı hədəfə çatdıqdan sonra belə, yumşaq monetar və fiskal siyasət davam etdirilmişdir. Qeyd edilən yeni siyasət qısa müddət ərzində məşğulluq səviyyəsini və məhsuldarlığı daha da artıraraq iqtisadiyyata müsbət təsir göstərmişdir.

Avrozonada isə Avropa Mərkəzi Bankı (AMB) tərəfindən həyata keçirilən müvafiq qiymətli kağızların alqı-satqı proqramı və faiz dərəcələrinin endirilməsi regionun iqtisadiyyatında istehlakın artmaması səbəbindən gözlənilən nəticəni verməmişdir. Almaniya və İtaliya tənəzzül ərəfəsində olsalar da, Fransa və İspaniyada nisbətən daha yüksək iqtisadi göstəricilər müşahidə olunmuşdur.

Digər tərəfdən ABŞ-Çin ticarət müharibəsindən qaynaqlanan qlobal iqtisadi risklər, Brexit və həmçinin populist hərəkatın Cənubi Avropada yaratdığı siyasi risklər iqtisadi artıma mənfi təsir göstərmişdir. Bütün bu risklərə baxmayaraq, Avrozona iqtisadiyyatı yeni iş yerlərinin açılması və bununla əlaqədar davamlı gəlirin artması sayəsində müsbət iqtisadi artım əldə edə bilmişdir.

Çində 2019-cu ildə iki ümumi tendensiya müşahidə olunmuşdur: İqtisadiyyatın sənayedən xidmət sektoruna olan keçid trendinin davam etməsi, şirkətlərin mənfəətliliyinin azalması. Sənaye sahəsində azalan tələbat, xüsusilə də avtomobil satışlarının və əsas kapitala qoyulan investisiyaların azalması idxalın ümumi həcmində də öz əksini tapmışdır. Bu isə öz növbəsində dünya iqtisadi artımına öz mənfi təsirini göstərmişdir. Digər tendensiya isə Çində işçi qüvvəsinin orta yaşının artması ilə bağlıdır ki, bu da müvafiq olaraq şirkətlərin işçi qüvvəsinə çəkilən xərclərini artırmışdır. Artan bu xərcləri istehlak qiymətlərində əks etdirməyə müvəffəq olmayan şirkətlər isə mənfəət marjalarının və ödəmə qabiliyyətliliyinin azalması ilə üzləşmişlər. Əlavə olaraq, ABŞ-Çin ticarət müharibəsinin yaratdığı daxili qeyri-münbit şərait və tarif baryerlərinin səbəb olduğu qeyri-müəyyənlik, Çin iqtisadiyyatının ötən il ilə müqayisədə daha zəif iqtisadi artımına – 6,1% artıma (2018-ci ildə 6,6%) səbəb olmuşdur.

Qrafik 5.2.1. Aparıcı ölkələr üzrə ÜDM-in artım dinamikası (2014-2019-cu illər, faiz ilə)



Mənbə: Blumberq

2019-cu ildə Çin istisna olmaqla əsas iqtisadiyyatlarda aşağı inflyasiya dərəcələri müşahidə olunmuşdur. Çində inflyasiyanın daha yüksək olması isə donuz ətinə təklifin kəskin şəkildə azalması və nəticədə qiymətinin sürətlə artması ilə əlaqələndirilir. ABŞ-a gəldikdə isə inflyasiyanın səviyyəsi ilin əksər hissəsində müəyyən edilmiş hədəfdən aşağı olsa da FED-in uçot dərəcəsini bir neçə dəfə endirməsi qiymət artımının ilin sonuna doğru 2%-i keçməsinə səbəb olmuşdur. Bundan əlavə, Avrozona və Yaponiyada aparılan yumşaq monetar siyasətə baxmayaraq, inflyasiya hədəfdən aşağı səviyyədə olmuşdur. Böyük Britaniyada ilin əvvəlində yüksək qiymət artımı qeydə alınsa da, il sonuna Brexitlə bağlı yaranan qeyri-müəyyənliklər istehlaka və ümumilikdə iqtisadiyyata mənfi təsir göstərərək inflyasiya dərəcəsinin aşağı düşməsinə yol açmışdır.

Qrafik 5.2.2. Aparıcı ölkələr üzrə inflyasiya dinamikası (2014-2019-cu illər, faiz ilə)



Mənbə: Blumberq

Monetar siyasət - mərkəzi banklar

2019-cu il ərzində dövlətlərin monetar siyasətlərində normallaşma və aktivlərin satınalma proqramlarının dayandırılması gözlənilsə də, 2018-ci ilin sonunda maliyyə bazarlarında müşahidə edilən gərginlik və səhm və korporativ istiqrazların qiymətlərinin kəskin düşməsi, faiz dərəcələrinin aşağı səviyyələrdə daha uzun müddət qalacağına işarə etmişdir.

Belə ki, Avropa Mərkəzi Bankı (AMB) depozit dərəcələrini 0,10% aşağı salaraq, noyabr ayında aktivlərin satınalma proqramına yenidən başlamışdır. Eyni zamanda aktivlərin satınalma proqramı çərçivəsində alınan və qaytarılma müddəti başa çatan mövcud istiqrazlara yenidən investisiya ediləcəyi qeyd edilmişdir. AMB münbit likvidlik mühitinin davamlılığının təmin edilməsi məqsədilə bu proqramı faiz dərəcələrini artırmağa başladığı tarixə qədər uzadacağını açıqlamışdır.

2018-ci ilin sonunda maliyyə bazarlarında yaşanan gərginlik nəticəsində FED 2019-cu ilin əvvəlində sərt pul siyasətini dayandırdığını bildirmişdir. Bundan əlavə, may ayına kimi ABŞ və Çin arasında olan əlaqələrin kəskinləşməsi FED-i artıq yumşaq pul siyasətinə geri dönməyə vadar etmişdir. Belə ki, oktyabr ayına qədər 3 dəfə faiz dərəcələrini aşağı salan FED bundan sonra yalnız iqtisadi göstəricilərdə ciddi dəyişikliklər olacağı təqdirdə monetar siyasətini əlavə yumşaldacağını bildirmişdir.

İngiltərə Mərkəzi Bankı (İMB) il ərzində faiz dərəcələrini 0,75% həddində sabit saxlamışdır. 18 dekabr 2019-cu il tarixində keçirilən görüşdə bildirilmişdir ki, mərkəzi bankın ehtiyatları vasitəsilə 435 milyard funt sterlinq həcmində dövlət istiqrazlarının satınalınması davam etdiriləcəkdir.

Qrafik 5.2.3. 10-illik gəlirlilik dərəcələri



Mənbə: Blumberq

Qrafik 5.2.4. Aparıcı ölkələrin mərkəzi banklarının uçot dərəcələri (2009-2019-cu illər, faiz ilə)



Mənbə: Blumberq

Sabit gəlirli qiymətli kağızlar bazarı

2019-cu ildə FED-in uçot dərəcəsini 3 dəfə endirməsi və ticarət müharibəsinə görə yaranan qeyri-müəyyənlik ABŞ xəzinə istiqrazlarının gəlirlilik dərəcələrini kəskin şəkildə azaltmışdır. Qlobal iqtisadi risklərin artması avqust ayında 10 illik suveren istiqrazlarının gəlirlilik dərəcəsinin 1,46% səviyyəsinə düşməsinə səbəb olmuşdur. Əlavə olaraq, sentyabr ayında pul bazarlarında yaranan problemlər və monetar siyasətin effektivliyinə mövcud təhlükələr FED-in müdaxiləsi ilə nəticələnmişdir ki, bu da öz növbəsində gəlirlilik əyrisinin qısa müddətli dövrünü əhatə edən hissəsinə müsbət təsir göstərmişdir. Sentyabr ayından sonra ABŞ və Çinin ticarət anlaşmasının birinci mərhələsinə ("Phase One") imza atmağa yaxın olması xəbərləri qlobal iqtisadi riskləri azaltmış və dekabr ayında 10 illik xəzinə istiqrazlarının gəlirliliyinin 1,91% səviyyəsinə qalxmasına təkan vermişdir. Ümumilikdə 2019-cu ilin sonunda ötən il ilə müqayisədə gəlirlilik dərəcələrinin 60-90 baza dərəcəsi səviyyəsində aşağı düşməsi gəlirlilik əyrisinin sabitləşməsi ilə nəticələnmişdir.

Qlobal iqtisadi risklərin artması, ticarət müharibəsindən qaynaqlanan qeyri-müəyyənlik və nəticədə regiona aid iqtisadi proqnozların aşağı düşməsi Avrozonada da suveren istiqrazlara olan tələbatı artırmışdır. Beləliklə, avqust ayında 10 illik Almaniya suveren istiqrazlarının gəlirlilik səviyyəsi -71 baza dərəcəsində qərarlaşmışdır. Bu tendensiya nəticəsində AMB faizləri 10 baza dərəcəsində azaltmaqla yanaşı aktivlərinin kəmiyyət yumşaldılması (quantitative easing) siyasətinə yenidən başlamışdır. 2019-cu ildə Almaniya suveren istiqrazlarının gəlirlilik əyrisinin 6 aya qədər dövrü əhatə edən hissəsində gəlirlilikdə artım müşahidə olunsa da, uzunmüddətli istiqrazların gəlirlilik göstəricisi 10-55 baza dərəcəsi qədər aşağı düşmüşdür.

AMB-nin ötən il yumşaq monetar siyasət aparması iqtisadi aktivliyi bir qədər artırmaqla yanaşı, Avrozonada yerləşən ölkələrin, xüsusilə də periferik ölkələrin suveren borc öhdəliklərinin Almaniya suveren borc öhdəliklərinə qarşı spredlərini də azaltmışdır. Belə ki, 10 illik İtaliya və Portuqaliya suveren istiqrazlarının spredləri təxminən 1% azalmışdır. Bundan əlavə olaraq, sentyabr ayından etibarən İtaliyada azalan siyasi risklər də ölkənin spredlərinə müsbət təsir göstərmişdir.

Böyük Britaniyada uçot dərəcəsinin 0,75% səviyyəsində qalmasına baxmayaraq, Brexitlə bağlı risklər və davam edən ticarət müharibəsi suveren gəlirlilik əyrisində artan dəyişkənliyə səbəb olmuşdur. Baş nazir Tereza Meyin Brexitlə bağlı təkliflərinin parlament tərəfindən bir neçə dəfə rədd edilməsi və onun davamçısı olan Boris Consonun Avropa Birliyi ilə danışıqlar zamanı kompromisə getməyəcəyini bildirməsi investorları riskləri daha aşağı olan suveren borc öhdəliklərinə daha çox investisiya etməyə vadar etmişdir. Bunun nəticəsində sentyabrda 10 illik suveren istiqrazlarının gəlirlilik səviyyəsi 0,45%-ə qədər düşmüş, gəlirlilik əyrisinin inversiyası isə daha da dərinləşmişdir. Lakin bundan sonra Mühafizəkarlar Partiyasının dekabr parlament seçkilərində inamlı qələbəsi və dolayısı ilə iqtisadiyyata olan risklərin azalması maliyyə bazalarında riskli alətlərə investisiyaları artırmışdır. Beləliklə, ilin sonunda 10 illik suveren istiqrazlarının gəlirlilik səviyyəsi bir qədər qalxaraq 0,75% ətrafında sabitləşmişdir.

Qrafik 5.2.5. Almaniya suveren istiqrazlarının gəlirlilik əyrisi (faiz ilə)



Mənbə: Blumberq

Qrafik 5.2.6. ABŞ suveren istiqrazlarının gəlirlilik əyrisi (faiz ilə)



Mənbə: Blumberq

Qrafik 5.2.7. Almaniya suveren istiqrazları ilə müqayisədə 10 illik spredlər (faiz ilə)



Mənbə: Blumberq

Valyuta məzənnələri

Brexit ilə əlaqədar siyasi qeyri-müəyyənlik, artan proteksionizm və qlobal iqtisadiyyatın zəifləməsi fonunda 2019-cu il ərzində valyuta məzənnələrinin qiymət dəyişkənliyi rekord aşağı səviyyələrə çatmışdır. ABŞ iqtisadiyyatının güclü artımı və FED-in faiz dərəcələrinin digər aparıcı mərkəzi bankların faiz dərəcələrinə nisbətən daha yuxarı olması ABŞ dollarının daha da möhkəmlənməsi ilə nəticələnmişdir. İlin sonuna yaxın ABŞ dollarının nisbətən zəifləməsi ABŞ və Çin arasında ilkin razılığın əldə edilməsi perspektivi və maliyyə bazarlarındakı azalan qeyri-müəyyənlik nəticəsində baş vermişdir.

Avro ABŞ dollarına qarşı 2% dəyər itirərək ili 1,12 ətrafında bitirmişdir. Avrozona iqtisadiyyatının yavaşlaması və inflyasiya dərəcəsinin gözləntilərdən aşağı olması AMB-nin yaxın zamanda faiz dərəcəsini qaldırması ehtimalını azaltmışdır. Bu faktorlar avro məzənnəsinin ABŞ dollarına qarşı zəifləməsi ilə nəticələnmişdir.

İngilis funt sterlinqi Brexitlə əlaqədar qeyri-müəyyənliyin azalması nəticəsində ilin ikinci yarısı güclənməyə başlamışdır. Ümumi seçkilərdə Mühafizəkarlar Partiyasının böyük çoxluq əldə etməsi Birləşmiş Krallığın Avropa Birliyini 31 yanvar 2020-ci il tarixində tərk edəcəyi mənasına gəlirdi.

Çin və ABŞ arasında ilkin razılığın yaxın zamanda əldə edilməsi haqqında xəbərlər Çin yuanının ilin sonuna doğru ABŞ dollarına qarşı güclənməsi ilə nəticələnmişdir. Həmçinin Çində iqtisadi əminliyin bərpası və pərakəndə satışın artması da məzənnənin güclənməsinə təsir göstərmişdir.

Türkiyə iqtisadiyyatının bərpa olunması müşahidə edilsə belə, Yaxın Şərqdə artan gərginlik və neftin qiymətinin artması türk lirəsinin ABŞ dollarına qarşı 10% dəyər itirməsi ilə nəticələnmişdir.

Qrafik 5.2.8. Böyük onluq ölkələrinin valyutaları (2019-cu il, ABŞ dollarına qarşı)



Mənbə: Blumberq

ARDNF-nin sabit gəlirli qiymətli kağızlara investisiyası

2019-cu ildə ARDNF-nin korporativ istiqrazlara, agentliklər və beynəlxalq təşkilatların emissiya etdiyi istiqrazlara və qısamüddətli kommersiya kağızlarına olan investisiyalarının həcmi ötən ilə nisbətən əhəmiyyətli dərəcədə azaldılmışdır. Bu investisiyalar suveren istiqrazları ilə əvəz edilmişdir. ARDNF yüksək reytinqli və aşağı riskli qiymətli kağızlara investisiyaların artırılması strategiyasını davam etdirmişdir. Suveren dövlət istiqrazlarına olan investisiyaların payı keçən ilə nisbətən 18,6% artmışdır. Agentliklər və beynəlxalq təşkilatların istiqrazlarına olan investisiyaların payı 26,1%-dən 18,4% səviyyəsinə düşmüşdür. Bundan əlavə korporativ və maliyyə istiqrazlarının pay bölgüsü müvafiq olaraq 26,4% və 23,4% səviyyəsinə qədər azaldılmışdır. Aşağı gəlirlilik və məhdud imkanlar səbəbindən qısamüddətli kommersiya kağızlarının da həcmi azaldılmışdır.

Qrafik 5.2.9. ARDNF-nin sabit gəlirli qiymətli kağızlar portfelinin müxtəlif alətlər üzrə bölgüsü



2019-cu ildə ARDNF sabit gəlirli qiymətli kağızlar portfelinin regionlar üzrə diversifikasiyası siyasətini davam etdirmişdir. ARDNF Avropaya olan investisiyaların həcmini azaldaraq (36,9%), eyni zamanda Şimali Amerika və Asiya regionuna olan investisiyalarının həcmini müvafiq olaraq 26,8% və 26,3%-ə qədər artırmışdır. Bundan əlavə beynəlxalq maliyyə təşkilatlarına investisiyalar azaldılaraq 6,2% ətrafında saxlanılmışdır. Digər regionlardakı investisiyaların sabit gəlirli qiymətli kağızlar portfelindəki çəkisi təqribən eyni qalmışdır.

Qrafik 5.2.10. ARDNF-nin sabit gəlirli qiymətli kağızlar portfelinin coğrafi regionlar üzrə bölgüsü



ARDNF-nin 2019-cu ildə sabit gəlirli qiymətli kağızlar portfelinin müxtəlif istiqraz növləri üzrə bölgüsü əhəmiyyətli dərəcədə dəyişmişdir. Pul bazarları alətlərinin portfeldəki payında ciddi dəyişiklik olmasa da, sabit kuponlu istiqrazların ümumi payı 32,54%-dən 47,79%-ə çatdırılmışdır. Dəyişkən kuponlu istiqrazlara nəzər saldıqda isə onların ümumi payı 57%-dən 43,66%-ə endirilmişdir. Artan iqtisadi risklər mühiti səbəbindən sabit kuponlu istiqrazların həcmi 2019-cu il ərzində artırılmışdır. Qeyd edilmiş strategiyaların başlıca məqsədi faiz dərəcələrinin azaldılmasından faydalanmaq olmuşdur. Ümumilikdə gözlənilən iqtisadi risklərdən ümumi portfeli qorumaq məqsədilə sabit gəlirli qiymətli kağızlar portfelinin dürasiyası artırılmışdır.

Qrafik 5.2.11. ARDNF-nin sabit gəlirli qiymətli kağızlar portfelinin müxtəlif istiqraz növləri üzrə bölgüsü



Əlavə olaraq sabit gəlirli qiymətli kağızlar portfelinin sənaye və sektorlar üzrə diversifikasiyası əvvəlki maksimallığını qorumuşdur. 2019-cu ildə sabit gəlirli qiymətli kağızlar portfeli üzrə maliyyə, enerji, qeyri-zəruri tələbat malları və sənaye sektorları ən yüksək paya malik olmuşdur.

Qrafik 5.2.12. Sabit gəlirli qiymətli kağızlar portfelinin müxtəlif sektor növləri üzrə bölgüsü



SƏHM İNVESTİSİYALARI

Səhm bazarlarının icmalı

Maliyyə böhranından sonrakı müddətə nəzər salsaq, 2019-cu il qlobal səhm bazarları üçün ən uğurlu il kimi tarixə düşmüşdür. Bunun başlıca səbəbləri kimi mərkəzi bankların bir çoxlarının yumşaldıcı siyasəti və ABŞ-Çin ticarət münasibətlərində gərginliyin nisbətən səngiməsini göstərmək olar. Dünyanın inkişaf etmiş ölkələrinin səhmlərini əhatə edən "MSCI World" indeksi bu il ərzində 25% artaraq 2009-cu ildən etibarən ən yüksək gəlirlilik nümayiş etdirmişdir. Avropanın aparıcı indeksi olan "Euro Stoxx 600" indeksi bu ili 23%, ABŞ bazarının göstəricisi hesab olunan "S&P 500" indeksi isə 2013-cü ildən sonra ən yüksək illik gəlirlilik olan 29% ilə başa vurmuşdur.

ABŞ Federal Rezerv Sisteminin ilin əvvəlində mürəkkəb iqtisadi vəziyyət fonunda faiz dərəcələrini artırmayacağı barədə şərhi ABŞ səhm bazarının ili müsbət notda başlamasına səbəb olmuşdur. Prezident Trampın Meksika və Çindən idxal olunan məhsullara tariflərin tətbiq edilməsi barədə planları səhmlərin may ayında qısa müddətli düşməsinə gətirsə də, ABŞ bazarı ikinci rübü 17% gəlirliliklə başa vurmuşdur. Səhm bazarında olan bu trend ilin ikinci yarısında da davam etmişdir. Buna səbəb isə ABŞ Mərkəzi Bankının faiz dərəcələrini hər birində 0,25% olmaqla 3 dəfə azaltmağı, ABŞ-ın Çindən dəyəri 120 milyard ABŞ dolları olan idxala tətbiq olunan tarifləri ikiqat salması, həmçinin Çinin daha çox ABŞ məhsulları alması qərarı olmuşdur.

Avropa səhmləri uğursuz 2018-ci ili geridə qoyaraq 2019-cu ilə gəlirliliklə başlamışdır. Səhm bazarında hökm sürən bu optimizm AMB-nin ən azı ilin sonuna kimi aşağı faiz dərəcələrini saxlamaq planları ilə əlaqədar olmuşdur. Sözügedən pul siyasəti ilin sonuna daha da yumşalmış və sentyabr ayında faiz dərəcələri -0,5% dərəcəsinə endirilmiş və beləliklə Avrozonada tətbiq edilən ən aşağı faiz dərəcəsi kimi tarixə düşmüşdür. İqtisadiyyatı stimullaşdırmaq üçün eyni zamanda AMB noyabr ayından etibarən 20 milyard avro dəyərində istiqraz alınması barədə qərar qəbul etmişdir. Bundan əlavə il ərzində avro ABŞ dollarına nisbətdə ucuzlaşmış və bununla da Avrozonanın idxalına stimullaşdırıcı təsir göstərmişdir.

Avropada getdikcə artan siyasi populizm il ərzində öz aktuallığını itirməmişdir: İtaliya siyasəti Demokrat Partiyası ilə birgə formalaşmaqda olan yeni koalisiya ilə diqqət mərkəzində idi; Fransada hökumətin irəli sürdüyü islahatlara qarşı olan genişmiqyaslı tətillər davam etmişdir; İspaniya son dörd ildə dördüncü parlament seçkilərini keçirmiş və yenə də birpartiyalı hökumətin qurulmasına nail ola bilməmişdir; Brexitin baş tutacağını vəd edən Boris Conson Böyük Britaniyanın baş naziri seçilmişdir. Qeyd olunan iqtisadi və siyasi qarşıdurmalara baxmayaraq, 2019-cu il Avropa səhm bazarları üçün də müsbət yekunlaşmışdır. Belə ki, "Stoxx Europe 600" indeksi dekabr ayında qeydə alınan 419,74 qiymət göstəricisi ilə tarixboyu ən yüksək göstəricisinə imza atmışdır.

Qrafik 5.2.13. Qlobal indekslərin gəlirliliyi

Mənbə: Blumberq

Sektorlara gəldikdə, iqtisadi tsikllərə daha həssas olan sahələr daha yüksək nəticələr göstərmişdir. Gəlirliliyi 40%-dən çox olan texnologiya sektoru "MSCI" indeksinin ən yüksək gəlirlilik göstərən sektoru olmuşdur. Yüksək gəlirlilik göstərən sektorlar sırasına 20%-dən çox gəlirlilik verən maliyyə, kommunikasiya, sənaye sektorları da daxil olmuşdur. Neft qiymətinin artmasına baxmayaraq investorlar enerji sektorunun səhmlərinə yatırım etməməyi üstün tutmuş və nəticədə enerji sektoru qlobal indeksdə ən aşağı gəlirliliyi olan sektor kimi qeydə alınmışdır.

ARDNF-nin səhm portfeli

2019-cu ilin sonuna səhmlərin ümumi portfeldə həcmi əvvəlki il ilə müqayisədə 9,57%-dən 10,96%-ə qalxmışdır. İl ərzində ARDNF-nin ümumi səhm portfelinin yerli valyutada gəlirliliyi 28,47% (ABŞ dollarında 28,89%) təşkil etmişdir. ARDNF səhm portfelinin qiymət dəyişkənliyinin azaldılması məqsədi ilə portfelin böyük hissəsini "MSCI World" indeksinə investisiya etmişdir və bu indeksi replikasiya edən səhm portfeli il ərzində yerli valyutada 27,88% (ABŞ dollarında 28,08%) gəlirlilik göstərmişdir. Daxili idarəetmədə olan və "S&P 100" indeksini replikasiya edən portfel il ərzində 31,85% gəlirlilik əldə etmişdir. ARDNF Rusiyanın dövlət tərəfindən idarə olunan və aparıcı banklarından biri olan VTB Bankda səhm payına sahibdir. İlin sonuna VTB Bankın səhmlərindən olan gəlirlilik Rusiya rublunda 39,01%, ABŞ dollarında isə 55,47% təşkil etmişdir. "MSCI Europe ex-UK" indeksi portfelinin gəlirliliyi isə avroda 28,02%, ABŞ dollarında isə 25,17% təşkil etmişdir.

ÖZƏL SƏHM

2019-cu il özəl səhm bazarlarının icmalı

2019-cu il özəl səhm bazarları üçün vəsaitlərin artımı baxımından ən uğurlu illərdən biri olmuşdur. İnvestorlar özəl səhmlər, daşınmaz əmlak, təbii sərvətlər və infrastrukturu özündə cəmləyən özəl kapitala ümumilikdə 894 milyard ABŞ dolları yatırım etmişdir. Təkcə şirkətlərdə nəzarət səhm payı almağı hədəfləyən fondlar (buyout funds) tarixdə ən yüksək məbləğ olan 361 milyard ABŞ dolları toplaya bilmişdir. İnvestorların yüksək tələbatını ödəmək üçün fondlar öz təkliflərini genişləndirməyə davam etmişdir. Ümumiyyətlə, son illər ərzində fond menecerləri investorlardan vəsaitləri daha sürətlə yığmağı hədəfləmişdir. İnvestorlar da öz mövqelərini konsolidasiya etməyə və daha az sayda fondlara daha çox həcmdə investisiya yatırmağa başlamış, beləliklə aparıcı fondlar iri kapital toplamağa müvəffəq olmuşdur. Hal-hazırda investorlar yüksək gəlir göstəriciləri, fərqli investisiya strategiyaları və aydın dəyər yaratma üsulları olan şirkətlərdə nəzarət səhm payı almağı hədəfləyən iri həcmli fondlara üstünlük verir. 2019-cu ildə Şimali Amerika və regional diversifikasiya olunmuş fondlara tələb yüksək olmuşdur. Son illər ərzində sərmayə qoyuluşunun yüksək tempinə baxmayaraq, özəl səhm bazarında yatırılmamış kapital bütün fond növləri üzrə 2019-cu ildə rekord səviyyəyə - 2,5 trilyon ABŞ dollarına çatmışdır. Təkcə şirkətlərdə nəzarət səhm payı almağı hədəfləyən fondlarda yatırılmamış kapital 830 milyard ABŞ dolları təşkil etmişdir ki, bu məbləğin yarısından çoxu Şimali Amerikada təmərküzləşmişdir.

ARDNF-nin özəl səhm portfeli

2019-cu il ərzində ARDNF 4-ü yeni olmaqla 5 özəl səhm fonduna investisiya etmişdir. Aşağıda bu investisiyalar haqqında qısa məlumat verilir:

- "Dyal Capital Partners IV" fondu "Dyal Capital Partners" şirkəti tərəfindən idarə olunur və 7,2 milyard ABŞ dolları həcmindədir. Fond əsasən digər özəl səhm və kredit fondlarını idarə edən şirkətlərin səhmlərinə investisiyalar həyata keçirir. ARDNF-nin "DYAL Capital Partners IV" fondunda iştirak payı 25 milyon ABŞ dolları həcmindədir;
- "Cinven Fund VII" fondu "Cinven" şirkəti tərəfindən idarə olunur və 8 milyard avro həcmindədir. Fond əsasən Avropada şirkətlərə investisiya etməyi planlaşdırır. ARDNF-nin "Cinven Fund VII" fondunda iştirak payı 48 milyon avro həcmindədir;
- "Green Equity Investors VIII (GEI VIII)" fondu "Leonard Green & Partners (LGP)" şirkəti tərəfindən idarə olunur və 10 milyard ABŞ dolları həcmindədir. Fond əsasən Şimali Amerika şirkətlərində nəzarət səhm payı almağı hədəfləyən iri və meqa həcmli investisiyaları həyata keçirir. ARDNF-nin "GEI VIII" fondunda iştirak payı 50 milyon ABŞ dolları həcmindədir;
- "Brookfield Infrastructure Fund IV" fondu "Brookfield" şirkəti tərəfindən idarə olunur və 20 milyard ABŞ dolları həcmindədir. Fond əsasən Şimali və Cənubi Amerika, Avropa, Asiya və Sakit Okean regionunda infrastruktur layihələrinə investisiya etməyi planlaşdırır. ARDNF-nin "Brookfield İnfrastructure Fund IV" fondunda iştirak payı 50 milyon ABŞ dolları həcmindədir;
- 2019-cu ildə ARDNF tərəfindən "Neuberger Berman" şirkətinin idarəetməsinə (3-cü tranş çərçivəsində) 100 milyon ABŞ dolları həcmində vəsaitin yatırılmasına dair öhdəlik götürülmüşdür. Qeyd olunan tranş çərçivəsində mandata uyğun olaraq kiçik həcmli fondlara və müştərək investisiyalara, eləcə də kredit reytinqinə malik olmayan borc öhdəliklərinə investisiya qoyan pay fondlarına investisiyaların həyata keçirilməsi planlaşdırılır.

Qeyd: Fondların yuxarıda qeyd olunmuş həcmləri ARDNF tərəfindən investisiyaya dair öhdəliyin götürüldüyü tarixə müvafiq hədəf həcmlərini göstərir və fondların son həcmlərindən fərqlənə bilər.

Cədvəl 5.2.1. ARDNF-nin əvvəlki illərdə həyata keçirdiyi özəl səhm investisiyaları

Fondlar	İnvestisiya ili	Baza valyutası	İnvestisiya məbləği, milyon
"ALAC Fund"	2010	ABŞ dolları	100
"Global Infrastructure Fund"	2013	ABŞ dolları	200
"The Catalyst Fund"	2013	ABŞ dolları	50
"NB Caspian Fund"	2016	ABŞ dolları	200
"EBRD EPF"	2016	Avro	100
"Carlyle Partners VII"	2017	ABŞ dolları	50
"Blackstone Core Equity Partners"	2017	ABŞ dolları	50
"BC European Partnes X"	2017	Avro	56
"Apollo Fund IX"	2017	ABŞ dolları	85
"FSI Mid-market Growth Fund"	2017	Avro	20
"Carlyle Europe V"	2018	Avro	50
"Warburg Pincus Global Growth"	2018	ABŞ dolları	50
"Vista Equity Partners VII"	2018	ABŞ dolları	40
"Thoma Bravo XIII"	2018	ABŞ dolları	25
"Baring Private Equity Asia VII"	2018	ABŞ dolları	50
"PAG Asia III"	2018	ABŞ dolları	30

Qeyd: Cədvələ ARDNF-nin AZRİGS-ə olan investisiyası daxil edilməmişdir.

Qrafik 5.2.14. Özəl səhm fondlarının regionlar üzrə bölgüsü



Qrafik 5.2.15. Özəl səhm fondlarının sektorlar üzrə bölgüsü



Qeyd: 5.2.14. və 5.2.15. qrafiklərə ARDNF-nin AZRİGS-ə olan investisiyası daxil edilməyib.

Yarımdalma Qazma Qurğusuna investisiya

2018-ci ilə qədər "Azerbaijan Rigs" MMC-nin nizamnamə kapitalına təsisçiləri ARDNF (90% iştirak payı, 904,2 milyon ABŞ dolları) və SOCAR (10% iştirak payı, 100,5 milyon ABŞ dolları) tərəfindən ümumilikdə 1 004,7 milyon ABŞ dolları (1 075,0 milyon AZN, ödəniş tarixində olan məzənnədən istifadə edərək) məbləğində yatırım olunmuşdur. Layihənin maksimum büdcə limiti 1 116,7 milyon ABŞ dolları olmuşdur. Podratçılara edilən ödənişlər ARDNF və SOCAR tərəfindən olunan dövri kapital ödənişləri əsasında həyata keçirilmişdir. Layihə üzrə podratçı funksiyalarının yerinə yetirilməsi layihənin sifarişçisi ilə 24 iyun 2013-cü il tarixində bağlanmış Baş Podrat müqaviləsinə əsasən Azərbaycan Respublikasının hüquqi şəxsi olan, SOCAR-ın təsisçiliyi ilə yaradılan və Xəzər dənizində mövcud üzən qazma qurğularına sahiblik edən Kaspian Drilinq Kompani MMC-yə həvalə edilmişdir. "Heydər Əliyev" Yarımdalma Qazma Qurğusunun təntənəli açılış mərasimi Azərbaycan Respublikasının Prezidentinin iştirakı ilə 18 may 2017-ci il tarixində baş tutmuşdur. 2018-ci il ərzində "Azerbaijan Rigs" qurğunun ona təhvil verildiyi 26 dekabr 2018-ci il tarixinə qədər qurğunun əməliyyatlara hazırlığı üçün lazım olan inventarının yığılmasına davam etmişdir.

Tikinti layihəsinin sonuna "Azerbaijan Rigs" MMC qazanılmış 21,2 milyon manat məbləğində bölüşdürülməmiş mənfəəti, təsisçilərinin qərarına əsasən onların paylarına mütənasib olmaqla 17 may 2019-cu il tarixində dividend şəklində, o cümlədən ARDNF-yə 11,2 milyon ABŞ dolları olmaqla ödəmişdir.

Kaspian Drilinq Kompani MMC qurğunu onunla "Azerbaijan Rigs" MMC arasında 11 fevral 2019-cu il tarixində imzalanmış "Heydər Əliyev" yarımdalma qurğusunun Fraxtedilmə Müqaviləsi əsasında icarəyə götürmüşdür. 2019-cu ilin sonuna qədər qurğu Xəzər dənizinin Abşeron yatağında "Total" A.S. şirkətinin sifarişi ilə qazma işlərinə cəlb edilmişdir. Abşeron yatağında işlər uğurla tamamlandıqdan sonra və fasilə verilmədən qurğu "BP Exploration Caspian Sea Limited" şirkətinin sifarişi ilə Şəfəq-Asiman yatağında aparılan qazma işlərinə başlamışdır. 2019-cu il ərzində təsisçilərin qərarına əsasən "Azerbaijan Rigs" MMC-nin nizamnamə kapitalının azaldılması yolu ilə 85 milyon manat məbləğində vəsait təsisçilərə, o cümlədən 45 milyon ABŞ dolları ARDNF-yə ödənilmişdir.

DAŞINMAZ ƏMLAK

Qlobal daşınmaz əmlak bazarları

İnvestorların dayanıqlı və stabil gəlirlilik gözləntiləri 2019-cu ildə qlobal daşınmaz əmlak bazarında investisiya həcminin 800 milyard ABŞ dolları olmasına gətirib çıxarmış və bu son 13 ilin ən yüksək investisiya səviyyəsidir. "JLL" daşınmaz əmlaka investisiya təhlil mərkəzinin araşdırmalarına əsasən 2019-cu ildə Asiya və Sakit Okean Hövzəsi regionunda investisiya həcmi 169 milyard ABŞ dolları olmuşdur və həmin region üzrə investisiya həcmi 2015-ci ildən bəri hər il artmaqdadır. ABŞ-da investisiya həcmi 12% artaraq 347 milyard ABŞ dolları təşkil etmişdir. Yuxarıda qeyd edilmiş regionlardan fərqli olaraq Avropa, Yaxın Şərq və Afrikada daşınmaz əmlaka edilən investisiya həcmi əvvəlki il ilə müqayisədə 5% enmiş və 284 milyard ABŞ dollarına bərabər olmuşdur. Bunun əsas səbəbi isə Böyük Britaniyanın Avropa İttifaqından çıxması və ticarət tipli daşınmaz əmlaklara olan tələbin azalmasıdır.

Qrafik 5.2.16. Qlobal daşınmaz əmlak bazarında investisiya həcmi



Mənbə: JLL

Yuxarıda qeyd edilmiş hər bir region üzrə icarəyə verilməmiş sahənin ümumi sahəyə nisbətinin aşağı səviyyələrdə olması müşahidə olunmuşdur. Sənaye və yaşayış tipli daşınmaz əmlak obyektləri üzrə sözügedən göstərici son 20 ilin ən aşağı səviyyəsində müəyyənləşmişdir. Ofis tipli daşınmaz əmlak obyektləri üzrə isə son 20 ilin orta statistik göstəricisindən aşağı olmuşdur. Son illər elektron ticarətin güclənməsi səbəbindən ticarət tipli daşınmaz əmlak obyektləri üzrə həmin göstərici daha yuxarı olmuşdur.

Qrafik 5.2.17. İcarəyə verilməmiş sahənin ümumi sahəyə nisbəti



Mənbə: RREEF Management L.L.C.

Qeyd: ABŞ üzrə uzun müddətli icarəyə verilməmiş sahə həcmi 31 illik (1988-2019) periodu əhatə edir. Avropada ofis tipli daşınmaz əmlak üzrə icarəyə verilməmiş sahə həcmi 20 illik (1999-2018), logistika tipli daşınmaz əmlak üzrə 10 illik (2009-2018) və ticarət tipli daşınmaz əmlak üzrə 11 illik (2008-2018) periodu əhatə edir. Asiya və Sakit Okean Hövzəsi regionu (ASOH) üzrə 19 illik (2000-2019) periodu əhatə edir.

"RCA" şirkətinin araşdırmasına əsasən qlobal daşınmaz əmlak bazarında 2019-cu ildə əmlak qiymətlərinin artımı müşahidə edilsə də, bu artım 2010-cu ildən bəri ən aşağı səviyyədə olmuşdur. Qiymət artımı 2019-cu ilin 1-ci rübündə 6,7% olmasına baxmayaraq 4-cü rübdə 3,7% təşkil etmişdir.

Şimali Amerika regionu üzrə daşınmaz əmlakda qiymət artımı 5,9%, Avropada 4,3% və Asiya və Sakit Okean Hövzəsində 0,9% olmuşdur.

Qrafik 5.2.18. 2019-cu ildə dünyanın aparıcı şəhərləri üzrə daşınmaz əmlak qiymət artımı



Mənbə: RCA

ARDNF-nin daşınmaz əmlak portfeli

Daşınmaz əmlaka birbaşa investisiyalar



Daşınmaz əmlakın adı
"Qalereya Aktyor"
Yerləşdiyi şəhər
Moskva
Tipi
Ofis/Ticarət
Satınalınma tarixi
2012-ci il

Daşınmaz əmlakın adı
"78 Seynt Ceyms"
Yerləşdiyi şəhər
London
Tipi
Ofis
Satınalınma tarixi
2012-ci il

Daşınmaz əmlakın adı
"8 Place Vendome"
Yerləşdiyi şəhər
Paris
Tipi
Trcarət/Ofis
Satınalınma tarixi
2013-cü il

Daşınmaz əmlakın adı
"Payn Avenyu A"
Yerləşdiyi şəhər
Seul
Tipi
Ofis
Satınalınma tarixi
2014-cü il

Daşınmaz əmlakın adı
"Kirarito Ginza"
Yerləşdiyi şəhər
Tokio
Tipi
Ticarət
Satınalınma tarixi
2015-ci il

2019-cu il ərzində daşınmaz əmlak fondlarına investisiyalar

2019-cu ildə ARDNF regionlar, sektorlar və investisiya strategiyaları üzrə şaxələndirilmiş daşınmaz əmlak portfelinin qurulması məqsədilə rəhbər tutduğu strategiyaya əsasən aşağıda qeyd olunmuş daşınmaz əmlak fondlarına investisiyalar yatırmışdır:

- "PGIM" şirkəti tərəfindən idarə olunan "EVP II" fondu. Fond 2018-ci ildə təsis olunmuşdur və planlaşdırılmış ümumi həcmi 750 milyon avro təşkil edir. Fond Qərbi Avropa regionunda müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "EVP II" fondunda iştirak payı 100 milyon avrodur;
- "LFPI" şirkəti tərəfindən idarə olunan "FLE SICAV-FIS" fondu. Fond 2005-ci ildə təsis olunmuşdur və planlaşdırılmış ümumi həcmi 3 milyard avro təşkil edir. Fond Qərbi Avropa və ABŞ-da müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "FLE SICAV-FIS" fondunda iştirak payı 100 milyon avrodur;
- "PAG" şirkəti tərəfindən idarə olunan "PREP II" fondu. Fond 2018-ci ildə təsis olunmuşdur və ümumi həcmi 2 milyard ABŞ dolları təşkil edir. Fond Asiya və Sakit Okean Hövzəsi regionunda müxtəlif kommersiya tə-

yinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. 2019-cu ildə ARDNF-nin "PREP II" fondunda iştirak payı 50 milyon ABŞ dolları təşkil edir;

- "GAW Capital Partners" şirkəti tərəfindən idarə olunan "GREF VI" fondu. Fond 2018-ci ildə təsis olunmuşdur və ümumi həcmi 2,2 milyard ABŞ dolları təşkil edir. Fond Asiya və Sakit Okean Hövzəsi regionunda müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "GREF VI" fondunda iştirak payı 50 milyon ABŞ dolları təşkil edir;
- "Blackstone" şirkəti tərəfindən idarə olunan "BREP VI" fondu. Fond 2019-cu ildə təsis olunmuşdur və ümumi həcmi 8,5 milyard avro təşkil edir. Fond Avropada müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "BREP VI" fondunda iştirak payı 150 milyon avro təşkil edir;
- "Blackstone" şirkəti tərəfindən idarə olunan "BPP US" fondu. Fond 2015-ci ildə təsis olunmuşdur və ümumi həcmi 11,4 milyard ABŞ dolları təşkil edir. Fond Şimali Amerikada müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "BPP US" fondunda iştirak payı 200 milyon ABŞ dolları təşkil edir;
- "PGIM" şirkəti tərəfindən idarə olunan "PRISA" fondu. Fond 1970-ci ildə təsis olunmuşdur və ümumi həcmi 26 milyard ABŞ dolları təşkil edir. Fond Şimali Amerikada müxtəlif kommersiya təyinatlı daşınmaz əmlak tiplərinə investisiyalar həyata keçirir. ARDNF-nin "PRISA" fondunda iştirak payı 200 milyon ABŞ dolları təşkil edir.

2019-cu il ərzində daşınmaz əmlaka müştərək investisiyalar

ARDNF "Gaw Capital Partner" şirkəti tərəfindən idarə olunan "GAW US FUND III" fondu ilə birlikdə Los - Anceles şəhərində yerləşən ticarət tipli daşınmaz əmlaka müştərək investisiya qoyuluşunun həyata keçirilməsinə dair razılıq əldə etmişdir. Birgə investisiyada ARDNF-nin payına düşən kapital qoyuluşu 50 milyon ABŞ dolları təşkil edir.

Milan şəhərində yerləşən Palazzo Turati adlı daşınmaz əmlakın satılması

ARDNF 2016-cı ildə aldığı Milan şəhərində yerləşən "Palazzo Turati" A tipli ofis binasını 2019-cu ildə 112 milyon avroya "Invesco Real Estate Management Sarl" şirkətinə satmışdır. 2016-cı ildən bəri ARDNF qeyd edilən daşınmaz əmlakdan ümumilikdə təqribən 26 milyon avro həcmində gəlir (qiymət artımından və icarədən əldə edilən gəlirlər) əldə etmişdir ki, bu da illik 7,2% gəlirlilik deməkdir.

Daşınmaz əmlak üzrə ARDNF-nin illik mənfəəti

2019-cu ilin sonuna ARDNF-nin daşınmaz əmlak portfeli London, Paris, Moskva, Seul və Tokio şəhərlərində yerləşən 5 aktivdən ibarət olmuşdur. 2019-cu il üzrə qeyd olunan aktivlər üzrə illik toplam icarə gəlirləri aşağıdakı kimidir:

- London 78 Seynt Ceyms küçəsi – 0 (sıfır) ingilis funt sterlinqi;
- Paris Vendom Meydanı 8 – 5 520 105 avro;
- Moskva Tverskaya 16 (Qalereya Aktyor binası) – 315 663 000 Rusiya rublu;
- Seul, Payn Avenyu Tauer A – 16 685 550 185 Koreya vonu;
- Tokio, Kirarito Ginza – 1 615 251 773 Yapon yeni.

2018-ci ilin 2-ci yarısında 78 Seynt Ceyms küçəsində yerləşən daşınmaz əmlakın icarəçi şirkəti ilə əldə olunmuş razılığa əsasən 4 illik icarə haqqının ödənilməsi şərti ilə icarə müqaviləsinə xitam verilmişdir. Bundan sonra binada yenidənqurma işlərinə başlanılmışdır. Binada icarəçinin olmaması səbəbindən 2019-cu il ərzində icarə gəliri olmamışdır. Yenidənqurma işləri tamamlandıqdan sonra binada 10 220 m² ofis sahəsi və Londonun Vestminster və Qrin Park ərazilərinə görünüşü olan terras istifadəyə veriləcəkdir.

2019-cu ilin sonunda portfeldə yer alan aktivlər müstəqil qiymətləndirmə şirkətləri tərəfindən qiymətləndirilmişdir. Qiymətləndirmənin nəticələri və qiymətləndirici şirkətlər aşağıdakı kimidir:

- London 78 Seynt Ceyms küçəsi. "JLL" - 117 000 000 ingilis funt sterlinqi dəyərində qiymətləndirilmişdir;
- Paris Vendom Meydanı 8. "BNP Paribas Real Estate" - 188 877 500 avro dəyərində qiymətləndirilmişdir;
- Moskva Tverskaya 16 (Qalereya Aktyor binası). "Cushman & Wakefield" – 3 334 200 000 Rusiya rublu dəyərində qiymətləndirilmişdir;
- Seul, Payn Avenyu Tauer A. "Pacific Appraisal Co., Ltd." – 557 400 000 000 Koreya vonu dəyərində qiymətləndirilmişdir;
- Tokio, Kirarito Ginza. "Daiwa Real Estate Appraisal Co., Ltd" – 58 400 000 000 yapon yeni dəyərində qiymətləndirilmişdir.

5.3. ARDNF-NİN İNVESTİSİYA PORTFELİNİN GƏLİRLİLİYİ

Gəlirliliyin hesablanması metodologiyası

ARDNF-nin investisiya portfeli üzrə gəlirliliyinin hesablanması 29 noyabr 2017-ci il tarixli 31 nömrəli daxili sərəncam ilə təsdiq olunmuş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitlərinin və investisiya portfelinin tərkib hissələri olan altportfellərin gəlirliliyinin hesablanması Metodologiyası"na uyğun müvafiq qaydada həyata keçirilir. Sözügedən metodologiyada qeyd edildiyi kimi, ümumi investisiya portfeli üzrə gəlirliliyin hesablanması baza valyutası Azərbaycan manatı, ABŞ dolları və ya avro seçilməklə, eyni zamanda baza valyutasının məzənnə təsiri nəzərə alınmadan (lokal valyutada) aparılır. Altportfellər üzrə gəlirliliyin hesablanması bu portfellər üzrə lokal valyutada və ABŞ dolları baza valyutası seçilməklə (valyuta məzənnə təsiri nəzərə alınmaqla) həyata keçirilir. Aşağıda qeyd olunan nəticələr investisiya portfelinin lokal valyutalarda hesablanmış gəlirliliyinə əsaslanır.

ARDNF-nin 2019-cu il üzrə gəlirliliyi

2019-cu ildə ARDNF-nin ümumi investisiya portfelinin gəlirliliyi 5,29% təşkil etmişdir. İllər üzrə 10 illik dəyişən orta gəlirlilik, həmçinin 2019-cu il ərzində aylar üzrə hesablanmış kumulyativ gəlirlilik göstəriciləri müvafiq olaraq 5.3.1. və 5.3.2. nömrəli qrafiklərdə əks olunmuşdur.

Qrafik 5.3.1. ARDNF-nin investisiya portfelinin gəlirliliyi (lokal valyutada)



Qrafik 5.3.2. ARDNF-nin investisiya portfelinin aylıq kumulyativ gəlirliliyi (lokal valyutada)



2019-cu ildə sabit gəlirli qiymətli kağızlar portfeli üzrə illik gəlirlilik 3,02%, səhm portfeli (özəl səhmlər daxil olmaqla) üzrə 21,50%, daşınmaz əmlak portfeli üzrə isə 7,35% təşkil etmişdir. İnvestisiya portfelinin toplam gəlirliliyinə (5,29%) sabit gəlirli qiymətli kağızlar portfelinin töhfəsi 2,21%, səhm (özəl səhmlər daxil olmaqla) və daşınmaz əmlak portfellərinin töhfəsi isə müvafiq olaraq 2,67% və 0,41% təşkil etmişdir.

Qrafik 5.3.3. Maliyyə alətləri üzrə illik gəlirlilik və onların toplam gəlirlilikdə (5,29%) çəkisi*



** Qızıl portfelinin gəlirliliyi lokal valyutada göstərilmiş ümumi portfelin gəlirliliyinə daxil edilmir, belə ki, valyutaların məzənnə fərqindən yaranan gəlirlilik kimi hesablanır.*

Qrafik 5.3.4. Maliyyə alətlərinin xüsusi çəkiləri nəzərə alınaraq toplam gəlirliliyə töhfələri



Qrafik 5.3.5. Sabit gəlirli qiymətli kağızlar üzrə aylıq kumulyativ gəlirlilik



Qrafik 5.3.6. Səhmlər üzrə aylıq kumulyativ gəlirlilik



Qrafik 5.3.7. Daşınmaz əmlak üzrə aylıq kumulyativ gəlirlilik



5.4. RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

ARDNF-də risklərin idarə edilməsi və monitorinqi prosedurlarının müəyyən edilməsi risk növləri üzrə təhlillərin aparılması yolu ilə həyata keçirilir. Bazar riski və kredit riski indikatorları, eləcə də digər müvafiq risk göstəriciləri daxili və xarici hesabatlılıqda öz əksini tapır. ARDNF-nin bazar riski mühitinin qiymətləndirilməsi üçün dürasiya, riskə məruz dəyər (RMD), izləmə xətası ("tracking error") kimi metriklərdən, həmçinin stress test və ssenarilər üzrə təhlillərdən istifadə olunur.

ARDNF-nin investisiya portfelinin gəlirlilik və risk parametrlərinin müvafiq bençmark göstəricilərindən kənarlaşmasının monitorinqi məqsədi ilə izləmə xətası göstəricisi davamlı əsasda nəzarət altında saxlanılır. Xarici menecer qismində fəaliyyət göstərən "UBS Global Asset Management" (UBS), "State Street Global Advisors" (SSgA), "Mellon Investments Corporation" (Mellon), "BlackRock Investment Management" (BlackRock) və "Sumitomo Mitsui Trust International" (Sumitomo) tərəfin-

dən idarə olunan səhm altportfelləri üçün izləmə xətası həddi illik olaraq 30 baza dərəcəsi həddində öncədən müəyyən olunmuşdur. Hesabat ilinin son gününə olan izləmə xətası SSgA portfeli (“MSCI World index” mandatı) üzrə 12 baza dərəcəsi, Mellon portfeli (“MSCI World index” mandatı) üzrə 8 baza dərəcəsi, BlackRock portfeli (“MSCI World index” mandatı) üzrə 11 baza dərəcəsi, Sumitomo (“MSCI World index” mandatı) üzrə 8 baza dərəcəsi, UBS portfelinin “MSCI World index” və “MSCI Europe ex UK index” mandatları üzrə isə müvafiq olaraq 14 və 19 baza dərəcələri təşkil etmişdir.

Risklərin idarə edilməsi prosesində ümumi riskin göstəricisi kimi RMD metriki geniş tətbiq edilir. İnvestisiya portfelinin RMD-sini hesablamaq üçün Monte Karlo və tarixi göstəricilərə əsaslanan simulyasiya metodlarından istifadə edilir.

ARDNF-nin 31 dekabr 2019-cu il tarixinə hesablanmış 20 günlük, 95% etibarlılıq intervalında RMD-si 389 milyon ABŞ dolları təşkil etmişdir ki, bu rəqəm ötən ilin müvafiq göstəricisi ilə müqayisədə artmışdır (2018-ci il üzrə 233 milyon ABŞ dolları hesablanmışdır).

Səhm portfeli istisna olmaqla, digər portfellər və altportfellər üzrə RMD-nin və RMD-də pay bölgüsünün hesablanması zamanı məzənnə dəyişkənliyinin təsiri nəzərə alınmamışdır. Bu da məzənnə dəyişkənliyinin təsirinin səhm portfelinin risk bölgüsündə əhəmiyyətli dərəcədə rol oynamamasından irəli gəlir.

Qrafik 5.4.1. Ümumi RMD-yə maliyyə alətlərinin töhfəsi (məzənnə dəyişkənliyi nəzərə alınmadan)



Qrafik 5.4.2. Səhm altportfellərinin ümumi səhm RMD-sinə töhfəsi



Qrafik 5.4.3. Ümumi sabit gəlirli qiymətli kağızlar RMD-sində müxtəlif alətlərin töhfəsi (məzənnə dəyişkənliyi nəzərə alınmadan, baza dərəcəsi)



Kredit risklərinin idarə edilməsi ARDNF-nin risk əməliyyatlarının mühüm tərkib elementidir. ARDNF-nin investisiya etdiyi qiymətli kağızların, eləcə də qiymətli kağız emitentlərinin kredit reytinqləri ARDNF-nin İnvestisiya Qaydaları vasitəsi ilə tənzimlənir. 31 dekabr 2018-ci il – 31 dekabr 2019-cu il aralığında kredit reytinqi göstəricilərinə görə sabit gəlirli qiymətli kağızlar tərkibinin dinamikası Qrafik 5.4.4.-də əks olunmuşdur.

Qrafik 5.4.4. Sabit gəlirli qiymətli kağızlar portfelinin kredit reytinqləri üzrə bölgüsü



ARDNF-NİN İNVESTİSİYA FƏALİYYƏTİ



2001

- İlkin investisiyaların həyata keçirilməsinə başlanıldı.



2007

- ARDNF-nin aktivlərinin həcmi ilk dəfə 2 milyard ABŞ dollarını keçdi.



2008

- ARDNF-nin aktivlərinin həcmi ilk dəfə 10 milyard ABŞ dollarını keçdi.



2010

- ARDNF ilk dəfə özəl səhmlərə investisiyalara başladı.



2012

- Aktivlərin həcmi ilk dəfə 30 milyard ABŞ dollarını keçdi.
- ARDNF ilk dəfə olaraq qızıl, səhmlər və daşınmaz əmlaka investisiyalara başladı.
- İnvestisiya portfelinə Türkiyə lirəsi, Avstraliya dolları və Rusiya rublu kimi yeni valyutalar əlavə edildi.



2019

- ARDNF-nin aktivlərinin həcmi ilk dəfə olaraq 40 milyard ABŞ dolları həcmini keçdi.
- İnvestisiya siyasətinə yeni dəyişikliklər edildi və qızıla investisiyaların payı 5%-dən 10%-ə qaldırıldı, sabit gəlirli qiymətli kağızların payı isə 60%-dən 55%-ə qədər azaldıldı.
- İnvestisiya portfelinin ümumi illik gəlirliliyi ilk dəfə olaraq 5%-i keçdi.



2018

- Qızıla investisiyaların payı artdı.



2017

- İnvestisiya siyasətinə yeni dəyişikliklər edildi və səhmlərin payı 15%-dən 25%-ə qaldırıldı, sabit gəlirli qiymətli kağızların payı isə 70%-dən 60%-ə qədər azaldıldı.
- Səhmlərə və daşınmaz əmlaka investisiyaların payı artdı.



2016

- İnvestisiya siyasətinə yeni dəyişikliklər edildi və səhmlərin payı 10%-dən 15%-ə, daşınmaz əmlakın payı 5%-dən 10%-ə qaldırıldı, sabit gəlirli qiymətli kağızların payı isə 80%-dən 70%-ə endirildi.
- Alternativ maliyyə alətlərinə olan investisiyaların payı artdı.



2014

- ARDNF-nin investisiya siyasətinə dəyişiklik edildi: Səhmlərin payı artırılaraq 5%-dən 10%-ə qaldırıldı, sabit gəlirli qiymətli kağızların payı isə 85%-dən 80%-ə endirildi.
- İlk dəfə səhm indekslərinin Fondun daxili resursları hesabına idarə edilməsinə başlanıldı.

- Sabit gəlirli qiymətli kağızlar
- Səhmlər
- Daşınmaz əmlak
- Qızıl

6. ARDNF-NİN 2019-CU İL BÜDCƏSİNİN İCRASI

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 449 nömrəli Fərmanına əsasən, ARDNF-nin 2019-cu il büdcəsinin gəlirləri 15 450 149,7 min manat, xərcləri 11 595 238,4 min manat səviyyəsində təsdiq edilmişdir. 2019-cu ilin 1 yanvar tarixinə ARDNF-nin vəsaiti 64 905,5 milyon manat və yaxud 38 515,2 milyon ABŞ dolları təşkil etmişdir. Hesabat ilində ARDNF-nin vəsaiti ilin əvvəlinə nisbətən 4 808,1 milyon ABŞ dolları və ya 12,5%-ə qədər artaraq 43 323,3 milyon ABŞ dolları təşkil etmişdir. Eyni zamanda 2019-cu il ərzində ARDNF-nin manat ifadəsi ilə vəsaiti ilin əvvəlinə nisbətən 8 173,7 milyon manat və ya 12,5% artaraq ilin sonuna 73 079,2 milyon manat təşkil etmişdir.

2019-cu il ərzində ARDNF-nin gəlirlərinin ümumi həcmi 19 030,6 milyon manat və yaxud 11 194,5 milyon ABŞ dolları təşkil etməklə, büdcədə nəzərdə tutulana nisbətən (15 450,1 milyon manat) 123,2% səviyyəsində yerinə yetirilmişdir. 2019-cu ildə ABŞ dolları ifadəsi ilə ARDNF-nin ümumi gəlirləri 2018-ci il ilə müqayisədə (31.12.2018-ci il tarixinə icra – 10 361 milyon ABŞ dolları) 8% çox olmuşdur. 2019-cu il ərzində ARDNF-nin büdcə xərcləri 11 588,6 milyon manat və ya 6 816,8 milyon ABŞ dolları təşkil etməklə, büdcədə nəzərdə tutulana nisbətən (11 595,2 milyon manat) 99,9% səviyyəsində icra edilmişdir. 2019-cu ilin sonuna ARDNF-nin büdcəsində 7 442 milyon manat və yaxud 4 377,7 milyon ABŞ dolları məbləğində profisit yaranmışdır ki, bu da 2018-ci il ilə müqayisədə (6 158,5 milyon manat) manat ifadəsilə 1 283,4 milyon manat və yaxud təxminən 20,8% çoxdur. Hesabat ili ərzində yaranmış 4 377,7 milyon ABŞ dolları məbləğində büdcə profisiti yığıma yönəldilmişdir.

Gəlirlər. 2019-cu ildə ARDNF-nin gəlirlərinin formalaşma mənbələrini Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilmiş gəlirlər, akrhesabı ödənişlər, neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı), bonus ödənişləri və ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər təşkil etmişdir.

2019-cu ildə ARDNF-nin büdcəsinin mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər maddəsi üzrə daxilolmaları 14 614,7 milyon manat və ya 8 596,9 milyon ABŞ dolları təşkil etmişdir. Hesabat ilində Azəri-Çıraq-Günəşli yatağında hasilatın həcmi 195,1 milyon barel təşkil etməklə, proqnoza (197,1 milyon barel) nisbətən 99% icra olunmuşdur. Hesabat dövründə hasilatın və xam neftin satış qiyməti proqnoza nisbətən yuxarı olmuşdur və nəticədə mənfəət neftinin və qazın satışından əldə edilən gəlirlər maddəsi üzrə nəzərdə tutulan büdcə gəlirləri (13 218,75 milyon manat) 110,56% səviyyəsində icra olunmuşdur. Belə ki, ARDNF-nin 2019-cu ilin büdcəsində xam neftin ixrac qiyməti 60 ABŞ dolları proqnozlaşdırıldığı halda il ərzində bir barelin ortaçəkili satış qiyməti 64 ABŞ dolları təşkil etmişdir.

2019-cu ildə Dövlət Neft Şirkəti tərəfindən "Şahdəniz" Faza 1 layihəsi çərçivəsində SOCAR (Azərbaycan dövləti) və alıcılar arasında qazın alqı-satqısı üzrə bağlanmış sazişlər çərçivəsində müvafiq illik qaz həcmlərinin artıq həcmdə SOCAR tərəfindən alışı səbəbindən həmin artıq həcmlərin alışına yönəldilmiş 169,9 milyon ABŞ dolları məbləğində vəsait ARDNF-yə daxil edilməmişdir. Bununla yanaşı qaz satışından 2016-cı ildə 134,6 milyon ABŞ dolları, 2017-ci ildə 227,6 milyon ABŞ dolları, 2018-ci ildə isə 288,4 milyon ABŞ dolları məbləğində vəsait ARDNF-nin hesabına daxil olmamışdır. Beləliklə 2016-2019-cu illərdə Şahdəniz yatağı üzrə qaz satışından ümumilikdə 820,4 milyon ABŞ dolları məbləğində vəsait ARDNF-yə daxil olmamışdır.

2019-cu ildə karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar xarici sərmayəçilər tərəfindən köçürülən akrhesabı ödənişlər ARDNF-nin büdcəsinin digər gəlir maddəsini təşkil etmişdir. Hesabat ilində Xəzər dənizinin Azərbaycan sektorunda Şəfəq-Asiman dəniz blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə BP Eksploreyşn (Kaspian Si) limited və ARDNŞ-nin ortaq neft şirkəti arasındakı sazişə uyğun olaraq 2,8 milyon ABŞ dolları və ya 4,7 milyon manat məbləğində akrhesabı ödənişlər köçürülmüşdür. Bu maddə üzrə büdcə gəlirləri proqnozlaşdırılana (4,7 milyon manat) nisbətən təxminən 100,0% səviyyəsində icra olunmuşdur.

Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər (tranzit haqqı) 18,9 milyon manat və yaxud 11,1 milyon ABŞ dolları təşkil etmişdir. Bu gəlir maddəsi büdcədə nəzərdə tutulana (19 040,0 min manat) nisbətən 99,5% icra olunmuşdur.

Hesabat ilində ARDNF-yə təqribən 766,4 milyon manat və yaxud 450,8 milyon ABŞ dolları məbləğində bonus ödənişləri daxil olmuş və bu gəlir maddəsi büdcədə nəzərdə tutulana nisbətən (765,2 milyon manat) 100,2% icra olunmuşdur.

2019-cu il üzrə ARDNF vəsaitlərinin idarə edilməsindən 2 132,9 milyon ABŞ dolları və yaxud 3 625,9 milyon manat məbləğində gəlir əldə etmişdir. 2019-cu il üzrə ARDNF-nin investisiya portfelinin gəlirliliyi 5,29% təşkil etmişdir ki, bu göstərici ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 4,94% çox olmuşdur.

Cədvəl 6.1. ARDNF-nin 2019-cu il üzrə gəlirləri

№	Gəlir mənbələri	Gəlirlərin məbləği (milyon manat)		İcra faizi
		təsdiq olunmuş	faktiki	
1.	Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçiləri, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla)	13 218,7	14 614,7	110,5
2.	Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün ödənilən akrhesabı ödənişlər	4,7	4,7	100,0
3.	Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər	19,0	18,9	99,5
4.	Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar (mükafatlar)	765,2	766,4	100,2
5.	ARDNF-nin vəsaitlərinin idarə edilməsindən əldə edilən gəlirlər	1 442,5	3 625,9	251,4
	Cəmi gəlirlər	**15 450,1**	**19 030,6**	**123,2**

Büdcədənkənar gəlirlər. 2019-cu il ərzində ARDNF-nin investisiya portfelinə daxil olan valyutaların manata qarşı dəyişməsindən yaranan fərq üzrə büdcədənkənar gəlirlər 731,7 milyon manat təşkil etmişdir.

Xərclər. 2019-cu ildə ARDNF-nin büdcə xərcləri 11 588,6 milyon manat təşkil etməklə, büdcədə nəzərdə tutulana nisbətən 99,9% icra olunmuşdur. Hesabat ili ərzində ARDNF-nin büdcə xərclərinin strukturu aşağıdakı kimi olmuşdur:

Məcburi köçkünlərin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin maliyyələşdirilməsi. 2019-cu ildə ARDNF-nin büdcəsinin icrası çərçivəsində bu tədbirlərin maliyyələşdirilməsinə ümumilikdə 200,0 milyon manat vəsait ayrılmış və bu xərc maddəsi büdcədə nəzərdə tutulana nisbətən (200,0 milyon manat) 100,0% səviyyəsində icra olunmuşdur.

Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinə transfertin yuxarı həddi. 2019-cu ildə ARDNF-dən dövlət büdcəsinə 11 364,3 milyon manat vəsait transfert edilmiş və bu xərc maddəsi büdcədə nəzərdə tutulana nisbətən (11 364,3 milyon manat) 100,0% səviyyəsində icra olunmuşdur.

ARDNF-nin idarə edilməsi ilə bağlı xərcləri. ARDNF-nin idarə edilməsi ilə bağlı xərclərinin ARDNF-nin 2019-cu il üçün təsdiq edilmiş smeta xərclərinə (30,9 milyon manat) qarşı 24,3 milyon manat və ya 78,6% səviyyəsində icrası təmin edilmişdir. Xərclər smetasının tərkibində əməyin ödənişi ilə bağlı xərc maddəsi 8 197,4 min manat icra edilərək proqnoza qarşı 86,8% səviyyəsində olmuşdur. Malların (işlərin və xidmətlərin) satın alınması ilə bağlı xərc maddəsi 4 123,7 min manat və ya 85,6% səviyyəsində icra edilmişdir. Qrantlar və digər ödənişlər 725,5 min manat və ya təsdiq edilmiş məbləğə qarşı 94,8% səviyyəsində icra edilmişdir. Təqaüdlər və sosial müavinatlar ilə bağlı xərc maddəsi 49,3 min manat təşkil edərək 75,9% səviyyəsində icra edilmişdir. Digər xərclər maddəsi 8 577,6 min manat və ya 73,5% səviyyəsində icra edilmişdir. Qeyri-maliyyə aktivlərinin alınması ilə bağlı xərc maddəsi 2 631,4 min manat və ya 62,9% səviyyəsində icra edilmişdir.

Cədvəl 6.2. ARDNF-nin 2019-cu il smetasının maddələr üzrə icrası

min manat

Maddənin adı	2019		
	Təsdiq	İcra	İcra faizi
Əməyin ödənişi	9 440,7	8 197,4	86,83
Malların (işlərin və xidmətlərin) satın alınması	4 819,4	4 123,7	85,56
Qrantlar və digər ödənişlər	765,5	725,5	94,78
Təqaüdlər və sosial müavinatlar	65,0	49,3	75,92
Digər xərclər	11 666,9	8 577,6	73,52
Qeyri-maliyyə aktivlərinin alınması	4 180,9	2 631,4	62,94
Cəmi	**30 938,4**	**24 304,9**	**78,56**

Cədvəl 6.3. ARDNF-nin 2019-cu il üzrə xərc istiqamətləri

№	Xərc istiqamətləri	Xərclərin məbləği (milyon manat)		İcra faizi
		təsdiq olunmuş	faktiki	
1.	Məcburi köçkünlərin sosial məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi	200,00	200,00	100,00
2.	Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinə transfert	11 364,30	11 364,30	100,00
3.	ARDNF-nin idarə edilməsi ilə bağlı xərclər	30,94	24,30	78,60
	Cəmi xərclər	**11 595,24**	**11 588,6**	**99,9**

YUBİLEYLƏ BAĞLI 2019-CU İLDƏ GÖRÜLƏN TƏDBİRLƏR

“Bu yaz özün bir təbiət yarat!”

- ARDNF və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə Bakı-Şamaxı magistral avtomobil yolunun 27-ci kilometrliyində ağacəkmə aksiyası keçirilib. “Bu yaz özün bir təbiət yarat!”devizi ilə başladılan yaz ağacəkmə kampaniyası çərçivəsində təşkil edilən bu aksiya çərçivəsində ARDNF-nin rəhbər heyəti də daxil olmaqla əməkdaşları tərəfindən 1,5 hektar ərazidə 1000-dən artıq badam ağacı əkilib.

“Uğurlu səhm seçimi” müsabiqəsi

- ARDNF-nin yaradılmasının 20 illik yubileyi çərçivəsində həyata keçirilən tədbirlər planına uyğun olaraq tələbələr arasında səhm üzrə investisiya ideyasının xülasəsini əks etdirən “Uğurlu səhm seçimi” (“Stock Pitch”) adlı müsabiqə həyata keçirilib. Müsabiqədə iştirak üçün 11 universitetdən 63 komanda müraciət etmiş, yarımfinal mərhələsində iştirak imkanı əldə edən 8 komandadan 4-ü finala vəsiqə qazanıb. Mübarizədə münsiflər heyətinin qərarı ilə “Stockholmers” (Bakı Mühəndislik Universiteti) komandası müsabiqənin qalibi olmuşdur. (“Blue Chip” (Azərbaycan Dövlət İqtisad Universiteti), “Intangibles” (Xəzər Universiteti)) komandaları isə müvafiq olaraq II və III yerləri qazanmışlar. Müsabiqə qaliblərinə I yer üçün 5000 AZN, II yer üçün 3000 AZN və III yer üçün 1000 AZN məbləğində vəsait təqdim edilib.

Media nümayəndələri üçün müsabiqə

- ARDNF tərəfindən media mənsubları üçün “Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında” adlı analitik yazı müsabiqəsi keçirilib. Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov, ARDNF-nin İcraçı direktoru Şahmar Mövsümov, Mətbuat Şurasının üzvləri, müsabiqəyə yazı təqdim edən 31 jurnalistin iştirakı ilə keçirilən tədbirdə 1 nəfərə 1-ci yer, 2 nəfərə 2-ci yer, 3 nəfərə 3-cü yer və eləcə də 10 nəfərə həvəsləndirici mükafat təqdim edilib.

"Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar"

- ARDNF-nin təşkilatçılığı, Beynəlxalq Maliyyə Korporasiyasının (İFC) tərəfdaşlığı və Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə Bakıda "Müsbət təsirli investisiya: institusional investorlar üçün imkanlar və çağırışlar" adlı konfrans keçirilib. Müsbət təsirli investisiyaların mahiyyəti, onların maliyyə bazarları və alətlərinə təsiri, institusional investorlar tərəfindən bu investisiyaların strateji inteqrasiyası və tətbiqi, müsbət təsirli investisiyaların ölçülməsi və hesabatlılığı, bu investisiyalar üçün mövcud siyasət və qaydalar, iqlim dəyişikliyi məsələlərinə investisiyalar kimi mövzuları əhatə edən 6 sessiyadan ibarət olan konfransda aparıcı suveren fondların, pensiya fondlarının, beynəlxalq maliyyə təşkilatlarının nümayəndələri, beynəlxalq ekspertlər, dövlət qurumlarının, özəl sektorun, bir sıra universitetlərin təmsilçilərindən ibarət 200-ə yaxın şəxs iştirak edib.

ARDNF-nin 20 illik yubileyinə həsr olunmuş sikkə

- ARDNF-nin 20 illik yubileyinə həsr edilmiş yubiley pul nişanları Mərkəzi Bank tərəfindən tədavülə buraxılıb.

ARDNF əməkdaşlarının təltifi

- ARDNF-nin 20 illiyi ilə əlaqədar AR Prezidenti tərəfindən Fondun 12 əməkdaşı “Tərəqqi” medalı, 1 əməkdaşı isə 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilib.

Yubiley markaları

- Azərmarka tərəfindən Azərbaycan Respublikası Dövlət Neft Fondunun 20 illik yubileyinə həsr edilmiş yubiley markaları hazırlanıb.

7. ARDNF-NİN KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI

Azərbaycan Respublikası Dövlət Neft Fondu

31 dekabr 2019-cu il tarixinə

Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

Mündəricat

MÜSTƏQİL AUDİTORUN HESABATI 70

KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI 72

Konsolidasiya Edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabat 72

Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və Sair Məcmu Gəlir Haqqında Hesabat 73

Konsolidasiya Edilmiş Kapitalda Dəyişikliklər Haqqında Hesabat 74

Konsolidasiya Edilmiş Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat 75

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər 76

1. Azərbaycan Respublikası Dövlət Neft Fondu və onun fəaliyyəti 76
2. Fondun əməliyyat mühiti 78
3. Əsas uçot siyasəti 79
4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr 90
5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi 90
6. Yeni uçot qaydaları 91
7. Pul vəsaitləri və onların ekvivalentləri 91
8. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri 94
9. Qızıl külçələr 100
10. İnvestisiya mülkiyyəti 101
11. Birgə müəssisələrə investisiyalar 104
12. Kapital qoyuluşları 105
13. Uzunmüddətli öhdəliklər 106
14. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri üzrə faiz gəliri 107
15. Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqi 107
16. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi üzrə xalis (zərər)/gəlir 107
17. Əməliyyat xərcləri 107
18. Fond tərəfindən köçürmələr 108
19. Mənfəət vergisi 108
20. Ədalətli dəyər haqqında açıqlamalar 108
21. Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi 113
22. Maliyyə risklərinin idarə edilməsi 115
23. Təəhhüdlər və şərti öhdəliklər 121
24. Əlaqəli tərəflərlə əməliyyatlar 122
25. Strukturlaşdırılmış müəssisələrdə iştirak payları 124
26. Hesabat tarixindən sonrakı hadisələr 124

Müstəqil Auditorun Hesabatı

Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasına:

Rəy

Bizim fikrimizcə, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Azərbaycan Respublikası Dövlət Neft Fondunun ("ARDNF") və onun törəmə müəssisələrinin (birlikdə - "Fond") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq düzgün əks etdirir.

Auditin predmeti

Fondun konsolidasiya edilmiş maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2019-cu il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və
- əsas uçot siyasətləri və digər izahedici məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər.

Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

Müstəqillik

Biz Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Fonddan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, Fondu ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla, Fondun öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Fondun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz fırıldaqçılıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkar olunacağına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı-ayrılıqda və ya bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Fırıldaqçılıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq konsolidasiya edilmiş maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhv nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Fondun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxil nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğu və əldə edilmiş audit sübutlarına əsasən Fondun fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin sonrakı hadisələr və şəraitlər Fondun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Fonda daxil olan müəssisələrin maliyyə məlumatları və ya fəaliyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin idarə edilməsi, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Biz auditor rəyimizə görə tam məsuliyyət daşıyırıq.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

20 may 2020-ci il
Bakı, Azərbaycan Respublikası

PraysvoterhausKupers Audit Azərbaycan MMC
Landmark Ofis Plaza III, 12ci mərtəbə, Nizami 90A, AZ 1010, Bakı, Azərbaycan
T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az

Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat

Min Azərbaycan manatı ilə	Qeyd	31 dekabr 2019	31 dekabr 2018
Aktivlər			
Uzunmüddətli aktivlər			
İnvestisiya mülkiyyəti	10	2,517,219	2,584,684
Əmlak və avadanlıqlar		124,723	127,487
Qeyri-maddi aktivlər		2,632	5,407
Birgə müəssisələrə investisiyalar	11	1,047,199	1,167,214
Cəmi uzunmüddətli aktivlər		**3,691,773**	**3,884,792**
Qısamüddətli aktivlər			
Pul vəsaitləri və onların ekvivalentləri	7	2,590,446	1,264,588
Müddətli depozitlər		7,577	-
Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri	8	59,612,520	57,338,275
Qızıl külçələr	9	8,381,163	3,558,246
Sair qısamüddətli aktivlər		27,677	25,821
Cəmi qısamüddətli aktivlər		**70,619,383**	**62,186,930**
CƏMİ AKTİVLƏR		**74,311,156**	**66,071,722**
Kapital			
Kapital qoyuluşu		37,529,718	33,689,328
Xarici valyutanın çevrilməsi üzrə ehtiyat		776,386	766,965
Bölüşdürülməmiş mənfəət		34,908,734	30,592,664
Təsisçiyə aid olan kapital		73,214,838	65,048,957
Nəzarət olunmayan iştirak payı		7,502	8,436
Cəmi kapital		**73,222,340**	**65,057,393**
Öhdəliklər			
Uzunmüddətli öhdəliklər			
Törəmə müəssisələrin borcları		928,066	935,981
Zəmanət depozitləri		49,302	48,414
Təxirə salınmış vergi öhdəliyi		15,894	13,780
İcarə öhdəlikləri		77,792	-
Cəmi uzunmüddətli öhdəliklər	13	**1,071,054**	**998,175**
Qısamüddətli öhdəliklər		**17,762**	**16,154**
CƏMİ ÖHDƏLİKLƏR		**1,088,816**	**1,014,329**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**74,311,156**	**66,071,722**

76-125-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat

Min Azərbaycan manatı ilə	Qeyd	2019	2018
Effektiv faiz dərəcəsi metodu ilə hesablanmış faiz gəliri		40,914	86,042
Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri üzrə faiz gəliri	14	922,538	840,516
Dividend gəliri		390,334	266,518
Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqindən xalis zərər	15	(524,267)	(1,411,237)
Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi üzrə xalis gəlir/(zərər)	16	2,245,291	(847,509)
Qızıl külçələr üzrə xalis gəlir	9	1,194,590	32,497
İnvestisiya mülkiyyətinin ədalətli dəyərlə yenidən qiymətləndirilməsi üzrə xalis gəlir/(zərər)	10	64,971	(108,674)
İcarə gəliri		75,724	167,236
Sair əməliyyat gəliri		32,937	271,253
Cəmi əməliyyat gəliri / (zərəri)		**4,443,032**	**(703,358)**
Əməliyyat xərcləri	17	(103,437)	(103,513)
Birgə müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay	11	(22,056)	38,887
Mənfəət vergisindən əvvəlki mənfəət/(zərər)		**4,317,539**	**(767,984)**
Mənfəət vergisi	19	(1,320)	(455)
İl üzrə xalis mənfəət/(zərər)		**4,316,219**	**(768,439)**
Sair məcmu gəlir:			
Sonradan mənfəət və ya zərərə yenidən təsnifləşdirilə bilən maddələr			
Xarici əməliyyatlar üzrə maliyyə məlumatlarının təqdimat valyutasına çevrilməsi		12,209	(404,055)
İl üzrə sair məcmu gəlir/(zərər)		**12,209**	**(404,055)**
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)		**4,328,428**	**(1,172,494)**
Mənfəətin/(zərərin):			
- Təsisçiyə aid olan hissəsi		4,316,070	(768,927)
- Nəzarət olunmayan iştirak payına aid olan hissəsi		149	488
İl üzrə mənfəət/(zərər)		**4,316,219**	**(768,439)**
Cəmi məcmu gəlirin/(zərərin):			
- Təsisçiyə aid olan hissəsi		4,325,491	(1,175,838)
- Nəzarət olunmayan iştirak payına aid olan hissəsi		2,937	3,344
İL ÜZRƏ CƏMİ MƏCMU GƏLİR/(ZƏRƏR)		**4,328,428**	**(1,172,494)**

76-125-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat

Min Azərbaycan manatı ilə	Qeyd	Təsisçiyə aid olan hissə: Kapital qoyuluşu	Valyutanın çevrilməsi üzrə ehtiyat	Bölüşdürülməmiş mənfəət	Cəmi	Nəzarət olunmayan iştirak payı	Cəmi kapital
1 yanvar 2018-ci il tarixinə qalıq		**27,688,603**	**1,173,876**	**31,656,494**	**60,518,973**	**8,020**	**60,526,993**
MHBS 9-a keçid:							
- əvvəlki dövrlərdə amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivlərinin ədalətli dəyərlə qiymətləndirilməsinin təsiri		-	-	(294,903)	(294,903)	-	(294,903)
1 yanvar 2018-ci il tarixinə düzəliş edilmiş qalıq		**27,688,603**	**1,173,876**	**31,361,591**	**60,224,070**	**8,020**	**60,232,090**
İl üzrə mənfəət/(zərər)		-	-	(768,927)	(768,927)	488	(768,439)
Sair məcmu gəlir/(zərər)		-	(406,911)	-	(406,911)	2,856	(404,055)
		-	**(406,911)**	**(768,927)**	**(1,175,838)**	**3,344**	**(1,172,494)**
2018-ci il üzrə cəmi məcmu gəlir							
Fonda daxil olmuş vəsaitlər	**12**	17,433,067	-	-	17,433,067	-	17,433,067
Məzənnə fərqləri		-	-	-	-	(2,928)	(2,928)
Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər	**18**	(10,959,000)	-	-	(10,959,000)	-	(10,959,000)
Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna köçürülmüş vəsaitlər	**18**	(199,979)	-	-	(199,979)	-	(199,979)
Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürülmüş vəsaitlər	**18**	(89,999)	-	-	(89,999)	-	(89,999)
Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər	**18**	(176,128)	-	-	(176,128)	-	(176,128)
Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı ilə əlaqədar köçürülmüş vəsaitlər	**18**	(7,236)	-	-	(7,236)	-	(7,236)
31 dekabr 2018-ci il tarixinə qalıq		**33,689,328**	**766,965**	**30,592,664**	**65,048,957**	**8,436**	**65,057,393**
İl üzrə mənfəət		-	-	4,316,070	4,316,070	149	4,316,219
Sair məcmu gəlir		-	9,421	-	9,421	2,788	12,209
		-	**9,421**	**4,316,070**	**4,325,491**	**2,937**	**4,328,428**
2019-cu il üzrə cəmi məcmu gəlir							
Fonda daxil olmuş vəsaitlər	**12**	15,404,690	-	-	15,404,690	-	15,404,690
Məzənnə fərqləri		-	-	-	-	(3,871)	(3,871)
Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər	**18**	(11,364,300)	-	-	(11,364,300)	-	(11,364,300)
Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna köçürülmüş vəsaitlər	**18**	(200,000)	-	-	(200,000)	-	(200,000)
31 dekabr 2019-cu il tarixinə qalıq		**37,529,718**	**776,386**	**34,908,734**	**73,214,838**	**7,502**	**73,222,340**

76-125-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat

Min Azərbaycan manatı ilə	Qeyd	2019	2018
Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:			
Mənfəət vergisi xərcindən əvvəlki mənfəət/(zərər)		4,317,539	(767,984)
Maliyyə nəticələrini əməliyyat fəaliyyətində istifadə edilmiş xalis pul vəsaitləri ilə uyğunlaşdırmaq üçün edilmiş düzəlişlər:			
Əmlak və avadanlığın amortizasiyası		3,445	5,695
Qeyri-maddi aktivlərin amortizasiyası		2,781	2,783
Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivlərinin ədalətli dəyərinin dəyişməsi üzrə reallaşdırılmamış (gəlir)/zərər	16	(2,164,974)	1,294,052
Məzənnə fərqləri üzrə xalis reallaşdırılmamış zərər		494,041	1,071,438
Qızıl külçələrin yenidən qiymətləndirilməsi üzrə xalis gəlir	9	(1,194,590)	(32,497)
İnvestisiya mülkiyyətinin ədalətli dəyərlə yenidən qiymətləndirilməsi üzrə (gəlir)/zərər	10	(64,971)	108,674
Birgə müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay	11	22,056	(38,887)
Faiz gəliri		(963,452)	(926,558)
Dividend gəliri		(390,334)	(266,518)
ƏDV üzrə debitor borcların və mənfəət vergisi aktivlərinin silinməsi		18	13,596
Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər:			
Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivlərində artım	8	(379,693)	(7,683,782)
Müddətli depozitlərdə artım		(7,577)	-
Qızıl külçələrin alınması	9	(3,628,327)	(1,388,537)
Investisiya mülkiyyətində artım	10	(10,093)	(6,863)
Sair aktivlərdə artım		(1,875)	(6,557)
Qısamüddətli öhdəliklərdə artım		1,823	2,918
Birgə müəssisələrə investisiyalarda artım	11	-	(151,646)
Əməliyyat fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri		**(3,964,183)**	**(8,770,673)**
İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:			
Alınmış faizlər		761,551	758,490
Daxil olmuş dividendlər		390,334	266,518
Birgə müəssisədən daxil olmuş dividendlər		19,053	-

Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat (ardı)

İnvestisiya mülkiyyətinin satışından daxilolmalar	10	213,099	-
Birgə müəssisə tərəfindən geri ödənilmiş kapital	11	76,500	-
Əmlak və avadanlığın alınması		(688)	(176)
İnvestisiya fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**1,459,849**	**1,024,832**
Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti:			
Fonda daxil olmuş vəsaitlər	12	15,404,690	17,433,067
Dövlət Büdcəsinə köçürülmüş vəsaitlər	18	(11,364,300)	(10,959,000)
AR Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə və Məcburi Köçkünlərin Sosial İnkişaf Fonduna köçürülmüş vəsaitlər	18	(200,000)	(199,979)
Borclanmadan daxilolmalar	13	-	456,300
Samur-Abşeron suvarma sisteminin yenidən qurulması ilə əlaqədar köçürülmüş vəsaitlər	18	-	(89,999)
Bakı-Tbilisi-Qars yeni dəmir yol xəttinin çəkilməsi ilə əlaqədar köçürülmüş vəsaitlər	18	-	(176,128)
Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı ilə əlaqədar köçürülmüş vəsaitlər	18	-	(7,236)
Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri		**3,840,390**	**6,457,025**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		**(10,198)**	**(193,977)**
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)		**1,325,858**	**(1,482,793)**
İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri	**7**	**1,264,588**	**2,747,381**
İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri	**7**	**2,590,446**	**1,264,588**

31 dekabr 2019-cu il tarixinə konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər

1. Azərbaycan Respublikası Dövlət Neft Fondu və onun fəaliyyəti

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2019-cu il tarixində başa çatan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondu (“ARDNF”) və onun törəmə müəssisələri (“Fond”) üçün hazırlanmışdır.

ARDNF Azərbaycan Respublikasında yaradılmış və bu ölkədə fəaliyyət göstərir.

Fondun əsas fəaliyyəti. Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli “Azərbaycan Respublikasının Dövlət Neft Fondunun Yaradılması haqqında” Fərmanı (“Fərman”) ilə yaradılmışdır. ARDNF, neft və qaz ehtiyatlarının kəşfiyyatı və inkişafına dair müqavilələr çərçivəsində gəlirlərin, digər pul axınlarının, habelə ARDNF-in öz fəaliyyəti nəticəsində əldə edilən gəlirlərin toplanması, səmərəli idarə edilməsi və Azərbaycan Respublikası vətəndaşlarının və gələcək nəsillərin rifahı naminə istifadə edilməsi məqsədilə yaradılmışdır.

Aşağıda müzakirə olunmuş Fərman və əsasnamələrə uyğun olaraq, ARDNF ayrıca hüquqi şəxs kimi təsis edilmiş büdcədənkənar dövlət təsisatı olaraq, Azərbaycan Respublikasının Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarına ARDNF-in, onun aşağıdakı cədvəldə sadalanan birbaşa və dolayı törəmə müəssisələrinin maliyyə hesabatları və birgə müəssisələrinin vergidən sonrakı maliyyə nəticələri daxildir:

Törəmə müəssisələr	% iştirak payı		Ölkə	Təsis edildiyi tarix	Əldə etmə tarixi	Fəaliyyət sahəsi
	2019	2018				
SOFAZ RE Limited	100	100	Cersi	22-may-12	-	əmlakın idarə edilməsi
SOFAZ RE UK L.P.	100	100	Cersi	6-avq-12	-	əmlakın idarə edilməsi
SOFAZ RE Min Limited	100	100	Cersi	13-avq-12	-	əmlakın idarə edilməsi
78, St James`s Street Unit Trust	100	100	Cersi	2-okt-12	-	əmlakın idarə edilməsi
JSC Tverskaya 16	100	100	Rusiya Federasiyası	29-iyun-93	21-dek-12	əmlakın idarə edilməsi
SOFAZ RE Europe Holding S.a.r.l	100	100	Lüksemburq	31-okt-12	-	əmlakın idarə edilməsi
SOFAZ RE Europe S.a.r.l.	100	100	Lüksemburq	31-okt-12	-	əmlakın idarə edilməsi
SCI 8 Place Vendome	100	100	Fransa	14-noy-12	-	əmlakın idarə edilməsi
MAPS 21	100	100	Cənubi Koreya	30-okt-11	31-mart-14	əmlakın idarə edilməsi
Godo Kaisha GK001	98	98	Yaponiya	21-avq-15	26-avq-15	əmlakın idarə edilməsi
SOFAZ RE Fund S.a.r.l	100	100	Lüksemburq	27-may-15	-	investisiyanın idarə edilməsi
SOFAZ PE Fund S.a.r.l	100	100	Lüksemburq	28-sen-15	-	investisiyanın idarə edilməsi
SOFAZ Italy Fund	100	100	İtaliya	19-okt-15	-	əmlakın idarə edilməsi
SOFAZ Europe S.C.S.	100	100	Lüksemburq	6-dek-17	-	investisiyanın idarə edilməsi
SOFAZ Fund Limited	100	100	Cersi	28-dek-18	-	investisiyanın idarə edilməsi

Fonda daxil olmuş vəsaitlər Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2000-ci il tarixli 434 nömrəli Fərmanı ilə təsdiq edilmiş Fondun Əsasnaməsinə (“Əsasnamə”), habelə Azərbaycan Respublikası Prezidentinin 12 sentyabr 2001-ci il tarixdə təsdiq olunmuş 579 nömrəli Fərmanına uyğun olaraq “Fondun illik gəlir və xərclər proqramının (“Büdcəsinin”) tərtibi və icrası Qaydaları”nın 2.3 bəndində göstərilən aşağıdakı mənbələrə əsasən formalaşır:

76-125-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

a) SOCAR və ya səlahiyyətli dövlət orqanı ilə sərmayəçilər arasında bağlanmış Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan hissəsində neftin və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair Sazişlərin, habelə neft-qaz ehtiyatlarının kəşfiyyatı, işlənməsi və nəqlinə dair digər Sazişlərdən əldə edilən gəlirlər:

i. Neft-qaz sazişlərində Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən gəlirlər (karbohidrogenlərin nəql edilməsi üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərti ilə, habelə SOCAR-ın sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirləri istisna olmaqla);

ii. Bonus ödənişləri - neft-qaz sazişlərinin imzalanması və ya onların həyata keçirilməsi ilə bağlı SOCAR-a və ya Azərbaycan Respublikasının digər səlahiyyətli orqanlarına xarici neft şirkətləri tərəfindən ödənilən bonuslar (mükafatlar);

iii. Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün SOCAR-a və ya səlahiyyətli dövlət orqanına ödənilən akrhesabı ödənişlər;

iv. Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum ixrac boru kəməri vasitəsi ilə ötürülməsindən əldə edilən gəlirlər (SOCAR-ın sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla);

v. Neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının payına düşən dividendlər və mənfəətin bölüşdürülməsindən əldə edilən gəlirlər (SOCAR-ın sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirləri istisna olmaqla);

vi. Neft-qaz sazişləri çərçivəsində səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən verilən aktivlərdən əldə edilən gəlirlər.

b) Neft Fondu tərəfindən Fondun vəsaitinin (aktivlərinin) (o cümlədən, maliyyə aktivlərinin və neft-qaz sazişləri çərçivəsində sərmayəçilərin verdiyi aktivlərinin) yerləşdirilməsindən, idarə olunmasından, satışından və ya digər təqdim edilməsindən və yaxud satışdankənar əldə edilən gəlirlər, Fondun aktivlərinin hesabat valyutasında (Azərbaycan manatı) yenidən qiymətləndirilməsindən alınan gəlirlər və sair;

c) Qrantlar və digər təmənnasız yardımlar;

d) Azərbaycan qanunvericiliyinə uyğun olaraq digər gəlirlər və daxilolmalar.

2019 və 2018-ci illər ərzində Fond vəsaitlərin saxlanılmasına dair "Bank of New York Mellon" ilə sazişə tərəf olmuşdur. Fondun maliyyə aktivlərinin müəyyən hissəsinin idarə edilməsi hüququ aşağıdakı maliyyə qurumlarına verilmişdir: DWS International GmbH, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB - Dünya Bankı Qrupu), State Street Global Advisors Limited (SSGA), UBS Asset Management (UK) LTD, Sumitomo Mitsui Trust International LTD, Blackrock Investment Management (UK) LTD və Mellon Capital Management Corporation. Vəsaitlərin saxlanılmasına dair sazişə əsasən maliyyə qurumları Fondun aldığı qiymətli kağızları saxlayır və investisiyaların idarə edilməsi haqqında sazişlərə uyğun olaraq Fondun vəsaitlərini Fondun investisiya qaydaları əsasında müəyyən etdiyi səlahiyyətlər çərçivəsində idarə edir.

ARDNF-in hüquqi və faktiki ünvanı: Heydər Əliyev prospekti 165, Bakı, Azərbaycan, AZ1029.

31 dekabr 2019-cu il tarixinə və bu tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə hesabatlarının buraxılması 20 may 2020-ci il tarixində ARDNF-in rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

Təqdimat valyutası. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda, min Azərbaycan Manatı ilə ("AZN") təqdim olunur.

2. Fondun əməliyyat mühiti

2019-cu ildə də Azərbaycanda çoxşaxəli və ardıcıl islahatlar davam etdirilib, qeyri-neft sektorunun inkişafı və qeyri-neft ixracının artırılması, regionların tarazlı inkişafı, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin təkmilləşdirilməsi, özəl sektorun stimullaşdırılması, aqrar sektor layihələrinə, kiçik və orta sahibkarlığa dövlət dəstəyi sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir.

2019-cu il eyni zamanda əhalinin sosial müdafiəsi istiqamətində atılmış inqilabi addımlar ilə də yadda qalacaqdır. Bu addımlar sırasında problemli kreditlərin həlli ilə bağlı tədbirlər, pensiyaçıların və digər sosial qrupların sosial müdafiəsinin gücləndirilməsi, təhsil, səhiyyə və mədəniyyət işçilərinə dövlət qayğısının artırılması, məcburi köçkünlər üçün yeni qəsəbələrin salınması və digər bu kimi tədbirlər əhalinin sosial-iqtisadi həyatında əhəmiyyətli irəliləyişlərə zəmin yaratmışdır.

İl ərzində inflyasiya aşağı birrəqəmli səviyyədə sabitləşmiş, iqtisadi artım pozitiv zonada qalmaqda davam etmiş, milli valyutanın məzənnəsi dayanıqlı olmuş, xarici sektorda müsbət meyillər baş vermiş, tədiyə balansının profisiti ölkənin strateji valyuta ehtiyatlarının artmasına şərait yaratmışdır.

Yeni islahatlar kursuna əsasən, vergi sistemində idarəetmə prinsiplərinin yenidən təşkili və vergi inzibatçılığının təkmilləşdirilməsi, strateji yol xəritələri üzrə müvafiq işlərin görülməsi, müasir innovativ texnologiyaların tətbiq olunması, şəffaflığın təmin edilməsi, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın yüksəldilməsi və s. ilə bağlı əhatəli tədbirlər həyata keçirilib. Vergi qanunvericiliyində mövcud olan bəzi boşluqların aradan qaldırılması, müasir çağırışların tələbindən irəli gələn bir sıra məsələlərin həlli məqsədilə müxtəlif dövlət qurumları və ictimai təşkilatların, assosiasiyaların, sahibkarların rəy və təklifləri nəzərə alınmaqla Vergi Məcəlləsinin yeni redaksiyası işlənib hazırlanmışdır.

2019-cu il üzrə "Standard & Poor's" kredit reytinq agentliyi Azərbaycanın uzunmüddətli və qısamüddətli suveren kredit reytinqlərini 'BB+/B' səviyyəsində saxlayıb. Agentlik reytinqin bu səviyyədə saxlanılmasını ölkənin sağlam maliyyə vəziyyəti, xüsusilə də Dövlət Neft Fondunun valyuta ehtiyatları ilə əlaqələndirib.

Fondun rəhbərliyi iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Fondun dayanıqlı inkişaf strategiyasını dəstəkləmək üçün qabaqlayıcı tədbirlər görür. Buna baxmayaraq, mövcud iqtisadi vəziyyətin gələcək təsirini qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

3. Əsas uçot siyasəti

Maliyyə hesabatlarının tərtibatının əsasları. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərlə tanımaqla, əmlak və avadanlıqlar, investisiya mülkiyyəti və qızıl külçələri yenidən qiymətləndirməklə, eləcə də maliyyə alətlərini mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən ("FVTPL") kateqoriyasında qiymətləndirməklə, MHBS-ə uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əsas uçot siyasətləri aşağıda göstərilir. 1 yanvar 2019-cu il tarixindən MHBS 16-ya (İcarə) keçidlə əlaqədar olaraq uçot siyasətində baş verən dəyişikliklərdən başqa, həmin uçot siyasətləri başqa cür göstərilmədiyi hallarda, təqdim edilən bütün dövrlərə müvafiq şəkildə tətbiq edilmişdir (Qeyd 5).

Maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması bəzi əhəmiyyətli uçot təxminlərinin istifadəsini tələb edir. Bundan əlavə, Fond uçot siyasətini tətbiq edərkən rəhbərlik öz mülahizələrini irəli sürməlidir. Daha yüksək mülahizə tələb edən və ya mürəkkəb olan sahələr, həmçinin konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün ehtimal və təxminlərin əhəmiyyətli olduğu sahələr Qeyd 4-də açıqlanır.

Fond konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatını qısamüddətli və uzunmüddətli aktiv və öhdəlikləri ayırmaqla təqdim edir. Maliyyə vəziyyəti haqqında hesabatın tarixindən (qısamüddətli) sonrakı 12 ay ərzində və ya maliyyə vəziyyəti haqqında hesabatın tarixindən sonra 12 aydan çox müddət (uzunmüddətli) ərzində əvəzləşdiriləcək və ödəniləcək məbləğlərin təhlili göstərilir.

Konsolidasiya edilmiş maliyyə hesabatları. Fond (i) investisiya olunan müəssisələrin gəlirlərinə əhəmiyyətli təsir göstərən müvafiq funksiyaları idarə etmək səlahiyyətinə malik olduqda (ii) investisiya olunan müəssisələrdə iştirakından yaranan dəyişən gəlirlər ilə əlaqədar risklərə məruz qaldıqda və ya belə gəlirləri əldə etmək hüququna malik olduqda və (iii) investorun gəlirlərinə təsir göstərmək məqsədilə investisiya olunan müəssisələrin üzərində öz səlahiyyətlərindən istifadə etmək imkanına malik olduqda belə müəssisələr, o cümlədən strukturlaşdırılmış müəssisələr Fondun nəzarəti altında olan törəmə müəssisələr sayılır. Fondun digər müəssisə üzərində səlahiyyətlərini müəyyən edərkən əsaslı hüquqların mövcudluğu və təsiri, o cümlədən potensial səsvermə hüquqları nəzərə alınır.

Hüquq o halda əsaslı olur ki, belə hüquq sahibi investisiya olunan müəssisənin fəaliyyətinin əhəmiyyətli hissəsi ilə bağlı qərar qəbul etdiyi zaman belə hüququ praktiki olaraq icra etmək imkanına malik olsun. Fond hətta investisiya olunan müəssisənin səsvermə hüquqlarının çox hissəsinə malik olmadıqda belə, investisiya obyekti üzərində səlahiyyətlərə malik ola bilər. Belə hallarda Fond investisiya olunan müəssisə üzərində real səlahiyyətlərə malik olub-olmadığını müəyyən etmək məqsədilə digər səsvermə hüquqlu şəxslərin hüquqlarının həcmi və bölüşdürülmə dərəcəsi ilə əlaqədar öz səsvermə hüququnun həcmini qiymətləndirməlidir. Törəmə müəssisələrin əməliyyatları üzərində nəzarət Fonda keçdiyi tarixdən (alış tarixi) belə müəssisələr konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilir və nəzarətin itirildiyi tarixdən konsolidasiya edilmiş maliyyə hesabatlarından çıxarılır.

Fond tərəfindən törəmə müəssisələrin alınması alış metodu ilə uçota alınır. Alınmış identifikasiya edilə bilən aktivlər və müəssisələrin birləşməsi zamanı qəbul edilmiş öhdəliklər və şərti öhdəliklər nəzarət olunmayan iştirak payının həcmindən asılı olmayaraq alış tarixinə ədalətli dəyərdə əks etdirilir.

Fond mövcud iştirak paylarını əks etdirən və pay sahibinə müəssisənin likvidasiyası halında xalis aktivlərdə proporsional həcmdə pay əldə etmək hüququ verən nəzarət olunmayan iştirak payını hər bir əməliyyat üzrə fərdi qaydada a) ədalətli dəyərlə və ya b) əldə edilmiş müəssisənin xalis aktivlərində nəzarət olunmayan iştirak payına proporsional şəkildə qiymətləndirir. Mövcud iştirak paylarını əks etdirməyən nəzarət olunmayan iştirak payı ədalətli dəyərlə qiymətləndirilir.

Qudvil əldə edilmiş şirkətin xalis aktivlərini əldə edilmiş şirkətə görə ödənilmiş ümumi məbləğdən, əldə edilmiş şirkətdəki nəzarət olunmayan iştirak payından və alış ta-

rixinə qədər artıq əldə edilmiş şirkətə məxsus olan payın ədalətli dəyərindən çıxmaqla müəyyən edilir. Mənfi məbləğ rəhbərliyin əldə edilmiş bütün aktivlərin, eləcə də qəbul edilmiş öhdəliklərin və şərti öhdəliklərin müəyyən edildiyinin bir daha qiymətləndirməsindən və onların qiymətləndirilməsinin düzgünlüyünü təhlil etməsindən sonra mənfəət və ya zərərə aid edilir.

Əldə edilmiş şirkətə görə ödənişlər təqdim edilmiş aktivlərin, buraxılmış pay alətlərinin və qəbul edilmiş və ya yaranmış öhdəliklərin ədalətli dəyərində, o cümlədən şərti ödənişlər üzrə razılaşmalar nəticəsində yaranmış aktiv və öhdəliklərin ədalətli dəyərində qiymətləndirilir. Bu zaman məsləhət xidmətləri, hüquq xidmətləri, qiymətləndirmə və analoji peşəkar xidmətlərə görə ödənişlər kimi alış xərcləri nəzərə alınmır. Pay alətlərinin buraxılması zamanı yaranmış əməliyyat xərcləri kapitaldan çıxılır; borc qiymətli kağızların buraxılması ilə bağlı yaranmış əməliyyat xərcləri onların balans dəyərindən çıxılır və alış ilə bağlı bütün digər əməliyyat xərcləri xərcə silinir.

Fond daxilindəki əməliyyatlar, bu əməliyyatlar üzrə qalıqlar, eləcə də qrup şirkətəri arasında həyata keçirilən əməliyyatlar üzrə reallaşdırılmamış gəlirlər konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmir. Bundan əlavə, reallaşdırılmamış zərərlər də çəkilmiş xərclər bərpa edilmədiyi halda maliyyə hesabatlarından çıxarılır. Fond və onun bütün törəmə müəssisələri Fondun siyasətinə uyğun vahid uçot siyasəti tətbiq edir. Zərurət yarandıqda, törəmə müəssisələrin hesabatlarında əks etdirilən məbləğlər Fondun uçot siyasətinə uyğunlaşdırılmışdır.

Nəzarət olunmayan iştirak payı Fondun birbaşa və ya dolayısı ilə sahib olmadığı paya düşən törəmə müəssisənin xalis fəaliyyət nəticələrinin və kapitalının bir hissəsini əks etdirir. Nəzarət olunmayan iştirak payı Fondun kapitalının ayrıca komponentini formalaşdırır.

Nəzarət olunmayan iştirak paylarının alışı və satışı. Fond nəzarət olunmayan iştirak payının sahibləri ilə nəzarətin itirilməsi ilə nəticələnməyən əməliyyatların uçotu üçün kommersiya müəssisəsi modelini tətbiq edir. Alışdan əldə olunan vəsait ilə əldə edilmiş iştirak payının balans dəyəri arasında hər hansı fərq olarsa, bu, birbaşa olaraq kapitalda kapital əməliyyatı kimi qeydə alınır. Fond nəzarət olunmayan iştirak payının satışından əldə olunan vəsait ilə onun balans dəyəri arasındakı fərqi kapitalda dəyişikliklər haqqında hesabatda kapital əməliyyatı kimi tanıyır.

Birgə müəssisələr. MHBS 11-ə əsasən birgə müəssisələrə investisiyalar hər bir investorun müqavilə üzrə hüquq və vəzifələrindən asılı olaraq, birgə əməliyyatlar və birgə müəssisələr kimi təsnifləşdirilir. Fond öz birgə fəaliyyətinin xarakterini qiymətləndirmiş və onu birgə müəssisələr kateqoriyasına aid etmişdir. Birgə müəssisələrin fəaliyyəti pay iştirakı üzrə uçot metodu ilə tanınır.

Pay iştirakı üzrə uçot metoduna əsasən birgə müəssisələrdəki iştirak payları əvvəlcə ilkin dəyərdə tanınır və bu məbləğə sonradan birgə müəssisələrin alışdan sonrakı mənfəətində və zərərində Fondun payını və sair məcmu gəlirdəki dəyişiklikləri tanımaq üçün düzəliş edilir. Fondun birgə müəssisələrin zərərində payı onun həmin müəssisədəki iştirak payına bərabər və ya ondan çox olarsa (mahiyyətcə Fondun birgə müəssisələrə xalis investisiya qoyuluşlarının bir hissəsini təşkil edən uzunmüddətli iştirak payları daxil olmaqla), Fond birgə müəssisələrin adından üzərinə öhdəlik götürdüyü və ya ödənişlər etdiyi hallar istisna olmaqla, gələcək zərərləri tanımır.

Fond və onun birgə müəssisələri arasındakı əməliyyatlar üzrə realizasiya olunmamış gəlirlər Fondun birgə müəssisələrdəki payına proporsional həcmdə silinir; bundan əlavə, realizasiya olunmamış zərərlər birgə müəssisənin aktivlərinin dəyərsizləşməsi nəticəsində yaranmadığı halda silinir. Zərurət yarandıqda, birgə müəssisələrin uçot siyasəti Fondun uçot siyasətinə uyğunlaşdırılmışdır.

Törəmə, asılı və birgə müəssisələrin silinməsi. Fond şirkət üzərində nəzarəti və ya əhəmiyyətli təsiri itirdikdə, müəssisədəki hər hansı bölüşdürülməmiş mənfəət nəzarətin itirildiyi tarixdə ədalətli dəyərdə yenidən qiymətləndirilir və balans dəyərindəki dəyişikliklik mənfəət və ya zərərdə tanınır. Ədalətli dəyər əlaqəli müəssisələr, birgə müəssisələr və ya maliyyə aktivləri kimi mövcud iştirak paylarının sonrakı uçotu məqsədilə istifadə edilən ilkin balans dəyəridir. Bundan əlavə, həmin müəssisə ilə bağlı əvvəlki illərdə sair məcmu gəlirlərdə tanınmış hər hansı məbləğ Fondun müvafiq aktiv və öhdəliklərini birbaşa satması kimi uçota alınır. Bu, əvvəlki illərdə sair məcmu gəlirlərdə uçota alınmış məbləğlərin mənfəət və zərərə yenidən təsnifləşdirilməsidir.

Asılı müəssisədəki iştirak payının azaldılması, lakin əhəmiyyətli təsir itirilmədiyi təqdirdə əvvəllər məcmu gəlirdə tanınmış məbləğin yalnız mütənasib payı müvafiq olaraq mənfəət və ya zərərdə yenidən təsnifləşdirilir.

Xarici valyutanın çevrilməsi. Fondun konsolidasiya edilmiş müəssisələrinin əməliyyat valyutası həmin müəssisələrin fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Fondun əməliyyat və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN"). Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarındakı məbləğlər Fondun təqdimat valyutası olan AZN ilə əks olunmuşdur.

Əməliyyatlar və qalıqlar. Monetar aktivlər və öhdəliklər Azərbaycan Respublikasının Mərkəzi Bankının ("Mərkəzi Bank") müvafiq hesabat dövrünün sonuna qüvvədə olan rəsmi valyuta məzənnəsinə uyğun olaraq hər bir müəssisənin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi məzənnə ilə hər bir müəssisənin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər mənfəət və ya zərərdə tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən pay alətləri ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə təqdimat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

Qrup müəssisələri. Qrup müəssisələri arasında verilmiş kreditlər və yaranan müvafiq məzənnə gəlir və zərərləri konsolidasiya zamanı silinir. Lakin kredit əməliyyatları fərqli əməliyyat valyutalara malik qrup müəssisələri arasında baş verdikdə, məzənnə gəliri və ya zərəri tam silinə bilməz və kreditin yaxın gələcəkdə ödənilməsi gözlənilmədiyi hallardan başqa, konsolidasiya edilmiş mənfəət və ya zərərdə tanınır və beləliklə, xarici əməliyyata xalis investisiyanın bir hissəsini təşkil edir. Bu halda məzənnə gəliri və ya zərəri sair məcmu gəlirlərdə tanınır.

Hər bir Qrup müəssisəsinin əməliyyat nəticəsi və maliyyə vəziyyəti (bu müəssisələrdən heç birinin əməliyyat valyutası hiperinflyasiya iqtisadiyyatlı ölkələrin valyutası deyil) aşağıdakı şəkildə təqdimat valyutasına çevrilir:

(i) təqdim edilmiş hər bir maliyyə vəziyyəti haqqında hesabat üzrə aktiv və öhdəliklər, müvafiq hesabat dövrünün sonunda qüvvədə olan məzənnə ilə çevrilir;

(ii) gəlir və xərclər orta məzənnə ilə yenidən qiymətləndirilir (həmin orta məzənnə əməliyyat tarixinə məzənnələrin məcmu təsirinə əsaslı şəkildə yaxın olmadığı halda, gəlir və xərclər əməliyyat tarixinə qüvvədə olan məzənnə ilə çevrilir);

(iii) kapitalın komponentləri ilkin dəyərlə çevrilir; və

(iv) bütün məzənnə fərqləri sair məcmu gəlirlərdə əks etdirilir.

Xarici müəssisə və ya Fondun əməliyyat və təqdimat valyutasından fərqli valyutadan istifadə edən törəmə müəssisə üzərində nəzarət itirildikdə, əvvəlki dövrlərdə sair məcmu gəlirlərdə tanınmış məzənnə fərqləri silinnmədən yaranan gəlir və ya zərərin bir hissəsi kimi il üzrə mənfəət və ya zərərə yenidən təsnifləşdirilir. Törəmə müəssisə üzərindəki nəzarəti itirmədən onu qismən satdıqda, yığılmış məzənnə fərqlərinin müvafiq hissəsi kapitalda qeyri-nəzarət payına yenidən təsnifləşdirilir.

Xarici müəssisənin alınması nəticəsində yaranan qudvil və ədalətli dəyər üzrə düzəlişlər xarici müəssisənin aktiv və öhdəliyi kimi tanınır və ilin sonuna olan məzənnə ilə çevrilir. Bu zaman yaranan məzənnə fərqləri sair məcmu gəlirlərdə tanınır.

31 dekabr 2019-cu il tarixinə xarici valyuta qalıqlarının çevrilməsində istifadə olunan rəsmi valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN; 1 Avro = 1.9035 AZN; 100 Cənubi Koreya vonu = 0.1470 AZN; 1 İngilis funt sterlinqi = 2.2284 AZN; 100 Yapon yeni = 1.5578 AZN; 1 Rus rublu = 0.0274 AZN (2018: 1 ABŞ dolları = 1.7000 AZN; 1 Avro = 1.9468 AZN; 100 Cənubi Koreya vonu = 0.1521 AZN; 1 İngilis funt sterlinqi = 2.1529 AZN; 100 Yapon yeni = 1.5366 AZN; 1 Rus rublu = 0.0245 AZN). 31 dekabr 2019-cu il tarixinə gəlir və xərclərin çevrilməsində istifadə olunan rəsmi orta valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN; 1 Avro = 1.9027 AZN; 100 Cənubi Koreya vonu = 0.1459 AZN; 1 İngilis funt sterlinqi = 2.1698 AZN; 100 Yapon yeni = 1.5599 AZN; 1 Rus rublu = 0.0263 AZN (2018: 1 ABŞ dolları = 1.7000 AZN; 1 Avro = 2.0069 AZN; 100 Cənubi Koreya vonu = 0.1545 AZN; 1 İngilis funt sterlinqi = 2.2679 AZN; 100 Yapon yeni = 1.5384 AZN; 1 Rus rublu = 0.0272 AZN).

İnvestisiya mülkiyyəti. İnvestisiya mülkiyyəti icarə gəlirləri əldə etmək və ya gələcəkdə daha yüksək qiymətə satılmaq yaxud hər iki məqsədlə icarəyə verilmiş və Fondun sərəncamında olmayan mülkiyyətdir. İnvestisiya mülkiyyətinə gələcəkdə investisiya mülkiyyəti kimi istifadə edilmək üçün başa çatdırılmamış tikililər daxildir.

İnvestisiya mülkiyyəti ilkin olaraq əməliyyat xərcləri də daxil olmaqla ilkin dəyərdə uçota alınır və sonradan hesabat dövrünün sonuna mövcud olan bazar şərtlərini əks etdirmək üçün yenidən nəzərdən keçirilmiş ədalətli dəyərlə yenidən qiymətləndirilir. İnvestsiya mülkiyyətinin ədalətli dəyəri adi əməliyyat zamanı əməliyyat xərcləri çıxılmadan belə mülkiyyətin satışından əldə ediləcək dəyərdir. Ədalətli dəyər üçün ən dəqiq dəlil eyni məkanda və vəziyyətdə olan mülkiyyət üzrə fəal bazarda mövcud olan cari qiymətlərdir.

Analoji mülkiyyət üçün fəal bazarda cari qiymətlər mövcud olmadıqda Fond müxtəlif mənbələrdən əldə edilmiş məlumatlara əsaslanır, o cümlədən:

(a) fərqli xarakter, vəziyyət və ya əraziyə malik olan mülkiyyət üzrə fəal bazardakı cari qiymətlər (həmin fərqlər nəzərə alınmaqla);

(b) daha az fəal bazarlarda analoji mülkiyyət üçün eyni qiymətlərlə əməliyyatların həyata keçirildiyi tarixdən sonra iqtisadi şərtlərdəki hər hansı dəyişikliyi əks etdirmək üçün dəyişdirilmiş son qiymətlər; və

(c) mövcud icarə müqavilələri və digər müqavilələrin şərtlərinə uyğun olaraq hesablanmış gələcək nağd pul axınları üzrə etibarlı təxminlərə əsaslanan və (mümkün olduqda) kənar mənbələrin məlumatları (məsələn, eyni məkanda və vəziyyətdə olan oxşar kateqoriyalı mülkiyyət üçün cari bazar qiymətləri, eləcə də nağd pul axınlarının məbləği və müddəti ilə bağlı qeyri-müəyyənlik üzrə

cari bazar qiymətləndirmələrini əks etdirən diskont dərəcələri) ilə təsdiqlənən diskontlaşdırılmış gələcək nağd pul axınları üzrə proqnozlar.

Fondun investisiya mülkiyyətinin bazar dəyəri bu sahədə tanınmış və peşəkar sərištə qazanmış, habelə analoji ərazidə yerləşən və bənzər kateqoriyadan olan mülkiyyətin qiymətləndirilməsində ən son təcrübəyə malik olan müstəqil qiymətləndiricilərin tərtib etdikləri hesabatlara əsasən müəyyən edilir.

İnvestisiya mülkiyyətinin qiymətləndirilməsi bütün gözlənilən ödənişlər çıxılmaqla nəzərdə tutularsa, maliyyə vəziyyəti haqqında hesabatda ayrıca tanınan müvafiq icarə öhdəliyi uçot məqsədləri üçün investisiya mülkiyyətinin balans dəyərinə əlavə edilir.

İnvestisiya mülkiyyəti üzrə qazanılmış icarə gəlirləri il üzrə mənfəət və ya zərərdə icarə gəlirləri kimi göstərilir. İnvestisiya mülkiyyətinin ədalətli dəyərinin dəyişməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə ayrıca əks etdirilir. İnvestisiya mülkiyyətinin satışından yaranan gəlir və ya zərər satış qiyməti ilə balans dəyəri arasındakı fərq kimi hesablanır. Fond investisiya mülkiyyətini bazar şərtləri ilə həyata keçirilən əməliyyat zamanı ədalətli dəyərlə satarsa, satışdan dərhal əvvəlki balans dəyərinə əməliyyat qiymətinə uyğun düzəliş edilir və düzəliş il üzrə mənfəət və ya zərər hesabatında investisiya mülkiyyətinin yenidən qiymətləndirilməsindən yaranan gəlir kimi tanınır.

Mülkiyyət üzrə sonrakı xərclər Fondun həmin xərclər ilə bağlı gələcəkdə iqtisadi səmərə əldə edəcəyi ehtimalı olduqda və onun dəyəri etibarlı şəkildə qiymətləndirildikdə aktivin balans dəyərində kapitallaşdırılır. Bütün digər təmir və texniki xidmət xərcləri baş verdiyi anda xərcə silinir.

Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları. Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. Qeyd 20-yə baxın.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqədlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər ("AC") əsas məbləğ üzrə ödənişləri çıxmaqla və hesablanmış faizləri üstə gəlməklə, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə hər hansı ehtiyatı çıxmaqla ilkin tanınma zamanı maliyyə alətinin dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün müvafiq dövr ərzində faiz gəlirləri və ya xərclərinin bölüşdürülməsi metodudur. Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir. İlkin tanınma zamanı alınarkən və ya yaradılarkən dəyərsizləşmiş maliyyə aktivləri üçün effektiv faiz dərəcəsinə kredit riski nəzərə alınmaqla düzəliş edilir, yəni, müqavilə üzrə nağd pul axınlarına əsasən deyil, ilkin tanınma zamanı gözlənilən nağd pul axınlarına əsasən hesablanır.

Maliyyə alətlərinin ilkin tanınması. FVTPL kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Sövdələşmə qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə sübut edilir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("FVOCI") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir.

Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("müntəzəm" alış və satışlar), Fondun maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatların qeydə alınması müəssisə həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda həyata keçirilir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə kateqoriyaları. Fond maliyyə aktivlərini aşağıdakı qiymətləndirmə kateqoriyalarından istifadə etməklə təsnifləşdirir: FVTPL, FVOCI və AC. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi aşağıdakılardan asılıdır: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Fondun biznes modeli və (ii) aktiv üzrə nağd pul axınlarının xüsusiyyəti.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model. Biznes model Fondun nağd pul axınları əldə etməsi məqsədilə aktivlərin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Fondun məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və FVTPL kateqoriyasında ölçülür.

Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Fondun həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Fondun nəzərə aldığ amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə nağd pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar, aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları və aktivlərin idarə edilməsi menecerlərinə ödənişlərin sxemi daxildir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: nağd pul axınlarının xüsusiyyətləri. Biznes model müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılmasını nəzərdə tutduqda, Fond nağd pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (SPPI təhlili). Asılı törəmə alətli maliyyə aktivləri üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişlərinndən ibarət olub-olmadığını müəyyən etmək üçün belə aktivlər məcmu şəkildə nəzərdən keçirilir. Belə bir qiymətləndirmə apararkən Fond müqavilə üzrə nağd pul axınlarının əsas kredit razılaşmasının şərtlərinə uyğun olub-olmadığını, yəni faizlərə yalnız kredit riski üzrə ödənişlərin daxil olmasını, pulun zaman dəyərini, əsas kredit razılaşmasının digər risklərini və mənfəət marjasını nəzərə alır.

Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə tutduqda, müvafiq maliyyə aktivi FVTPL kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. SPPI təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi. Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilməlidir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv

qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üçün ehtiyat. Fond proqnozlar əsasında amortizasiya olunmuş dəyərlə və FVOCI kateqoriyasında ölçülən borc alətləri üzrə gözlənilən kredit zərərlərini (ECL) qiymətləndirir. Fond hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və maliyyə və müqavilə aktivləri üzrə xalis dəyərsizləşmə zərərlərini tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat.

Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri və müqavilə aktivləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. FVOCI kateqoriyasında ölçülən borc alətlərinin amortizasiya olunmuş dəyərində dəyişikliklər gözlənilən kredit zərərləri üçün ehtiyat çıxılmaqla mənfəət və ya zərərdə tanınır. Balans dəyərindəki digər dəyişikliklər sair məcmu gəlirlərdə FVOCI kateqoriyasında ölçülən borc alətləri üzrə "zərər çıxılmaqla gəlir" kimi tanınır.

Fond maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci Mərhələyə təsnifləşdirilir. 1-ci Mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir. Fond ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın baş verdiyini müəyyən edərsə, aktiv 2-ci Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün gözlənilən kredit zərərləri") qiymətləndirilir. Fond maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərsə aktiv 3-cü Mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri kimi qiymətləndirilir. Alınmış və ya yaradılmış, lakin dəyərsizləşmiş maliyyə aktivləri üçün gözlənilən kredit zərərləri daim bütöv müddət üçün gözlənilən kredit zərərləri kimi ölçülür.

Maliyyə aktivlərinin silinməsi. Maliyyə aktivlərini bərpa etmək üçün Fondun bütün praktiki imkanları tükəndikdə və Fond belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Fond müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması. Fond aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Fond maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

Maliyyə aktivlərinin modifikasiyası. Fond bəzən maliyyə aktivləri üzrə müqavilə şərtlərinə yenidən baxır və ya əks halda dəyişdirir. Bu zaman Fond digər məsələlərlə yanaşı, aşağıdakı amilləri nəzərə alaraq, müqavilə üzrə nağd pul axınlarının modifikasiyasının əhəmiyyətli olub-olmadığını qiymətləndirir: aktivin risk profilinə əhəmiyyətli dərəcədə təsir göstərən hər hansı yeni müqavilə şərtləri (məsələn, mənfəətdə pay və ya kapital üzrə gəlirlilik), faiz dərəcəsindəki əhəmiyyətli dəyişiklik, valyuta denominasiyasında dəyişiklik, aktivlə bağlı kredit riskinə əhəmiyyətli dərəcədə təsir göstərən yeni və ya əlavə kredit təminatının yaranması.

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları. Maliyyə öhdəlikləri aşağıdakılar istisna olmaqla, sonradan amortizasiya olunmuş dəyərlə təsnifləşdirilir: (i) FVTPL kateqoriyasında ölçülən maliyyə öhdəlikləri: bu təsnifat törəmə maliyyə alətləri, ticarət üçün saxlanılan maliyyə öhdəlikləri (məsələn, qiymətli kağızlar üzrə qısamüddətli mövqelər), bizneslərin birləşməsi zamanı alıcı tərəfindən tanınan şərti ödənişlər və ilkin tanınma zamanı belə öhdəliklər kimi müəyyən edilən digər maliyyə öhdəliklərinə tətbiq edilir və; (ii) maliyyə zəmanəti müqavilələri və kredit öhdəlikləri.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması. Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Fond ilə onun əvvəlki kreditorları arasında şərtləri əhəmiyyətli dərəcədə fərqli olan borc alətlərinin mübadiləsi, eləcə də mövcud maliyyə öhdəliklərinin şərtlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi ilkin maliyyə öhdəliyinin icrası və yeni maliyyə öhdəliyinin tanınması kimi uçota alınır. Şərtlər o halda əhəmiyyətli dərəcədə dəyişmiş hesab olunur ki, alınmış və ilkin effektiv faiz metodu ilə diskontlaşdırılmış bütün ödənilmiş komissiyalar daxil olmaqla, yeni şərtlərə əsasən nağd pul axınlarının diskontlaşdırılmış cari dəyəri ilkin maliyyə öhdəliyi üzrə qalan nağd pul axınlarının diskontlaşdırılmış cari dəyərindən ən azı 10% fərqlənsin. Borc alətlərinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınarsa, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin icrası üzrə mənfəət və ya zərərdə tanınır. Borc alətinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınmadıqda, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin balans dəyərinə düzəliş kimi əks etdirilir və modifikasiya edilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya edilir.

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvvəlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər balans dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə, mənfəət və ya zərərdə əks etdirilir.

Maliyyə alətlərinin əvəzləşdirilməsi. Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

Pul vəsaitləri və onların ekvivalentləri. Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri, banklardakı qısamüddətli depozitlər, eləcə də ilkin ödəmə müddəti üç ay və ya daha az olan qısamüddətli və yüksək likvidli investisiyalar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı səbəblərə görə amortizasiya olunmuş dəyərlə qeydə alınır: (i) müqavilə üzrə nağd pul axınlarını əldə etmək məqsədilə saxlanılır və həmin nağd pul axınları yalnız əsas borc və faiz ödənişlərindən ibarətdir, və (ii) FVTPL kateqoriyasında qiymətləndirilmir. Yalnız qanunvericiliklə müəyyən edilmiş şərtlər (məsələn, bəzi ölkələrdə borcun kapitala konvertasiya edilməsi üzrə müddəalar), müqavilənin şərtlərinə daxil ediləcəyi və hətta qanunvericiliyin dəyişdirilməsindən sonra tətbiq ediləcəyi hallar istisna olmaqla, SPPI təhlilinin nəticələrinə təsir göstərmir.

Pul bazarı fondları. Pul bazarı fondlarına investisiyalar pul vəsaitləri və onların ekvivalentlərinin tərkibində göstərilir və ədalətli dəyərlə qiymətləndirilir. Onlar müəyyən pul məbləğinə çevrilə bilən və dəyərinin dəyişməsi riski cüzi olan qısamüddətli və yüksək likvidli investisiyalardan ibarətdir və ödəmə müddətləri yaxınlaşdıqda faiz dərəcəsindəki dəyişikliklərə görə dəyərinin dəyişməsi riski azdır.

Ticarət və digər debitor borcları. Ticarət və digər debitor borcları ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

Ticarət və digər kreditor borcları. Ticarət və digər kreditor borcları qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirdiyi zaman hesablanır və ilkin olaraq ədalətli dəyərlə, sonra isə effektiv faiz metodundan istifadə etməklə amortizasiya olunmuş dəyərlə tanınır.

FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri. FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri istiqrazlara və səhmlərə investisiyalardan ibarətdir. FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri üzrə faizlərə istiqrazlar və səhmlər üzrə hesablanmış faizlər daxildir. Fondun dividend ödənişlərini almaq hüququ müəyyən edildikdə və dividendlərin əldə edilməsi ehtimalı yüksək olduqda, dividendlər maliyyə gəlirlərinin tərkibində göstərilir. Ədalətli dəyərdəki dəyişikliklərin bütün digər elementləri və tanınmanın dayandırılması zamanı yaranan gəlir və ya zərər yarandığı dövrdə ticarət üçün investisiyalar üzrə zərər çıxılmaqla gəlir kimi il üzrə mənfəət və ya zərərdə tanınır.

Səhm investisiyaları. Emitentin nöqteyi-nəzərindən kapital anlayışına cavab verən maliyyə aktivləri, yəni müqavilə üzrə nağd pulun ödənilməsi öhdəliyini nəzərdə tutmayan və emitentin xalis aktivlərində qalıq payını təsdiqləyən alətlər Fond tərəfindən səhm investisiyaları kimi hesab edilir. Səhm investisiyaları Fondun ilkin tanınma zamanı dəyişdirilməmək şərtilə səhm investisiyalarını FVOCI kateqoriyasına təsnifləşdirməsi istisna olmaqla, FVTPL kateqoriyasında qiymətləndirilir. Fondun siyasəti səhm investisiyalarını yalnız investisiya gəlirləri yaratmaq üçün deyil, strateji məqsədlər üçün saxlanıldıqda FVOCI kateqoriyasında qiymətləndirməkdir. FVOCI kateqoriyasında qiymətləndirmə zamanı ədalətli dəyərin dəyişməsi üzrə gəlir və zərər sair məcmu gəlirlərdə tanınır və sonra, o cümlədən silinmə zamanı mənfəət və ya zərərə yenidən təsnifləşdirilmir. Dəyərsizləşmə zərərləri və onların geri qaytarılması ədalətli dəyərdəki digər dəyişikliklərdən ayrıca qiymətləndirilmir. Fondun dividend ödənişlərini almaq hüququ müəyyən edildikdə, dividendlər belə ödənişlərin investisiya üzrə gəlirləri deyil, investisiyanın qaytarılmasını nəzərdə tutduğu hallar istisna olmaqla, mənfəət və ya zərərdə tanınır.

Borclar. Borclar ilkin olaraq əməliyyat xərcləri çıxılmaqla ədalətli dəyərdə, sonradan isə effektiv faiz metoduna

əsasən amortizasiya edilmiş dəyərdə tanınır.

Mənfəət vergisi. Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında mənfəət vergisi qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyin tələblərinə uyğun olaraq əks etdirilir. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, il üzrə mənfəət və ya zərərdə tanınır. Lakin, həmin və ya başqa dövrdə sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınan əməliyyatlara aid olan vergilər sair məcmu gəlirdə və ya birbaşa kapitalda tanınır.

Cari vergilər cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya vergi orqanları tərəfindən geri qaytarılacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa vergilər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (müəssisələrin birləşməsi halları istisna olmaqla). Təxirə salınmış vergi qalıqları qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Təxirə salınmış vergi aktiv və öhdəlikləri cari vergi aktivləri və vergi öhdəliklərinin əvəzləşdirilməsi üçün qanunvericilikdə nəzərdə tutulan hüquq mövcud olduqda, eləcə də təxirə salınmış vergi aktiv və öhdəlikləri vergiyə cəlb edilən eyni və ayrı-ayrı şəxslər tərəfindən eyni vergi orqanına ödənilmiş vergiyə aid olduqda və bu zaman hesablaşmaları əvəzləşdirmə yolu ilə aparmaq niyyəti mövcud olduğu halda əvəzləşdiirlə bilər. Təxirə salınmış vergi aktiv və öhdəlikləri yalnız Fondun ayrı-ayrı müəssisələri arasında əvəzləşdirilir.

Fond törəmə müəssisələrin dividendləri və ya onların satışından əldə edilən gəlirlərə tətbiq edilən vergilər üzrə müvəqqəti fərqlərin qaytarılmasına nəzarət edir. Rəhbərliyin yaxın gələcəkdə müvəqqəti fərqlərin qaytarılmasını gözlədiyi hallar istisna olmaqla, Fond belə müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi öhdəliklərini tanımır.

Biznеslərin birləşməsi. Biznеslərin birləşməsi satınalma metodundan istifadə etməklə uçota alınır. Biznеslərin birləşməsi zamanı köçürülmüş kompensasiya Fond tərəfindən köçürülmüş aktivlərin, əldə edilmiş müəssisənin keçmiş sahibləri üçün Fond tərəfindən yaranan öhdəliklərin və əldə edilmiş müəssisədə nəzarət müqabilində Fond tərəfindən buraxılan səhm payı üzrə iştirakın alındığı tarixdəki ədalətli dəyərlərin cəmi kimi hesablanacaq ədalətli dəyərdə ölçülür. Satınalma ilə əlaqəli xərclər adətən yarandığı anda mənfəət və ya zərərdə tanınır.

Qızıl külçələr. Fond tərəfindən qızıl külçələrin satın alınmasında məqsəd, həmin qızılın gələcəkdə satıla bilməsi imkanı ilə ümumi investisiya portfelinin diversifikasiyası olmuşdur. Qızıl külçələr ilkin olaraq ədalətli dəyərdə qeydə alınır və sonradan müvafiq gəlir və ya zərəri mənfəət və ya zərərdə göstərməklə ədalətli dəyərdə qiymətləndirilir.

Əmlak və avadanlıqlar. Fondun əmlak və avadanlığı əsasən inzibati məqsədlər üçün saxlanılan, təxmin edilən faydalı istifadə müddəti bir hesabat dövründən çox olan maddi aktivlərdir. Əmlak və avadanlıqlar yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Binaların yenidən qiymətləndirilməsi balans dəyərinin hesabat dövrünün sonunda ədalətli dəyərdən istifadə etməklə müəyyən edilə biləcək balans dəyərindən əhəmiyyətli dərəcədə fərqlənməməsi üçün kifayət qədər müntəzəm qaydada həyata keçirilməlidir. Yenidən qiymətləndirmə nəticəsində balans dəyərinin artması sair məcmu gəlirlərdə və kapitalda "yenidən qiymətləndirmə üzrə artım" kimi göstərilir. Eyni aktivin balans dəyəri üzrə əvvəlki artımları əvəzləşdirən azalmalar sair məcmu gəlirlərdə göstərilir və əvvəlki illərdə kapitalda tanınmış "yenidən qiymətləndirmə üzrə artımı" azaldır; bütün digər azalma halları il üzrə mənfəət və ya zərərdə əks etdirilir. Aktivin silinməsi və ya satılması zamanı yenidən qiymətləndirmə üzrə artım realizasiya olunduqda, kapitalda göstərilən binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı birbaşa olaraq bölüşdürülməmiş mənfəətə köçürülür. Ədalətli dəyər haqqında bazar məlumatı olmadıqda, ədalətli dəyər gəlir yanaşması əsasında müəyyən edilir.

Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əmlak və avadanlıqların əsas hissələrinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əmlak və avadanlıqlar üzrə dəyərsizləşmə əlamətlərinin mövcudluğunu qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Aktivin balans dəyəri onun bərpa edilə bilən dəyərinə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə kapitalda göstərilən əvvəlki ilin yenidən qiymətləndirmə ehtiyatından artıq olan hissəsi qədər tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

Aktivlərin silinməsindən yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və il üzrə mənfəət və ya zərərdə (sair əməliyyat gəliri və ya xərci kimi) tanınır.

Amortizasiya. Torpaq üçün amortizasiya hesablanmır. Əmlak və avadanlıqlar üzrə amortizasiya düz xətt metoduna, yəni əmlak və avadanlıqların təxmini faydalı istifadə müddəti ərzində aktivlərin ilkin dəyərini onların qalıq dəyərinədək azaltmaqla hesablanır:

	İllər
Binalar	50
Nəqliyyat vasitələri	7
Ofis avadanlığı	4
Mebel	5
Digər əsas vəsaitlər	3

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra, Fond tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

Qeyri-maddi aktivlər. Ayrıca alınmış qeyri-maddi aktivlər ilk olaraq ilkin dəyəri ilə tanınır. İlkin tanımadan sonra qeyri-maddi aktivlər yığılmış amortizasiyanı və yığılmış dəyərsizləşmə zərərlərini çıxmaqla ilkin dəyəri ilə əks etdirilir. Qeyri-maddi aktivlərin istifadə müddətləri məhdud və ya qeyri-müəyyən müddətlər kimi müəyyən edilmişdir. Məhdud istifadə müddəti olan qeyri-maddi aktivlər üçün 5 illik istifadə müddəti üzrə amortizasiya hesablanır və həmin qeyri-maddi aktivlər üzrə mümkün dəyərsizləşmə əlamətləri mövcud olanda dəyərsizləşmə baxımından qiymətləndirmə aparılır. Müəyyən istifadə müddəti olan qeyri-maddi aktivlər üzrə amortizasiya dövrlərinə və üsullarına ən azı hər maliyyə ilinin sonunda yenidən baxılır.

Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması. Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər hesabatında tanınır.

1 yanvar 2019-cu il tarixindən Fondun icarəyə götürən qismində çıxış etdiyi icarə müqavilələrinin uçotu. Fond torpaq sahəsini icarəyə götürür. İcarə müqavilələri Fondun icarəyə götürülmüş aktivi istifadə etdiyi tarixə müvafiq öhdəliklə birlikdə istifadə hüquqlu aktivlər kimi tanınır. Hər bir icarə ödənişi öhdəlik və maliyyə xərcləri arasında bölüşdürülür. Maliyyə xərcləri hər bir dövr üçün öhdəliyin qalığı üzrə sabit olaraq müntəzəm faiz dərəcəsini təmin etmək üçün icarə müddəti ərzində mənfəət və ya zərərə aid edilir. İlkin dəyərlə tanınan istifadə hüquqlu aktiv onun faydalı istifadə və ya icarə müddəti ərzində (bu müddətlərdən hansı daha tez başa çatarsa) düz xətt metodu ilə amortizasiya edilir.

İcarə müqaviləsi üzrə yaranan öhdəliklər ilkin olaraq cari dəyərlə qiymətləndirilir. İcarə öhdəliklərinə aşağıdakı icarə ödənişlərinin xalis cari dəyəri daxildir:

- icarə üzrə alınacaq həvəsləndirici ödənişlər çıxılmaqla, sabit ödənişlər (mahiyyətcə sabit ödənişlər daxil olmaqla);
- indeks və ya dərəcələrdən asılı olan dəyişkən icarə ödənişləri;
- zəmanətli son qalıq dəyəri üzrə icarəyə götürən tərəfindən ödənilməsi gözlənilən məbləğlər;
- icarəyə götürənin əsaslandırılmış şəkildə əmin olduğu halda alış hüququnun istifadə ediləcəyi qiymət; və
- icarə müddəti ərzində icarəyə götürən icarəni ləğv etmə hüququnu istifadə edərsə, icarənin ləğv edilməsi ilə bağlı cərimə ödənişləri.

İcarə ödənişləri icarə müqaviləsində nəzərdə tutulan faiz dərəcəsi ilə diskontlaşdırılır. Bu faiz dərəcəsinin müəyyən edilməsi mümkün olmadıqda icarəyə götürənin borc kapitalı üzrə artan faiz dərəcəsi istifadə edilir. Borc kapitalı üzrə artan faiz dərəcəsi icarəyə götürənin oxşar iqtisadi mühitdə istifadə hüquqlu aktivin dəyərinə oxşar məbləğdə aktiv əldə etməsi üçün eyni müddət və şərtlərlə zəruri olan vəsaitlərin cəlb edilməsi zamanı ödəməli olduğu faiz dərəcəsidir.

İstifadə hüquqlu aktivlər aşağıdakılar nəzərə alınmaqla, ilkin dəyərlə qiymətləndirilir:

- icarə öhdəliyinin ilkin qiymətləndirmə məbləği;
- icarə üzrə həvəsləndirici ödənişlər çıxılmaqla, icarə müqaviləsinin başlanma tarixindən əvvəl aparılmış bütün icarə ödənişləri;
- bütün ilkin birbaşa xərclər; və
- bərpa xərcləri.

İcarə müddətini müəyyən edərkən Fondun rəhbərliyi icarənin uzadılması və ya icarənin ləğv edilməsi hüquqlarının istifadəsi üçün iqtisadi stimul yaradan bütün fakt

və şərtləri nəzərə alır. İcarənin uzadılması hüquqları (və ya icarənin ləğv edilməsi hüququnun istifadəsi müddətindən sonrakı dövrlərin) yalnız müqavilənin müddətinin uzadılacağına (və ya ləğv edilməyəcəyinə) əsaslı şəkildə əminlik olduqda icarə müddətinə daxil edilir.

Qiymətləndirməyə təsir edən mühüm hadisə baş verdikdə və ya şəraitdə əhəmiyyətli dəyişiklik olduqda və belə hallar icarəyə götürənin nəzarəti altında olduqda qiymətləndirmə yenidən nəzərdən keçirilməlidir.

1 yanvar 2019-cu il tarixinə qədər Fondun icarəyə götürən qismində çıxış etdiyi əməliyyat icarəsi müqavilələrinin uçotu. Fond aktivin mülkiyyət hüququ ilə bağlı bütün risk və faydaların əsas etibarilə icarəyə verəndən Fonda ötürülməsini nəzərdə tutmayan icarə müqaviləsində icarəyə götürən qismində çıxış etdikdə, ümumi icarə ödənişləri icarə müddəti ərzində düz xətt metoduna əsasən il üzrə mənfəət və ya zərərdə (icarə xərcləri kimi) tanınır. Əməliyyat icarəsinə torpaq sahələri üzrə dövlət tərəfindən müntəzəm olaraq nəzərdən keçirilən və elan edilən kadastr dəyərindən asılı olan uzunmüddətli icarə ödənişləri daxildir.

Digər müqavilələrdən yaranan icarələr aşağıdakı hallarda ayrılır: (a) müqavilənin icrası müəyyən aktiv və ya aktivlərin istifadəsindən asılı olduqda və (b) müqavilə ilə aktivdən istifadə hüququ ötürüldükdə.

Fondun icarəyə verən qismində çıxış etdiyi əməliyyat icarəsi müqavilələrinin uçotu. Aktivlər əməliyyat icarəsinə verildikdə alınacaq icarə ödənişləri icarə müddəti ərzində düz xətt metodundan istifadə etməklə icarə gəliri kimi tanınır.

1 yanvar 2019-cu il tarixinə qədər Fondun icarəyə götürən qismində çıxış etdiyi maliyyə icarəsi müqavilələrinin uçotu. Fond mülkiyyətlə bağlı bütün risk və faydaların əsas etibarilə Fonda ötürüldüyü icarə müqavilələrində icarəyə götürən qismində çıxış etdikdə, icarəyə verilmiş aktivlər icarə münasibətlərinin yarandığı tarixdə icarəyə verilmiş aktivlərin ədalətli dəyəri ilə minimal icarə ödənişlərinin cari dəyəri arasında daha az olanı ilə əsas vəsaitlərin tərkibində uçota alınır. Hər bir icarə ödənişi maliyyə icarəsi üzrə borc qalığının sabit dərəcəsini təmin etmək məqsədilə maliyyə xərclərinə və qismən öhdəliyin azaldılmasına aid edilir. Gələcək maliyyə xərcləri çıxılmaqla, müvafiq icarə öhdəlikləri "sair borclar" sətrinə daxil edilir. Faiz xərcləri effektiv faiz dərəcəsi metoduna əsasən icarə müddəti ərzində il üzrə mənfəət və ya zərərdə tanınır. Fond icarə müddətinin başa çatmasınadək mülkiyyət hüququnun əldə ediləcəyinə əsaslı şəkildə əmin olmadıqda, maliyyə icarəsi müqaviləsi üzrə əldə edilmiş aktivlər onların faydalı istifadə müddəti və ya daha qısa icarə müddəti ərzində amortizasiya edilir.

Ehtiyatlar. Ehtiyatlar Fondun keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Fonddan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat ayırmaları hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun balans dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur).

Şərti aktiv və öhdəliklər. Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı yarana biləcək hər hansı ödəmələrin ehtimalının çox az olması hallarından başqa, belə hesabatlarda açıqlanır. Şərti aktivlər maliyyə vəziyyəti haqqında hesabatda əks etdirilmir, lakin onlarla bağlı iqtisadi mənfəətin daxil olması ehtimal edildikdə maliyyə hesabatlarında açıqlanır.

Kapital ehtiyatları. Fondun konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatında kapital (sair məcmu gəlirlər) üzrə qeyd edilmiş ehtiyatlara daxildir:

- Xarici əməliyyatlar üzrə xalis investisiyaların çevrilməsindən yaranan məzənnə fərqlərini qeydə almaq üçün istifadə olunan 'xarici valyutanın çevrilməsi üzrə ehtiyat';
- 'Bölüşdürülməmiş mənfəət'

Qeyd 18-də göstərildiyi kimi, Fərmanlara və Qaydalara uyğun olaraq, Fond büdcədənkənar dövlət təsisatıdır. Fondun daxilolmaları və köçürülmələri ilə bağlı bütün qərarlar Azərbaycan Respublikası Prezidentinin Fərmanları əsasında həyata keçirilir və təsdiqlənir.

Fondun daxilolmaları/köçürmələri kapital qoyuluşlarını/çıxarışlarını əks etdirir və müvafiq olaraq kapitalda alınmış/ödənilmiş vəsaitlərin ədalətli dəyəri ilə qeydə alınır.

Dövlət Büdcəsinə köçürmələr, habelə hökumət idarələri, hökumətə məxsus müəssisə və şirkətlərə köçürmələr ödəniş tarixində tanınır. Bütün köçürmələr Fondun təsdiq olunmuş büdcəsi çərçivəsində həyata keçirilir və büdcə ilə nəzərdə tutulmuş müvafiq benefisiarlara (dövlət təşkilatları, hökumətə məxsus müəssisə və şirkətlər) təqdim etdikləri sifariş məktublarının əsasında ödənilmək üçün Azərbaycan Respublikasının Dövlət Xəzinədarlığına köçürülür.

Faiz gəlir və xərclərinin tanınması. Amortizasiya olunmuş dəyərlə ölçülən bütün maliyyə aktivləri üzrə faiz gəlir və xərcləri effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və ödənişlər, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir. FVTPL kateqoriyasında nominal faiz dərəcəsi ilə hesablanmış borc və səhm alətləri üzrə faiz gəlirləri mənfəət və ya zərərin tərkibində «FVTPL kateqoriyasında ölçülən aktivlər üzrə faiz gəlirləri» sətrində göstərilir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar Fond tərəfindən əldə edilmiş və ya ödənilmiş komissiya haqları daxildir.

Yaradılmış və ya alınmış, lakin dəyərsizləşmiş maliyyə aktivləri üçün effektiv faiz dərəcəsi gözlənilən nağd pul axınlarını (ilkin gözlənilən kredit zərərləri daxil olmaqla) ilkin tanınma zamanı ədalətli dəyərə diskontlaşdıran dərəcədir (adətən alış qiymətinə uyğun gəlir). Nəticədə effektiv faiz dərəcəsi kredit riskinə uyğun dəyişdirilmiş olur.

Faiz gəlirləri aşağıdakılar istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır: (i) dəyərsizləşmiş maliyyə aktivləri (3-cü Mərhələ). Belə aktivlər üzrə faiz gəlirini hesablayarkən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, aktivin amortizasiya olunmuş dəyərinə effektiv faiz dərəcəsi tətbiq edilir və (ii) alınarkən və ya yaradılarkən dəyərsizləşmiş maliyyə aktivləri. Bu aktivlər üzrə faiz gəlirini hesablayarkən aktivin amortizasiya olunmuş dəyərinə kredit riskinə uyğun dəyişdirilmiş ilkin effektiv faiz dərəcəsi tətbiq edilir.

FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri üzrə dividend gəlirləri Fondun ödənişləri əldə etmək hüququ müəyyən edildikdə mənfəət və ya zərər haqqında hesabatda tanınır.

Sair əməliyyat gəlirləri, o cümlədən icarə gəlirləri hesablama metodu ilə yəni, gəlir qazanıldığı zaman tanınır.

Xərclər hesablama metodu il, yəni, çəkildiyi zaman tanınır.

Nağd şəklində daxilolmaların və köçürmələrin uçotu. Qeyd 1-də göstərildiyi kimi, Azərbaycan Respublikasında neft və qaz sahəsində həyata keçirilən müxtəlif fəaliyyətlər üzrə yaranan gəlirlərdən Fonda vəsaitlər daxil olur. Bu daxilolmalar Azərbaycan Respublikası Prezidentinin müəyyən fərmanlarına uyğun olaraq həyata keçirilir. Əhəmiyyətli layihələrə və Dövlət büdcəsinə köçürmələr, həmçinin Azərbaycan Respublikası Prezidentinin fərmanlarına uyğun olaraq həyata keçirilir. ARDNF hesab edir ki, bu daxilolmalar və köçürmələr müvafiq olaraq kapital qoyuluşlarını və çıxarışlarını əks etdirir. Müvafiq olaraq, ARDNF bu daxilolmaları və köçürmələri konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabatda kapitalın hərəkəti kimi tanıyır.

Maliyyə alətlərinin qiymətləndirilməsi. Mənfəət və ya zərərdə əks olunan ədalətli dəyərlə hesablanmış aktivlər kimi təsnif edilmiş maliyyə alətləri ədalətli dəyərlə göstərilir. Bu cür maliyyə alətlərinin ədalətli dəyəri alətin məcburi və ya likvidasiya satışından başqa, könüllü tərəflər arasında aparılan cari əməliyyat nəticəsində mübadilə edildiyi məbləğdir. Əgər alətin bazar dəyəri açıqlanmışdırsa, onun ədalətli dəyəri bazar qiymətinə əsaslanmaqla hesablanır. Bazarda qiymətləndirmə parametrlərini müşahidə etmək mümkün olmadıqda və ya müşahidə edilən bazar qiymətlərinə istinad etmək mümkün olmadıqda, ədalətli dəyər hər bir məhsul üçün uyğun olan digər bazar məlumatını və qəbul edilmiş maliyyə nəzəriyyələrindən əsaslandığımız riyazi metodologiyanı istifadə edən qiymətləndirmə modelini təhlil etməklə əldə olunur. Qiymətləndirmə modelləri qiymətli kağızların müqavilə şərtlərini, habelə bazara əsaslanan qiymətləndirmə parametrlərini (məsələn, faiz dərəcələrini, dəyişkənliyi, mübadilə məzənnələrini və tərəf-müqabillərin kredit reytinqini) nəzərə alır.

Bazara əsaslanan qiymətləndirmə parametrlərini müşahidə etmək mümkün olmadıqda, alətin bazarda necə qiymətləndiriləcəyinin məntiqi əksini müəyyən etmək məqsədilə rəhbərlik həmin parametrin ən yaxşı qiymətləndirilməsinə dair mühakimə işlədəcək. Bu mühakimə işlədilərkən, müxtəlif vasitələrdən o cümlədən, müşahidə edilən məlumatın etibarlılığı, tarixi məlumatlar və ekstrapolyasiya mexanizmləri istifadə olunur. Alət bazarda müşahidə olunan məlumatla müqayisə edilməklə sübuta yetirildiyi hallar istisna olmaqla, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyərinin qiymətləndirməsi üçün ən yaxşı sübut əməliyyat qiyməti olur. Əməliyyat qiyməti ilə qiymətləndirmə mexanizminə əsaslanmaqla müəyyən edilmiş dəyər arasındakı hər hansı fərq ilkin tanınma zamanı konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabata daxil edilmir. Sonrakı gəlirlər və ya zərərlər yalnız bazar iştirakçılarının qiymət təyin edərkən nəzərə ala biləcəkləri amillərdəki dəyişikliklərdən irəli gələrək tanınır.

Fond elan olunmuş bazar qiymətləri olmayan maliyyə alətlərinin qiymətləndirilməsi ilə bağlı mühasibat proqnozunu aşağıdakı səbəblərdən qeyri-müəyyənliyin əsas mənbəyi hesab edir: (i) onlar dövrdən-dövrə dəyişməyə çox həssasdır, çünki bu rəhbərliyin faiz dərəcələri, dəyişkənlik, mübadilə məzənnələri, tərəf-müqabilin kredit reytinqi, qiymətləndirmə düzəlişləri və əməliyyatın spesifik xüsusiyyəti ilə bağlı fərziyyələr irəli sürməsini tələb edir və (ii) qiymətləndirmələrdəki dəyişikliyin tanınmasından irəli gələn təsirin Fondun maliyyə vəziyyəti haqqında hesabatında, eləcə də mənfəət/(zərər) hesabında açıqlanan aktivlərinə əhəmiyyətli olması ehtimal edilir.

Rəhbərlik elan edilmiş bazar qiymətləri mövcud olmadıqda, faiz dərəcələri, dəyişkənlik, mübadilə məzənnələri,

partnyorun kredit reytinqi və qiymətləndirmə düzəlişləri ilə bağlı öz bilik və bacarıqlarından, eləcə də Fondun qəyyumlarından (əsasən Bank of New York Mellon) və Bloomberg agentliyindən əldə edilmiş məlumatlara əsasən müxtəlif fərziyyələrdən istifadə edir. Qeyd 20-yə baxın.

İnvestisiya mülkiyyətinin və əmlak və avadanlıqların (bina) ədalətli dəyərinin ölçülməsi. İnvestisiya mülkiyyətinin, eləcə də əmlak və avadanlıqların (binanın) ədalətli dəyəri müstəqil peşəkar qiymətləndiricilər tərəfindən müəyyən edilir. Ədalətli dəyər daxili kapitalizasiya metodu (diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metodu) və satışların müqayisə edilməsi metodunun qarışığı və ən yüksək və ən yaxşı istifadə metodundan istifadə edərək müəyyən edilir.

İşçi heyəti üzrə xərclər və müvafiq ayırmalar. Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Fondun işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Fondun yerli qanunvericiliyə uyğun olaraq müəyyən edilmiş haqlar üzrə Dövlət Sosial Müdafiə Fonduna ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Fond konsolidasiya edilmiş maliyyə hesabatlarında tanınan məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən ehtimallar və mülahizələr irəli sürür. Həmin ehtimallar və mülahizələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik, həmçinin peşəkar ehtimallar və təxminlər irəli sürür. Konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Strukturlaşdırılmış müəssisələr. Strukturlaşdırılmış müəssisələr elə şəkildə yaradılmışdır ki, onlara kimin nəzarət etdiyini müəyyən edərkən səsvermə hüquqları və ya oxşar hüquqlar əsas amillər hesab edilmir. Fond və strukturlaşdırılmış müəssisə arasındakı əlaqənin belə strukturlaşdırılmış müəssisənin Fondun nəzarəti altında olmasını bildirdiyini müəyyən etmək üçün peşəkar mülahizə tələb olunur.

Fond nəzarət etmədiyi strukturlaşdırılmış müəssisələri konsolidasiya etmir. Fondun strukturlaşdırılmış müəssisələr üzərində nəzarətini müəyyən etmək bəzən mürəkkəb olduğuna görə rəhbərlik belə müəssisələr ilə bağlı risk və faydalar, eləcə də onların fəaliyyətinə dair qərarların qəbul edilməsi imkanları ilə bağlı öz mülahizələrini irəli sürür. Bir çox hallarda ayrıca baxıldıqda, belə strukturlaşdırılmış müəssisələr üzərində nəzarətin mövcud olub-olmamadığını görmək olar, lakin ümumi baxıldıqda, tam nəticə əldə etmək asan olmur. Nəzarətin mövcudluğuna dair daha çox arqumentlərin olduğu hallarda, strukturlaşdırılmış müəssisə konsolidasiya edilir.

Fond konsolidasiya edilmiş maliyyə hesabatlarında strukturlaşdırılmış müəssisənin aktivləri, öhdəlikləri və əməliyyat nəticələrini əks etdirməsəydi, konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda xalis aktivlər 431,053 min AZN az (31 dekabr 2018: xalis aktivlər 427,795 min AZN az) və mənfəət 18,712 min AZN az (2018: 23,300 min AZN az) olardı. Fondun strukturlaşdırılmış müəssisəsi haqqında əlavə məlumat üçün Qeyd 25-ə baxın.

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Aşağıdakı yenidən işlənmiş standartlar və onlara dair şərhlər 1 yanvar 2019-cu il tarixindən Fondun fəaliyyəti üçün məcburi xarakter daşımışdır:

MHBS 16 "İcarələr" (13 yanvar 2016-cı ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Fond əvvəlki dövrün rəqəmlərini dəyişdirmədən və standartda nəzərdə tutulan müəyyən sadələşmələrdən istifadə edərək modifikasiya edilmiş retrospektiv üsuldan istifadə etməklə bu standartı məcburi tətbiq olunma tarixindən (1 yanvar 2019-cu il) tətbiq etməyi qərara almışdır. Daşınmaz əmlak üzrə istifadə hüquqlu aktivlər keçid zamanı yeni qaydaların sanki daim tətbiq edildiyi şəkildə qiymətləndirilir. İstifadə hüquqlu digər aktivlər standartın tətbiq edildiyi tarixdə (bütün avanslar və ya hesablanmış xərcləri nəzərə alaraq) icarə öhdəliyinin məbləğində qiymətləndirilir.

Uçot siyasətindəki dəyişiklik 1 yanvar 2019-cu il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı maddələrə təsir göstərmişdir:

Min Azərbaycan manatı ilə	Qeyd	BMHS 16-ya keçidin təsiri
İstifadə hüquqlu aktivlərdə artım	10	78,245
İcarə öhdəliklərində artım	13	78,245

Aşağıdakı yenidən işlənmiş standartlar 1 yanvar 2019-cu il tarixindən qüvvəyə minmiş, lakin Fonda əhəmiyyətli dərəcədə təsir göstərməmişdir:

- BMHŞK 23 "Mənfəət vergisinin uçotundan yaranan qeyri-müəyyənlik" (7 iyun 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- MHBS 9-a dəyişikliklər - "Mənfi kompensasiyanı nəzərdə tutan vaxtından əvvəl həyata keçirilmiş ödənişlərin xüsusiyyətləri" (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir).
- MUBS 28-ə dəyişikliklər "Asılı və birgə müəssisələrdə uzunmüddətli iştirak payları" (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- MHBS 3, MHBS 11, MUBS 12 və MUBS 23-ə dəyişikliklər - 2015-2017-ci illər üzrə MHBS-lərin təkmilləşdirilməsi (12 oktyabr 2017-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- MUBS 19-a dəyişikliklər "Pensiya planının dəyişdirilməsi, azaldılması və tənzimlənməsi" (7 fevral 2018-ci ildə dərc olunub və 1 yanvar 2019-cu il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- MUBS 12-yə dəyişikliklər "Mənfəət vergisi" - 2015-2017-ci illər üzrə MHBS-lərin illik təkmilləşdirilməsi.

6. Yeni uçot qaydaları

1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün məcburi xarakter daşıyan və ya Fond tərəfindən vaxtından əvvəl tətbiq edilməyən bəzi yeni standartlar və onlara dair şərhlər dərc olunmuşdur.

MHBS 10 və MUBS 28-ə dəyişikliklər "İnvestor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi" (11 sentyabr 2014-cü ildə dərc olunub və BMUSŞ tərəfindən müəyyən ediləcək tarixdə və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün qüvvəyə minir). Bu dəyişikliklər investor tərəfindən aktivlərin asılı və ya birgə müəssisələrə satılması və ya ötürülməsi ilə bağlı MHBS 10 və MUBS 28-in tələbləri arasındakı uyğunsuzluğu aradan qaldırır. Dəyişikliklərin əsas nəticəsi ondan ibarətdir ki, mənfəət və zərər əməliyyatın biznesə aid olduğu halda tam tanınır. Aktivlər özündə biznesi əks etdirmədikdə, hətta bu aktivlər törəmə müəssisəyə məxsus olsa belə, mənfəət və ya zərərin yalnız bir hissəsi tanınır. Hazırda Fond bu dəyişikliklərin onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

MHBS 17 "Sığorta müqavilələri" (18 may 2017-ci ildə dərc olunub və 1 yanvar 2021-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir). MHBS 17 şirkətlərə sığorta müqavilələrinin uçotu üzrə mövcud praktikanı tətbiq etməyə icazə verən MHBS 4-ü əvəz edir. MHBS 4-ə əsasən investorlar analoji sığorta şirkətlərində maliyyə nəticələrini müqayisə etmək və üzləşdirməkdə çətinlik çəkirdilər. MHBS 17 sığortaçının təkrar sığorta müqavilələri daxil olmaqla, bütün növ sığorta müqavilələrinin uçotu standartının prinsiplərinə əsaslanan yeganə standartdır. Bu standartın tələbinə görə sığorta müqavilələri qrupları (i) müqavilələrin yerinə yetirilməsi üçün nağd pul axınları üzrə mövcud olan bütün məlumatları müşahidə edilə bilən bazar məlumatlarına uyğun olaraq nəzərə alan riskə görə düzəldilmiş gələcək nağd pul axınlarının diskont dəyəri ilə (müqavilələrin yerinə yetirilməsi üzrə nağd pul axınları); (ii) müqavilələr qrupu üzrə bölüşdürülməmiş mənfəəti (müqavilələr üzrə servis marjası) toplamaqla (dəyər öhdəlik olduqda) və ya çıxmaqla (dəyər aktiv olduqda) tanınmalı və qiymətləndirilməlidir. Sığortaçılar sığorta müqavilələri qrupundan yaranan gəliri sığorta proqramını təqdim etdiyi dövr ərzində, eləcə də riskdən azad olunduğu halda əks etdirəcəklər. Müqavilələr qrupu üzrə zərər mövcuddursa və ya mövcud olarsa müəssisə dərhal zərəri əks etdirəcək. Hazırda Fond yeni standartın onun konsolidasiya edilmiş maliyyə hesabatlarına təsirini qiymətləndirir.

Qəbul edildikdən sonra aşağıdakı digər yeni uçot qaydalarının Fondun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir:

- Maliyyə hesabatlarının hazırlanması və təqdim olunması üzrə Konseptual Əsaslara düzəlişlər (29 mart 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).
- Biznes anlayışı – MHBS 3-ə dəyişikliklər (22 oktyabr 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik hesabat dövrünün əvvəlindən həyata keçirilən satınalmalar üçün qüvvəyə minir).
- Əhəmiyyətlilik anlayışı – MUBS 1 və MUBS 8-ə dəyişikliklər (31 oktyabr 2018-ci ildə dərc olunub və 1 yanvar 2020-ci il və ya bu tarixdən sonra başlanan illik dövrlər üçün qüvvəyə minir).

Yuxarıda başqa cür nəzərdə tutulmadığı hallarda yeni standartlar və şərhlərin Fondun konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsiri gözlənilmir.

7. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Pul bazarı fondları	1,429,032	553,139
Bank hesabları	1,160,617	707,012
Qısamüddətli depozitlər	797	4,437
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**2,590,446**	**1,264,588**

Pul bazarı fondları

Pul bazarı fondlarına investisiyalar bu fondların tələb əsasında ödənilən səhmlərindən ibarətdir. Pul bazarı fondlarındakı investisiyalar yüksək dərəcədə likvidlidir. Pul bazarı fondları öz aktivlərini qısamüddətli borc və borcla bağlı alətlərə, misal üçün, kommersiya kağızlarına, depozit şəhadətnamələrinə, faiz dərəcəsi dəyişkən olan istiqrazlara, ABŞ xəzinə istiqrazlarına, Avrobondlara və aktivlərlə təmin edilmiş qiymətli kağızlara yatırır. Fonda ödəniləcək faiz və dividendlər yenidən investisiya edilir. Pul bazarı fondlarının ədalətli dəyəri təxminən onların balans dəyərinə bərabərdir.

Fondun kredit reytinqləri AAA olan aşağıdakı pul bazarı fondlarında investisiyaları olmuşdur:

Min Azərbaycan manatı ilə	2019	2018
BlackRock ICS-Institution Liquidity Funds plc	1,429,032	502,712
The Goldman Sachs Group, Inc	-	50,427
Cəmi pul bazarı fondları	**1,429,032**	**553,139**

Bank hesabları

Bank hesabları aşağıdakı valyutalarla ifadə edilmişdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Azərbaycan manatı	1,010	895
ABŞ dolları	694,638	465,938
İngilis funt sterlinqi	67,599	77,284
Çin yuanı	1,349	1,515
İsveçrə frankı	1,946	3,625
Avstraliya dolları	2,108	5,899
Avro	340,082	106,213
Rusiya rublu	398	2,543
Cənubi Koreya vonu	1,476	2,596
Kanada dolları	822	697
Honq Konq dolları	435	143
Norveç kronu	406	199
Danimarka kronu	208	114
Yeni Zelandiya dolları	143	64
Yapon yeni	43,175	37,516
Sinqapur dolları	220	181
İsveç kronu	75	126
İsrail şekeli	93	151
Türk lirəsi	4,434	1,313
Cəmi bank hesabları	**1,160,617**	**707,012**

31 dekabr 2019-cu il tarixinə Fond Azərbaycan Beynəlxalq Bankı və Azərbaycan Respublikası Mərkəzi Bankındakı bank hesablarında müvafiq olaraq 71 min AZN və 972 min AZN (2018: 112 min AZN və 820 min AZN) məbləğində vəsait saxlamışdır.

Xarici valyuta ilə digər hesablar uzunmüddətli reytinqləri B/B2 və daha yuxarı (Standard & Poor's/Fitch/Moody's) olan qeyri-rezident banklarda açılmışdır.

31 dekabr 2019-cu il tarixinə (Standard & Poor's/ Fitch/Moody's agentliklərinin reytinqlərinə əsasən) pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	Bank hesabı	Qısamüddətli depozit	Pul bazarı fondları	Cəmi
Vaxtı keçməmiş və dəyərsizləşməmiş				
AAA	-	-	1,429,032	1,429,032
AA	4,446	-	-	4,446
A	557,195	797	-	557,992
BBB*	593,499	-	-	593,499
B	4,505	-	-	4,505
Cəmi pul vəsaitləri və onların ekvivalentləri**	**1,159,645**	**797**	**1,429,032**	**2,589,474**

*Bu məbləğin 397 min AZN-lik hissəsi (2018: 4,198 min AZN) Fondun törəmə müəssisələrində olan və Fondun birbaşa iştirakı ilə yerləşdirilməyən nağd pul qalıqlarını əks etdirir.

**Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilmiş 972 min AZN məbləğində (2018: 820 min AZN) nağd pul qalıqları cədvəldə əks etdirilmir. Azərbaycan Respublikası Mərkəzi Bankının kredit reytinqi yoxdur.

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi məqsədilə pul vəsaitləri və onların ekvivalentləri üzrə qalıqlar 1-ci Mərhələyə aid edilmişdir. Bu qalıqlar üzrə gözlənilən kredit zərərlərinin məbləği əhəmiyyətli olmadığına görə Fond pul vəsaitləri və onların ekvivalentləri üçün kredit zərərləri üzrə ehtiyat yaratmamışdır.

31 dekabr 2018-ci il tarixinə (Standard & Poor's/ Fitch/Moody's agentliklərinin reytinqlərinə əsasən) pul vəsaitləri və onların ekvivalentlərinin kredit keyfiyyətinə görə təhlili aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	Bank hesabı	Qısamüddətli depozit	Pul bazarı fondları	Cəmi
Vaxtı keçməmiş və dəyərsizləşməmiş				
AAA	-	-	553,139	553,139
AA	5,560	-	-	5,560
A	147,496	4,437	-	151,933
BBB	550,050	-	-	550,050
BB	1,661	-	-	1,661
B	1,425	-	-	1,425
Cəmi pul vəsaitləri və onların ekvivalentləri	**706,192**	**4,437**	**553,139**	**1,263,768**

Pul vəsaitləri və onların ekvivalentlərinin faiz dərəcəsi üzrə təhlili Qeyd 22-də göstərilir. Əlaqəli tərəflərlə əməliyyatlar haqqında məlumat Qeyd 24-də açıqlanır.

8. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri

FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri aşağıdakılardan ibarətdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Agentlik/Beynəlmiləl qurumların istiqrazları	9,293,635	13,082,224
Korporativ istiqrazlar	25,200,773	28,786,959
Suveren istiqrazlar	12,429,189	2,915,648
Pul bazarı alətləri	1,141,605	4,070,231
Özəl səhm fondları	902,260	641,363
Daşınmaz əmlak fondları	2,608,665	1,612,098
Səhmlər	8,036,393	6,229,752
Cəmi FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	**59,612,520**	**57,338,275**

31 dekabr 2019-cu il tarixinə Fond maliyyə təşkilatları ilə (“xarici menecerlərlə”) aktivlərin idarə edilməsi haqqında razılaşmalara əsasən 7,887,278 min AZN (2018: 6,301,821 min AZN) məbləğində vəsait, o cümlədən pul vəsaitləri və onların ekvivalentlərini saxlamışdır. 2019-cu ildə xarici menecerlər qarşısında idarəetmə haqları 2,850 min AZN (2018: 2,887 min AZN) olmuşdur.

Agentlik/Beynəlmiləl qurumların istiqrazları. Bu istiqrazlar Avropa, Asiya və Amerikada müxtəlif beynəlxalq təşkilatlar tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyalarla təmsil olunur. 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə ildə 0.06% - 6.25% müəyyən dərəcə ilə faiz və ildə -0.05% dərəcəsindən +0.925% dərəcəsinədək geniş civarda olan USD LIBOR, GBP LIBOR, 5-günlük orta CNY SHIBOR hesablanır (2018: ildə 0.125% - 5.75% müəyyən dərəcə ilə faiz və ildə -0.05% dərəcəsindən +0.9% dərəcəsinədək geniş civarda olan USD LIBOR, GBP LIBOR, 5-günlük orta CNY SHIBOR hesablanır) və müddəti 2020-ci ilin yanvar ayından 2024-cü ilin noyabr ayınadək dövrdə başa çatır (2018: 2019-cu ilin yanvar ayından 2023-cü ilin noyabr ayınadək dövrdə). 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə cəmi hesablanmış faiz 39,672 min AZN olmuşdur (2018: 52,411 min AZN). Bu qiymətli kağızlar həm birbaşa Fond, həm də Fondun xarici menecerləri olan DWS International GmbH və BYİB - Dünya Bankı Qrupu tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

Korporativ istiqrazlar. Korporativ istiqrazlar Avropa, Asiya, Avstraliya və Amerikadakı korporasiyalar tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyalarla təmsil olunur. 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə ildə 0.0% - 7.875% müəyyən dərəcə ilə faiz və ildə +0.21% dərəcəsindən +4% dərəcəsinədək geniş civarda olan USD LIBOR, GBP LIBOR, EURIBOR və Avstraliya Bankının Qısamüddətli İstiqraz Dərəcəsi hesablanır (2018: ildə 0.0% - 7.5% müəyyən dərəcə ilə faiz və ildə +0.16% dərəcəsindən +4% dərəcəsinədək geniş civarda olan USD LIBOR, GBP LIBOR, EURIBOR və Avstraliya Bankının Qısamüddətli İstiqraz Dərəcəsi) və müddəti 2020-ci ilin yanvar ayından 2031-ci ilin yanvar ayınadək dövrdə başa çatır (2018: 2019-cu ilin yanvar ayından 2031-ci ilin yanvar ayınadək dövrdə). 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə cəmi hesablanmış faiz 740,269 min AZN olmuşdur (2018: 555,575 min AZN). Bu qiymətli kağızlar həm birbaşa Fond, həm də Fondun xarici menecerləri olan DWS International GmbH və BYİB - Dünya Bankı Qrupu tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

Suveren istiqrazlar. Suveren istiqrazlar Avropa, Asiya, Avstraliya və Amerikada müxtəlif təşkilatlar tərəfindən buraxılmış borc qiymətli kağızlarına investisiyalarla təmsil olunur. 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə ildə 0.0% (Türk lirəsi və İngilis funt sterlinqi ilə ifadə edilən sıfır kuponlu istiqrazlar) - 11.75% müəyyən dərəcə ilə faiz hesablanır (2018: ildə 0.05% - 11.75% müəyyən dərəcə ilə faiz və ildə +1.20% geniş civarda olan EURIBOR) və müddəti 2020-ci ilin yanvar ayından 2029-cu ilin may ayınadək dövrdə başa çatır (2018: 2019-cu ilin yanvar ayından 2029-cu ilin sentyabr ayınadək dövrdə). 31 dekabr 2019-cu il tarixinə bu qiymətli kağızlar üzrə cəmi hesablanmış faiz 60,900 min AZN olmuşdur (2018: 31,060 min AZN). Bu qiymətli kağızlar həm birbaşa Fond, həm də Fondun xarici menecerləri olan DWS International GmbH və BYİB - Dünya Bankı Qrupu tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

Özəl Səhm Fondları

BMK-nın Fondları üç müstəqil investisiya fondundan ibarətdir: BMK-nın Qlobal İnfrastruktur Fondu (“IFC GIF”), BMK-nın Katalizator Fondu (“IFC CF”) və BMK-nın Afrika, Latın Amerikası və Karib Fondu (“IFC ALAC”).

“IFC GIF” inkişaf etməkdə olan bazarlarda infrastruktur investisiyaların müəyyən edilməsi, alınması, saxlanılması və silinməsi məqsədilə yaradılmışdır. Fondun “IFC GIF” qarşısında 200,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “IFC GIF”-dəki investisiyasının ədalətli dəyəri 144,707 min AZN (2018: 174,850 min AZN) təşkil etmişdir.

“IFC CF” inkişaf etməkdə olan bazarlarda məhdud tərəfdaşlıq, investisiya fondları və ya digər birgə investisiya vasitələrinin (“İnvestisiya Fondlarının”) ekvivalent paylarına sərmayə yatırılması və əsasən resursların səmərəli istifadəsinə və aşağı emissiyalı məhsul və xidmətlərin hazırlanmasına birgə investisiyaların yönəldilməsi məqsədilə yaradılmışdır. Fondun “IFC CF” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “IFC CF”-dəki investisiyasının ədalətli dəyəri 69,395 min AZN (2018: 53,845 min AZN) təşkil etmişdir.

“IFC ALAC” Afrika, Latın Amerikası və Karib regionlarında inkişaf investisiyalarının müəyyən edilməsi, alınması, saxlanılması və silinməsi məqsədilə yaradılmışdır. Fondun “IFC ALAC” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “IFC ALAC”-dakı investisiyasının ədalətli dəyəri 51,370 min AZN (2018: 60,035 min AZN) təşkil etmişdir.

“NB Caspian Partners” inkişaf etmiş bazarlarda əsasən “buy-out” fondlarına investisiya məqsədi ilə yaradılmış ayrıca idarə olunan Özəl Kapital mandatıdır. Fondun “NB Caspian Partners” qarşısında 300,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “NB Caspian Partners” mandatında investisiyasının ədalətli dəyəri 272,208 min AZN (2018: 183,129 min AZN) təşkil etmişdir.

“AYİB EPF” Mərkəzi və Şərqi Avropa, Aralıq Dənizi bölgəsi və Mərkəzi Asiyada AYİB-in səhmlərinə investisiya etmək məqsədilə AYİB tərəfindən yaradılmışdır. Fondun “AYİB EPF” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “AYİB EPF”-dəki investisiyasının ədalətli dəyəri 70,838 min AZN (2018: 62,956 min AZN) təşkil etmişdir.

“BC European Capital X” BC Partners şirkətinin əsasən Avropada dayanıqlı artım xüsusiyyətləri nümayiş etdirən böyük müəssisələrin alışı üzrə ixtisaslaşmış fondudur. Fondun “BC European Capital X” qarşısında 56,300 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “BC European Capital X”-dəki investisiyasının ədalətli dəyəri 82,523 min AZN (2018: 53,169 min AZN) təşkil etmişdir.

“FSI Orta Həcmli Şirkətlər Bazarının Artım Kapitalı Fondu” FSI tərəfindən İtaliyanın sənaye sektorunda və xidmət sahələrində orta biznesə investisiya etmək üçün yaradılmışdır. Fondun “FSI Orta Həcmli Şirkətlər Bazarının Artım Kapitalı Fondu” qarşısında 20,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “FSI Orta Həcmli Şirkətlər Bazarının Artım Kapitalı Fondundakı” investisiyasının ədalətli dəyəri 13,480 min AZN (2018: 9,002 min AZN) təşkil etmişdir.

“Blackstone Core Equity Partners L.P.” Blackstone Group-un əsasən Şimali Amerikada investisiya yatırımları sahəsində ixtisaslaşmış fondudur. Fondun “Blackstone Core Equity Partners L.P” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Blackstone Core Equity Partners L.P.”-dəki investisiyasının ədalətli dəyəri 75,255 min AZN (2018: 41,436 min AZN) təşkil etmişdir.

“Apollo Fund IX” Apollo şirkətinin əsasən Şimali Amerikada alışlar sahəsində ixtisaslaşmış fondudur. Fondun “Apollo Fund IX” qarşısında 85,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Apollo Fund IX”-dəki investisiyasının ədalətli dəyəri 23,674 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Carlyle Partners VII” Carlyle Group-un Şimali Amerikada böyük və iri həcmli əqdlər üzrə satınalma sahəsində ixtisaslaşmış fondudur. Fondun “Carlyle Partners VII” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Carlyle Partners VII”-dəki investisiyasının ədalətli dəyəri 18,566 min AZN (2018: 2,941 min AZN) təşkil etmişdir.

“Carlyle Europe Partners V” Carlyle Group-un Avropada investisiyalara yönəlmiş satınalma sahəsində ixtisaslaşmış fondudur. Fondun “Carlyle Partners V” qarşısında 50,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Carlyle Europe Partners V”-dəki investisiyasının ədalətli dəyəri 14,055 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Vista Equity Partners VII” Vista Equity Partners şirkətinin əsasən Şimali Amerika regionuna yönəlmiş texnoloji satı-

nalma fondudur. Fondun “Vista Equity Partners VII” qarşısında 40,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Vista Equity Partners VII”-dəki investisiyasının ədalətli dəyəri 16,012 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Warburg Pincus Global Growth” Warburg Pincus şirkətinin əsasən Şimali Amerika, Asiya və Avropada investisiyalara yönəlmiş diversifikasiya edilmiş inkişaf fondudur. Fondun “Warburg Pincus Global Growth” şirkəti qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Warburg Pincus Global Growth”-dakı investisiyasının ədalətli dəyəri 12,530 min AZN (2018: sıfır) təşkil etmişdir.

“PAG Asia Capital Fund III” PAG şirkətinin Asiya regionuna yönəlmiş satınalma fondudur. Fodnun “PAG Asia Capital Fund III” qarşısında 30,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “PAG Asia Capital Fund III”-dəki investisiyasının ədalətli dəyəri 2,771 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Thoma Bravo Fund XIII” Thoma Bravo şirkətinin Şimali Amerika regionna yönəlmiş texnoloji satınalma fondudur. Fondun “Thoma Bravo Fund XIII” qarşısında 25,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Thoma Bravo Fund XIII”-dəki investisiyasının ədalətli dəyəri 14,097 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Baring Private Equity Asia VII” Baring şirkətinin Asiya regionuna yönəlmiş satınalma fondudur. Fondun “Baring Private Equity Asia VII” qarşısında 50,000 ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Baring Private Equity Asia VII”-dəki investisiyasının ədalətli dəyəri 17,914 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Dyal Capital Partners IV” Dyal Capital Partners şirkətinin əsasən investisiya şirkətlərindəki azlıq təşkil edən səhmdarların payının əldə edilməsi üzrə ixtisaslaşmış fondudur. Fondun “Dyal Capital Partners IV” qarşısında 25,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Dyal Capital Partners IV”-dəki investisiyasının ədalətli dəyəri 2,865 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Cinven Fund VII” Cinven şirkətinin Avropa ölkələrində fəaliyyət göstərən şirkətlərə investisiyalar edən fondudur. Fondun “Cinven Fund VII” qarşısında 48,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə “Cinven Fund VII” Fonddan hələ kapital cəlb etməmişdir.

“Green Equity Investors VIII” Leonard Green & Partners şirkətinin Şimali Amerikada böyük və iri həcmli satınalma əqdlərinə investisiyalar edən fondudur. Fondun “Green Equity Investors VIII” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə “Green Equity Investors VIII” Fonddan hələ kapital cəlb etməmişdir.

“Brookfield Infrastructure Fund IV” Brookfield şirkətinin qlobal infrastruktur layihələrinə investisiya etmək üçün yaradılmış fondudur. Fondun “Brookfield Infrastructure Fund IV” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə “Brookfield Infrastructure Fund IV” Fonddan hələ kapital cəlb etməmişdir.

Daşınmaz Əmlak Fondları

Daşınmaz əmlak portfeli üzrə dolayı investisiyalar daşınmaz əmlak fonduna investisiyalardan və ortaq investisiyadan ibarətdir.

“AXA Pan European Value Added Venture” (PEVAV) Böyük Britaniya, Almaniya, Fransa, İspaniya, İtaliya, Niderland Krallığı, Polşa və Şimal/Skandinaviya regionu daxil olmaqla, Avropa ölkələrinə yönəlmiş “value-add” strategiyalarının həyata keçirilməsi üçün yaradılmışdır. Fondun “PEVAV” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “PEVAV”-dakı investisiyasının ədalətli dəyəri 82,407 min AZN (2018: 114,577 min AZN) təşkil etmişdir.

“PGIM European Value Partners” (EVP) əsasən Fransa, Almaniya, İtaliya və İspaniya daxil olmaqla Avrozona ölkələrində daşınmaz əmlakın alınması məqsədilə yaradılmış “value-add” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “EVP” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “EVP”-dəki investisiyasının ədalətli dəyəri 145,704 min AZN (2018: 149,296 min AZN) təşkil etmişdir.

“Blackstone Real Estate Partners Europe V” (BREP Europe V) opportunist daşınmaz əmlak fondudur və əsasən Böyük Britaniya, Almaniya, İspaniya və İtaliyada investisiyalar həyata keçirir. Fondun “BREP Europe V” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “BREP Europe V”-dəki investisiyasının ədalətli dəyəri 183,161 min AZN (2018: 121,223 min AZN) təşkil etmişdir.

“PAG Real Estate Partners” (PREP) Asiya-Sakit Okean regionunda əsasən Yaponiya, Çin və Avstraliya kimi ölkələrə yönəlmiş “core-plus” və “value-add” strategiyalı daşınmaz əmlaklara investisiya yatırımları etmək üçün yaradılmış fonddur. Fondun “PREP” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “PREP”-dəki investisiyasının ədalətli dəyəri 163,248 min AZN (2018: 155,509 min AZN) təşkil etmişdir.

”PGIM Asia Property Fund III” (ASPF III) əsasən Avstraliya, Çin, Yaponiya, Malaziya və Sinqapurdakı əsas bazarlarda “value-add” strategiyalı investisiyalar həyata keçirir. Fondun “ASPF III” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “ASPF III”-dəki investisiyasının ədalətli dəyəri 83,303 min AZN (2018: 111,452 min AZN) təşkil etmişdir.

”Redwood Japan Logistics Fund II” (RJLF II) əsasən Yaponiyada loqistika tipli daşınmaz əmlaka investisiya edən “inkişaf”/”opportunist” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “RJLF II” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “RJLF II”-dəki investisiyasının ədalətli dəyəri 189,352 min AZN (2018: 103,623 min AZN) təşkil etmişdir.

“Blackrock Europe Property Fund IV Feeder” (EPF IV Feeder) Avropa regionuna yönəlmiş “value-add” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “EPF IV Feeder” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “EPF IV Feeder”-dəki investisiyasının ədalətli dəyəri 63,889 min AZN (2018: 132,522 min AZN) təşkil etmişdir.

”Gaw Capital Gateway Real Estate Fund V” (GREF V) Asiya-Sakit Okean regionuna yönəlmiş “value-add” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “GREF V” qarşısında 34,100 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “GREF V”-dəki investisiyasının ədalətli dəyəri 50,932 min AZN (2018: 47,371 min AZN) təşkil etmişdir.

“GAW Capital US Fund III” (GAW US Fund III) Şimali Amerika regionunda daşınmaz əmlaka investisiya edən “value-add” strategiyalı investisiya fondudur. Fondun “GAW US Fund III” qarşısında 63,500 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “GAW US Fund III”-dəki investisiyasının ədalətli dəyəri 28,140 min AZN (2018: 8,174 min AZN) təşkil etmişdir.

”Walton Street Real Estate Fund VIII” (WSREF VIII) Walton Street Capital tərəfindən təsis edilmişdir. “WSREF VIII” ABŞ-a yönəlmiş “value-add”/”opportunist” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “WSREF VIII” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “WSREF VIII”-dəki investisiyasının ədalətli dəyəri 105,023 min AZN (2018: 110,612 min AZN) təşkil etmişdir.

“Angelo Gordon Commercial Real Estate Debt Opportunities” (AG CREDO) kommersiya təyinatlı ipoteka ilə təmin edilən qiymətli kağızlara və daşınmaz əmlakla bağlı digər investisiya kateqoriyalı borclara investisiyalar yatırır. “AG CREDO” daşınmaz əmlakla bağlı borc bazarlarına investisiya etmək üçün kommersiya daşınmaz əmlakın nəzarət və idarə olunmasında öz təcrübəsindən istifadə edir.

Fondun “AG CREDO” qarşısında 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “AG Commercial R.E Debt Fund”-dakı investisiyasının ədalətli dəyəri 91,016 min AZN (2018: 68,816 min AZN) təşkil etmişdir.

“Angelo Gordon Realty Value Fund X” (AG Realty X) Şimali Amerika, Avropa və Asiya-Sakit Okean regionuna investisiya yatırımları etmək üçün yaradılmış “value-add” strategiyalı investisiya fondudur. Fondun “AG Realty Value Fund” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “AG Realty Value Fund”-dakı investisiyasının ədalətli dəyəri 32,909 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Ares US Real Estate Fund IX” (Ares US IX) ABŞ regionuna yönəlmiş “core-plus”/“value-add” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “Ares US IX” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “Ares US IX”-dakı investisiyasının ədalətli dəyəri 89,712 min AZN (2018: 33,823 min AZN) təşkil etmişdir.

Fond “GAW Capital GREF V” (Sofiya) ilə Sinqapurda “value-add” strategiyalı müxtəlif təyinatlı birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 20,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu aktivdəki investisiyasının ədalətli dəyəri 31,553 min AZN (2018: 32,673 min AZN) təşkil etmişdir.

“Starwood Global Opportunity Fund XI” (SOF XI) əsasən Şimali Amerika və Avropaya yönəlmiş “value-add”/“opportunistic” daşınmaz əmlak strategiyalı qlobal fonddur. Fondun “SOF XI” qarşısında 200,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “SOF XI”-dəki investisiyasının ədalətli dəyəri 72,161 min AZN (2018: 14,408 min AZN) təşkil etmişdir.

“PAG Real Estate Partners II” (PREP II) Asiya və Sakit okean regionunda əsasən Yaponiya və Cənubi Koreyaya yönəlmiş “core-plus” / ”add-value” strategiyalı daşınmaz əmlaklara investisiya yatırımları etmək üçün yaradılmışdır. Fondun “PREP II” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “PREP II”-dəki investisiyasının ədalətli dəyəri 90,289 min AZN (2018: 15,891 min AZN) təşkil etmişdir.

“GreenOak US III” (GreenOak) Şimali Amerikaya investisiya yatırımları etmək üçün yaradılmış “value-add” strategiyalı investisiya fondudur. Fondun “GreenOak US III” qarşısında 100,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “GreenOak”-dakı investisiyasının ədalətli dəyəri 46,765 min AZN (2018: 19,401 min AZN) təşkil etmişdir.

Fond “PGIM European Value Partners” (Junghof) ilə Almaniyanın Frankfurt şəhərində müxtəlif təyinatlı ofis kompleksinə inkişaf strategiyalı birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 40,632 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyasının ədalətli dəyəri 99,330 min AZN (2018: 96,540 min AZN) təşkil etmişdir.

Fond “Gaw Capital GREF V” (Reine GK) ilə Yaponiyanın Yokohama şəhərində ofis kompleksinə “core-plus” strategiyalı birgə investisiya etmişdir. Fondun “Gaw Capital’s GREF V” qarşısında 20,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyadakı payının ədalətli dəyəri 58,192 min AZN (2018: 66,083 min AZN) təşkil etmişdir.

Fond “PGIM Asia Property Fund III” (GK Winchester) ilə Yaponiyanın Kyoto şəhərində otelin inkişafı layihəsinə “opportunistic” strategiyalı birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 2,134,000 min Yapon yeni məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyasının ədalətli dəyəri 46,136 min AZN (2018: 45,762 min AZN) təşkil etmişdir.

Fond “Blackrock Europe Property Fund IV Feeder” (Kustermann) ilə Almaniyanın Münhen şəhərində ofis kompleksinə birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 6,333 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyasının ədalətli dəyəri 307 min AZN (2018: 19,906 min AZN) təşkil etmişdir.

Fond “Walton Street Real Estate Fund VIII” (Walton NMA VIII) ilə Amerikanın Çikaqo şəhərində müxtəlif təyinatlı ofis kompleksinə birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 25,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyadakı payının ədalətli dəyəri 23,166 min AZN (2018: 37,197 min AZN) təşkil etmişdir.

Fond “GAW Capital GREF V” (Centurion II) ilə Çində logistika portfelinə inkişaf strategiyalı birgə investisiya etmişdir. Fondun bu investisiya ilə bağlı 60,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyadakı payının ədalətli dəyəri 43,599 min AZN (2018: 18,696 min AZN) təşkil etmişdir.

Fond “GAW Capital GREF V” (Doris) ilə Honq Konqda riteyl portfelinə “value-add” strategiyalı birgə investisiya etmişdir. Fondun bu investisiya ilə əlaqədar 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyadakı payının ədalətli dəyəri 99,104 min AZN (2018: 88,543 min AZN) təşkil etmişdir.

“Blackstone Real Estate Partners Europe VI” (BREP Europe VI) opportunist daşınmaz əmlak fondudur və əsasən Böyük Britaniya, Almaniya, İspaniya və İtaliyada investisiyalar həyata keçirir. Fondun “BREP Europe VI” qarşısında 150,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “BREP Europe VI”-dakı investisiyasının ədalətli dəyəri 8,516 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Blackstone Property Partners U.S.” (BPP U.S.) Şimali Amerikaya investisiya etmək üçün yaradılmış “core-plus” strategiyalı investisiya fondudur. Fondun “BPP U.S.” qarşısında 200,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “BPP U.S.”-dəki investisiyasının ədalətli dəyəri 340,000 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Fonciere LFPI Europe” (FLE) 2005-ci ildə yaradılmışdır. Fond Avropa və ABŞ-da kommersiya təyinatlı daşınmaz əmlaklara “core” və “core-plus” strategiyalı investisiyalar edir. Fondun “FLE” qarşısında Məhdud Məsuliyyətli Tərəfdaş kimi 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “FLE”-dəki investisiyasının ədalətli dəyəri 193,473 min AZN (2018: sıfır) təşkil etmişdir.

“Gaw Capital Gateway Real Estate Fund VI” (GREF VI) 2018-ci ildə yaradılmışdır və Asiya-Sakit Okean regionunda kommersiya təyinatlı daşınmaz əmlaklara investisiyalar edir. Fondun “GREF VI” qarşısında Məhdud Məsuliyyətli Tərəfdaş kimi 50,000 min ABŞ dolları məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “GREF VI”-dakı investisiyasının ədalətli dəyəri 31,508 min AZN (2018: sıfır) təşkil etmişdir.

Fond 2019-cu ildə “Gaw Capital US Fund III” (H&H Retail) ilə Los-Anceles riteyl aktivə birgə investisiya yatırılmasına dair razılaşma əldə etmişdir. Fondun bu birgə investisiyadakı payı 50,000 min ABŞ dolları təşkil edir. 31 dekabr 2019-cu il tarixinə Fondun bu birgə investisiyadakı payının ədalətli dəyəri 85,000 min AZN (2018: sıfır) təşkil etmişdir.

“PGIM European Value Partners II” (EVP II) əsasən Fransa, Almaniya, İtaliya, İspaniya və Böyük Britaniyanın böyük şəhərləri daxil olmaqla Avrozona və Böyük Britaniyada daşınmaz əmlakın alınması məqsədilə yaradılmış “value-add” strategiyalı daşınmaz əmlak fondudur. Fondun “EVP II” qarşısında 100,000 min Avro məbləğində öhdəliyi var. 31 dekabr 2019-cu il tarixinə Fondun “EVP II”-dəki investisiyasının ədalətli dəyəri 30,770 min AZN (2018: sıfır) təşkil etmişdir.

Səhmlər. 31 dekabr 2019 və 2018-ci il tarixinə səhmlərin balans dəyəri aşağıdakı sektorlara investisiya qoyuluşlarından ibarət olmuşdur:

Min Azərbaycan manatı ilə	2019	2018
Maliyyə	2,008,941	1,540,246
İstehlak	1,579,207	1,269,618
Telekommunikasiya və informasiya texnologiyaları	1,658,757	1,180,019
Sənaye	742,331	553,239
Səhiyyə	1,014,436	805,766
Enerji	361,260	333,706
Materiallar	393,596	324,617
Kommunal xidmətlər	277,865	222,541
Cəmi səhmlər	**8,036,393**	**6,229,752**

Bu qiymətli kağızlar həm birbaşa Fond, həm də Fondun xarici menecerləri olan SSGA, UBS Asset Management (UK) LTD, Blackrock Investment Management, Mellon Capital Management Corporation və Sumitomo Mitsui Trust International LTD. tərəfindən idarə olunan portfeldə saxlanılmışdır.

FVTPL kateqoriyasında ölçülən aktivlər ədalətli dəyərlə uçota alınır və kredit riski ilə bağlı dəyərsizləşməni özündə əks etidirir. Bu səbəbdən, Fond dəyərsizləşmə əlamətlərini təhlil etmir və ya onlara nəzarət etmir.

31 dekabr 2019-cu il tarixinə ticarət üçün borc qiymətli kağızların kredit keyfiyyətinə görə təhlili aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan manatı ilə	Agentlik/Beynəlmiləl qurumların istiqrazları	Korporativ istiqrazlar	Suveren istiqrazlar	Pul bazarı alətləri	Cəmi
Vaxtı keçməmiş və dəyərsizləşməmiş (ədalətli dəyərlə)					
AAA	6,677,835	616,510	8,266,609	-	15,560,954
AA	1,634,410	2,186,774	656,401	168,852	4,646,437
A	975,204	7,897,721	962,979	401,650	10,237,554
BBB	6,186	5,417,770	1,957,597	571,103	7,952,656
BB	-	7,644,475	-	-	7,644,475
B	-	1,436,610	585,603	-	2,022,213
D	-	913	-	-	913
Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş	**9,293,635**	**25,200,773**	**12,429,189**	**1,141,605**	**48,065,202**
Cəmi ticarət üçün borc qiymətli kağızlar	**9,293,635**	**25,200,773**	**12,429,189**	**1,141,605**	**48,065,202**

31 dekabr 2018-ci il tarixinə ticarət üçün borc qiymətli kağızların kredit keyfiyyətinə görə təhlili aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan manatı ilə	Agentlik/Beynəlmiləl qurumların istiqrazları	Korporativ istiqrazlar	Suveren istiqrazlar	Pul bazarı alətləri	Cəmi
Vaxtı keçməmiş və dəyərsizləşməmiş (ədalətli dəyərlə)					
AAA	8,716,172	637,696	771,830	853,296	10,978,994
AA	2,817,198	2,829,308	174,590	674,836	6,495,932
A	1,435,871	11,404,024	905,617	2,445,253	16,190,765
BBB	112,983	7,029,145	465,111	96,846	7,704,085
BB	-	5,450,817	598,500	-	6,049,317
B	-	1,432,592	-	-	1,432,592
D	-	3,377	-	-	3,377
Cəmi vaxtı keçməmiş və dəyərsizləşməmiş	**13,082,224**	**28,786,959**	**2,915,648**	**4,070,231**	**48,855,062**
Cəmi ticarət üçün borc qiymətli kağızlar	**13,082,224**	**28,786,959**	**2,915,648**	**4,070,231**	**48,855,062**

Kredit reytinqləri Standard & Poor's agentliyinin reytinqlərinə (belə reytinqlərin mövcud olduğu halda) və ya Standard & Poor's reytinq şkalası üzrə ən yaxın ekvivalentə çevrilmiş Moody's və ya Fitch reytinqlərinə əsaslanır. Borc qiymətli kağızlar üçün təminat verilmir.

9. Qızıl külçələr

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 1 mart 2005-ci il tarixli 202 nömrəli Fərmanı, 10 fevral 2010-cu il tarixli 216 nömrəli Fərmanı, 27 oktyabr 2011-ci il tarixli 519 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi Qaydaları"na uyğun olaraq London Qiymətli Metallar Bazarı Assosiasiyasının tələblərinə uyğun qızıl külçələr Fondun investisiya portfelinə daxil edilə bilər.

Qızıl külçələrin hərəkəti aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan manatı ilə	2019	2018
1 yanvar tarixinə ilkin qalıq	**3,558,246**	**2,137,212**
Əlavələr	3,628,327	1,388,537
Qızıl külçələrin ədalətli dəyərlə yenidən qiymətləndirilməsindən xalis gəlir	1,194,590	32,497
31 dekabr tarixinə yekun qalıq	**8,381,163**	**3,558,246**

10. İnvestisiya mülkiyyəti

İnvestisiya mülkiyyətinin hərəkəti aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan manatı ilə	2019	2018
1 yanvar tarixinə investisiya mülkiyyətinin ədalətli dəyəri	**2,584,684**	**2,763,757**
Əlavələr	10,093	6,863
Silinmələr	(213,099)	-
İstifadə hüquqlu aktiv	78,245	-
Ədalətli dəyərlə yenidən qiymətləndirmə üzrə gəlir/(zərər)	64,971	(108,674)
Təqdimat valyutasına çevrilmənin təsiri	(7,675)	(77,262)
31 dekabr tarixinə investisiya mülkiyyətinin ədalətli dəyəri	**2,517,219**	**2,584,684**

İnvestisiya mülkiyyəti Moskvanın mərkəzi inzibati dairəsində "Tverskaya 16" ünvanında yerləşən "Gallery Actor" müxtəlif təyinatlı ofis-ticarət mərkəzi, London, 78 St James Street ünvanında yerləşən müxtəlif təyinatlı ofis kompleksi, Parisin «8 Place Vendome» ünvanında yerləşən ofis, ticarət və yaşayış kompleksi, Seulda yerləşən "Pine Avenue Tower A" kompleksi və Tokioda yerləşən "Kirarito Ginza" ticarət kompleksindən ibarətdir. Bütün daşınmaz əmlaklar kommersiya şərtləri ilə icarəyə verilmişdir.

31 dekabr 2019-cu il tarixinə investisiya mülkiyyəti səlahiyyət verilmiş müstəqil qiymətləndiricilər (akkreditə olunmuş qiymətləndirmə şirkətləri) tərəfindən həyata keçirilmiş qiymətləndirmələr əsasında müəyyən edilmiş ədalətli dəyərlə uçota alınır. Qiymətləndiricilər bu kateqoriyadan olan investisiya əmlakının qiymətləndirilməsi sahəsində tanınmış mütəxəssislərdir. Ədalətli dəyər aktivlərin qiymətləndirmə tarixində yaxşı məlumatlandırılmış və belə əməliyyatı həyata keçirməkdə maraqlı olan alıcı və satıcı arasında kommersiya cəhətdən müstəqil əməliyyatlarda mübadilə edilə bilən məbləği nəzərdə tutur. Əmlakın ədalətli dəyəri əsasən müqayisə edilə bilən əmlakın qiyməti, bazar məlumatı, diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti metodu (gəlir yanaşması) və cari bazar səviyyələri üzrə məsləhətlər vermiş səlahiyyətli müstəqil qiymətləndiricilərin ekspert rəyindən istifadə etməklə müəyyən olunmuşdur.

31 dekabr 2019-cu il tarixinə 1,736,537 min AZN (2018: 1,681,450 min AZN) dəyərində investisiya mülkiyyəti borc ilə əlaqədar olaraq üçüncü tərəflərə girov qoyulmuşdur. Qeyd 13-ə baxın.

Fond icarə alan qismində çıxış etdiyi hallarda, vaxtından əvvəl ləğv oluna bilməyən əməliyyat icarəsi müqavilələrinə əsasən əldə ediləcək gələcək minimal icarə ödənişləri aşağıda göstərilir:

Min Azərbaycan manatı ilə	2019	2018
1 il ərzində	56,824	78,349
1 ildən 5 ilə qədər	132,983	220,947
5 ildən artıq	2,019	43,363
31 dekabr tarixinə cəmi əldə ediləcək gələcək minimal icarə ödənişləri	**191,826**	**342,659**

İnvestisiya mülkiyyətlərinin ədalətli dəyərindəki dəyişikliklər aşağıdakı cədvəllərdə ətraflı təhlil edilir:

İnvestisiya mülkiyyəti	Ədalətli dəyər 2019	Ədalətli dəyərin dəyişməsi	Təqdimat valyutasına çevrilmənin effekti	Əlavələr	Silinmələr	İstifadə hüquqlu aktiv	Ədalətli dəyər 2018
"78 St James Street", London	329,795	(16,041)	8,849	8,208	-	70,431	258,348
"Gallery Actor", Moskva	91,358	1,139	9,552	575	-	-	80,092
"SCI 8 Place Vendome", Paris	359,529	4,361	(8,056)	896	-	-	362,328
"Pine Avenue Tower A", Seul	819,378	61,114	(25,812)	-	-	-	784,076
"Kirarito Ginza" , Tokio	917,159	(823)	12,381	414	-	7,814	897,373
"Palazzo Turati", Milan	-	15,221	(4,589)	-	(213,099)	-	202,467
	2,517,219	**64,971**	**(7,675)**	**10,093**	**(213,099)**	**78,245**	**2,584,684**

İnvestisiya mülkiyyəti	Ədalətli dəyər 2018	Ədalətli dəyərin dəyişməsi	Təqdimat valyutasına çevrilmənin effekti	Əlavələr	Ədalətli dəyər 2017
"78 St James Street", London	258,348	(162,885)	(17,635)	4,129	434,739
"Gallery Actor", Moskva	80,092	(4,026)	(16,641)	577	100,182
"SCI 8 Place Vendome", Paris	362,328	9,912	(15,481)	1,356	366,541
"Pine Avenue Tower A", Seul	784,076	24,913	(35,339)	-	794,502
"Kirarito Ginza" , Tokio	897,373	14,582	16,455	801	865,535
"Palazzo Turati", Milan	202,467	8,830	(8,621)	-	202,258
	2,584,684	**(108,674)**	**(77,262)**	**6,863**	**2,763,757**

78 Saint James ünvanında yerləşən Unit Trestinin təsis edilməsi ("Unit Tresti")

Unit Tresti 22 noyabr 2012-ci ildə Trest Sənədinin müddəasına uyğun olaraq təsis edilmişdir. SOFAZ RE Limited, SOFAZ RE UK L.P. müəssisəsinin əsas partnyoru olaraq, Unit Trestində 99%-lik iştirak payına malikdir. SOFAZ RE Min Limited Unit Trestində 1%-lik iştirak payına malikdir. SOFAZ RE Limited, SOFAZ RE UK L.P. və SOFAZ RE Min Limited müəssisələrinin yekun mülkiyyətçisi Azərbaycan Dövlət Neft Fondudur. Unit Tresti Böyük Britaniyada yerləşən daşınmaz əmlaka investisiyalar edir və 78 Saint James ünvanında yerləşən ofis kompleksinə sahibdir. Unit Trestin təsis edildiyi, rezident olduğu və daim yerləşdiyi yer Cersi, Kanal adalarıdır. 2019-cu il ərzində Unit Tresti ofis kompleksinin yenidən qurulması ilə əlaqədar olaraq icarə gəliri əldə edilməmişdir (2018: 93,978 min AZN) və 19,689 min AZN məbləğində zərər (2018: 72,681 min AZN məbləğində zərər) Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 16,041 min AZN məbləğində ədalətli dəyər üzrə azalma (2018: 162,885 min AZN məbləğində azalma) daxildir).

"Tverskaya 16" JSC-nin alınması

21 dekabr 2012-ci il tarixində ARDNF "Tverskaya 16" JSC-də səsvermə səhmlərinin 100%-ni əldə etmişdir. Onun əsas fəaliyyəti Rusiyada, Moskvanın mərkəzi biznes rayonunda yerləşən "Gallery Actor" ofis-ticarət mərkəzinin idarə edilməsidir. 2019-cu il ərzində "Tverskaya 16" JSC-dan əldə edilmiş 8,300 min AZN (2018: 8,764 min AZN) məbləğində icarə gəliri və 4,600 min AZN məbləğində mənfəət (2018: 815 min AZN məbləğində zərər) Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 1,139 min AZN məbləğində ədalətli dəyər üzrə artım (2018: 4,026 min AZN məbləğində azalma) daxildir).

"SCI 8 Place Vendome" şirkətinin təsis edilməsi

19 mart 2013-cü il tarixində Fond "xüsusi məqsədli müəssisə" vasitəsilə "AXA Real Estate" şirkətindən Parisin Vandom Meydanı 8 ünvanında yerləşən, dəyəri 135,000 min Avro olan "SCI 8 Place Vendome" müxtəlif təyinatlı ofis, ticarət və yaşayış kompleksini satın almışdır. "SCI 8 Place Vendome" şirkəti Fondun Fransada mülki ortaqlıq kimi təsis edilmiş və hüquqi ünvanı "6 place de Madeleine" olan dolayı törəmə müəssisəsidir. Fond "SCI 8 Place Vendome" şirkətini iki Lüksemburq şirkəti (Luxcos) vasitəsilə idarə edir: SOFAZ RE Fund S.a.r.l. - 100% "SOFAZ RE Europe Holding S.a.r.l." şirkətinin mülkiyyətində olan, nizamnamə kapitalı 12,500 Avro təşkil edən, hüquqi ünvanı Lüksemburqda yerləşən və "SCI 8 Place Vendome" şirkətində 0.1%-lik iştirak payı olan özəl məhdud şirkət və SOFAZ RE Europe S.a.r.l. - 100% "SOFAZ RE Europe Holding S.a.r.l." şirkətinin mülkiyyətində olan, nizamnamə kapitalı 12,500 Avro təşkil edən, hüquqi ünvanı Lüksemburqda yerləşən və "SCI 8 Place Vendome" şirkətində 99.9%-lik iştirak payı olan özəl məhdud şirkət. 2019-cu il ərzində "SCI 8 Place Vendome" şirkətindən əldə edilmiş 10,503 min AZN (2018: 10,701 min AZN) icarə gəliri və 8,850 min AZN (2018: 14,645 min AZN məbləğində mənfəət) məbləğində mənfəət Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 4,361 min AZN məbləğində ədalətli dəyər üzrə artım (2018: 9,912 min AZN məbləğində artım) daxildir).

"Payn Avenyu A qülləsi" kompleksinin alınması

31 mart 2014-cü il tarixində ARDNF "Mirae Asset Management"-dən Daşınmaz Əmlak Fondu Strukturunda Benefisiar Sertifikatların ("BS") 100%-lik payını əldə etməklə, Cənubi Koreyanın Seul şəhərində dəyəri 469,007 milyon Cənubi Koreya vonu (346,250 min AZN) olan "Payn Avenyu A qülləsi" kompleksinin alışını yekunlaşdırmışdır. 2019-cu il ərzində "Payn Avenyu A qülləsi" kompleksindən əldə edilmiş 24,337 min AZN məbləğində icarə gəliri (2018: 20,886 min AZN) və 71,930 min AZN məbləğində mənfəət (2018: 38,775 min AZN məbləğində mənfəət) Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 61,114 min AZN məbləğində ədalətli dəyər üzrə artım (2018: 24,913 min AZN məbləğində artım) daxildir).

"Kirarito Ginza" ticarət kompleksinin təsis edilməsi

21 avqust 2016-cı il tarixində ARDNF Tokumei Kumiai («TK») sazişi çərçivəsində fəaliyyət göstərən operator şirkətinə 51,989 milyon Yapon yeni məbləğində (455,736 min AZN) investisiya etmişdir. Bu investisiyanın 98%-i Operator Şirkətinin kapitalı hesabına formalaşır, 2%-i isə Aktivlərin İdarəedilməsi Menecerləri adından çıxış edən PGIM Real Estate (Yaponiya) şirkətinə məxsusdur. ARDNF Operator Şirkətinə yatırılmış bu investisiyanı (pul vəsaitlərindən istifadə hüququnu) istənilən vaxt satmaq hüququna malikdir. Operator Şirkəti investorlardan əldə etdiyi vəsait hesabına Tokio şəhərinin Ginza rayonunda yerləşən ticarət obyekti kimi fəaliyyət göstərən daşınmaz əmlak üçün investisiyanın alınması ilə bağlı xərclər daxil olmaqla, 52,434 milyon Yapon yeni məbləğində (459,633 min AZN) sərmayə yatırmışdır. Ətraflı məlumat üçün qeyd 25-ə baxın.

2019-cu il ərzində "Kirarito Ginza" ticarət kompleksindən əldə edilmiş 25,196 min AZN (2018: 23,081 min AZN) məbləğində icarə gəliri və 18,927 min AZN məbləğində mənfəət (2018: 24,498 min AZN məbləğində mənfəət) Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 823 min AZN məbləğində ədalətli dəyər üzrə azalma (2018: 14,582 min AZN məbləğində artım) daxildir).

"Palazzo Turati" ofis binasının təsis edilməsi

2016-cı ilin may ayında Fond Milan şəhərində yerləşən və dəyəri 97 milyon Avro təşkil edən Palazzo Turati ofis binasının satın alınmasına dair razılıq əldə etmişdir. Bu investisiyanı almaq üçün Fond 100% onun nəzarətində olan Daşınmaz Əmlak İnvestisiya Fondunu (REIF) təsis etmişdir. Fond Lüksemburqda yerləşən törəmə müəssisəsi - SOFAZ RE Europe S.a.r.l. vasitəsilə REIF-ə investisiya etmişdir. Daşınmaz əmlak 23 iyul 2019-cu il tarixində satılmışdır. Satış tarixinə qədər Palazzo Turati ofis binasından əldə edilmiş 7,389 min AZN (2018: 9,827 min AZN) məbləğində icarə gəliri və 19,874 min AZN məbləğində mənfəət (2018: 17,203 min AZN məbləğində mənfəət) Fondun vergidən əvvəlki xalis mənfəətinə/(zərərinə) yönəldilmişdir (xalis mənfəətə 15,221 min AZN məbləğində ədalətli dəyər üzrə artım (2018: 8,830 min AZN məbləğində artım) daxildir).

11. Birgə müəssisələrə investisiyalar

Fondun birgə müəssisələrə investisiyalarının balans dəyərinin hərəkəti aşağıdakı cədvəldə göstərilir.

Min Azərbaycan manatı ilə	2019	2018
1 yanvar tarixinə balans dəyəri	**1,167,214**	**979,598**
Birgə müəssisələrə investisiyalara əlavələr	-	151,646
Birgə müəssisə tərəfindən geri ödənilmiş capital	(76,500)	-
Birgə müəssisələrin vergidən sonrakı maliyyə nəticələrində pay	(22,056)	38,887
Birgə müəssisədən daxil olmuş dividendlər	(19,053)	-
Sair məcmu gəlirdə tanınan məzənnə fərqi üzrə zərər	(2,406)	(2,917)
31 dekabr tarixinə balans dəyəri	**1,047,199**	**1,167,214**

21 iyun 2013-cü il tarixində Caspian Drilling Company (90% iştirak payı) və SOCAR (10% iştirak payı) birgə «SOCAR Rig Assets» MMC-ni təsis etmişdir. «SOCAR Rig Assets» MMC-nin nizamnamə kapitalı 1,000 AZN həcmində müəyyən edilmişdir (hər bir səhmin nominal dəyəri 10 AZN olmaqla, 100 səhm). Müəssisənin əsas fəaliyyəti Xəzər dənizində əməliyyatların aparılması üçün altıncı nəsil yarımdalma qazma qurğusunun tikintisini səhmdarların müvafiq paylarına proporsional olaraq maliyyələşdirməkdən ibarətdir. 5 iyul 2013-cü il tarixində Fond «SOCAR Rig Assets" MMC-nin bütün səhmlərini "Caspian Drilling" şirkətindən nominal dəyərlə əldə etmişdir. Fond tərəfindən satın alınmazdan əvvəl «SOCAR Rig Assets» MMC hər hansı fəaliyyət həyata keçirməmişdir. Satınalmadan sonra «SOCAR Rig Assets" MMC-nin adı dəyişilərək "Azerbaijan Rigs" MMC adlandırılmışdır. 2019-cu il ərzində bu müəssisəyə əlavə kapital qoyuluşu yönəldilməmişdir (2018: sıfır). Satın alınan müəssisənin fəaliyyəti ilə bağlı bütün strateji maliyyə və əməliyyat qərarları hər iki səhmdarın birgə razılığı ilə qəbul olunur. Bu birgə müəssisənin maliyyə nəticələri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında pay iştirakı üzrə uçot metoduna əsasən tanınır.

"Capitals Property S.a.r.l" Böyük Lüksemburq Hersoqluğunun qanunvericiliyinə uyğun olaraq özəl məhdud məsuliyyətli cəmiyyət kimi 29 yanvar 2018-ci il tarixində "Capitals Holding S.a.r.l" tərəfindən təsis edilmişdir. Təsis edildiyi zaman "SOFAZ RE Fund S.a.r.l" və "Capitals Holding S.a.r.l" hər biri yeni yaradılan şirkətdə 12,000 Avro dəyərində 50% iştirak payına sahib olmuşdur (səhmlərin hər birinin nominal dəyəri 1 avro olmaqla, 12,000 ədəd səhm). 21 sentyabr 2018-ci il tarixində "Capitals Holding S.a.r.l" 2,400 ədəd, "SOFAZ R.E Fund S.a.r.l" isə 1,200 ədəd səhmi "Mainz International Holdings S.a.r.l."-ə köçürmüşdür. Nəticədə, səhmdarların iştirak payı aşağıdakı kimi olmuşdur: "SOFAZ RE Fund S.a.r.l" - 40% (4,800 ədəd səhm), "Capitals Holding S.a.r.l" - 30% (3,600 ədəd səhm), "Mainz International Holdings S.a.r.l" - 30% (3,600 ədəd səhm). Yeni yaradılan şirkətin əsas fəaliyyəti səhmdarların müvafiq iştirak paylarındakı maliyyələşdirmə və bank krediti hesabına daşınmaz əmlak biznesindən ibarətdir. 2019-cu il ərzində bu müəssisəyə əlavə kapital qoyuluşu yönəldilməmişdir (2018: 151,646 min AZN). Satın alınan müəssisənin fəaliyyəti ilə bağlı bütün strateji maliyyə və əməliyyat qərarları səhmdarların birgə razılığı ilə qəbul olunur. Birgə müəssisənin maliyyə nəticələri hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında pay iştirakı üzrə uçot metoduna əsasən tanınır.

31 dekabr 2019-cu il tarixinə Fondun birgə müəssisələrindəki iştirak payı və həmin müəssisələrin maliyyə göstəriciləri, o cümlədən aktivləri, öhdəlikləri, gəlirləri, mənfəət və ya zərəri haqqında qısa məlumat aşağıda təqdim edilir:

Adı	Qısa-müddətli aktivlər	Uzun-müddətli aktivlər	Qısa-müddətli öhdəliklər	Uzun-müddətli öhdəliklər	Gəlir	Sair gəlirlər	Xərclər	Mənfəət/ (zərər)	İştirak payı (%)	Təsis edildiyi ölkə
"Azerbaijan Rigs" MMC	84,127	939,116	(9,144)	(18,820)	97,872	255	(124,342)	(26,215)	90%	Azərbaycan
"Capitals Property SARL" MMC	52,655	952,421	(3,126)	(629,343)	37,338	1,230	(34,724)	3,844	40%	Lüksemburq

31 dekabr 2018-ci il tarixinə Fondun birgə müəssisələrindəki iştirak payı və həmin müəssisələrin maliyyə göstəriciləri, o cümlədən aktivləri, öhdəlikləri, gəlirləri, mənfəət və ya zərəri haqqında qısa məlumat aşağıda təqdim edilir:

Adı	Qısa-müddətli aktivlər	Uzun-müddətli aktivlər	Qısa-müddətli öhdəliklər	Uzun-müddətli öhdəliklər	Gəlir	Sair gəlirlər	Xərclər	Mənfəət/ (zərər)	İştirak payı (%)	Təsis edildiyi ölkə
"Azerbaijan Rigs" MMC	113,803	1,029,247	(7,514)	(7,872)	88,874	537	(50,189)	39,222	90%	Azərbaycan
"Capitals Property SARL" MMC	39,079	993,048	(4,051)	(647,287)	30,785	635	(22,453)	8,967	40%	Lüksemburq

Yuxarıda göstərilən ümumiləşdirilmiş maliyyə məlumatlarının birgə müəssisələrdəki iştirak paylarının balans dəyəri ilə üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

	"Azerbaijan Rigs" MMC		"Capitals Property SARL" MMC	
	2019	2018	2019	2018
Dövrün əvvəlinə xalis aktivlər	**1,127,664**	**1,088,442**	**380,789**	**-**
Kapital artımı	-	-	-	371,822
Dövr üzrə mənfəət/(zərər)	(26,215)	39,222	3,844	8,967
Ödənilmiş dividendlər	(21,170)	-	-	-
Nizamnamə kapitalında azalma	(85,000)	-	-	-
Təqdimat valyutasına çevrilmə	-	-	(6,013)	-
Dövrün sonuna xalis aktivlər	**995,279**	**1,127,664**	**378,620**	**380,789**
Fondun payı %-lə	90%	90%	40%	40%
Fondun payı	895,751	1,014,898	151,448	152,316
İnvestisiyanın balans dəyəri	**895,751**	**1,014,898**	**151,448**	**152,316**

12. Kapital qoyuluşları

Fonda daxil olmuş vəsaitlərin hərəkəti aşağıdakı kimi olmuşdur:

Min Azərbaycan manatı ilə	2019	2018
Neftin və qazın satışından əldə olunan vəsaitlər	14,614,709	16,645,569
Bonuslar	766,351	765,228
Boru kəməri tranzit tarifləri	18,938	18,103
Akrhesabı ödənişlər	4,692	4,147
Digər	-	20
Cəmi kapital qoyuluşları	**15,404,690**	**17,433,067**

13. Uzunmüddətli öhdəliklər

Min Azərbaycan manatı ilə	2019	2018
Müddətli kredit Godo Kaisha (GK001 - Tokio, Yaponiya)	487,066	479,681
Müddətli kredit MAPS 21 (Mirae Asset Securities)	441,000	456,300
Zəmanət depozitləri	49,302	48,414
Təxirə salınmış vergi öhdəlikləri	15,894	13,780
İcarə öhdəlikləri	77,792	-
Cəmi uzunmüddətli öhdəliklər	**1,071,054**	**998,175**

Zəmanət depozitləri Tokio şəhərində yerləşən "Kirarito Ginza" ticarət kompleksi üçün icarədarlar tərəfindən ödənilmiş 20,307 min AZN (2018: 20,228 min AZN), Seul şəhərində yerləşən "Pine Avenue Tower A" kompleksi üçün ödənilmiş 26,792 min AZN (2018: 26,434 min AZN) və Paris şəhərində yerləşən «SCI 8 Place Vendome» kompleksi üçün ödənilmiş 2,204 min AZN (2018: 1,751 min AZN) məbləğində qabaqcadan ödənişlərdən ibarətdir.

Müddətli kreditlər Yapon yeni ilə ifadə olunmuş Godo Kaisha GK001 krediti ("Kirarito Ginza") və Koreya vonu ilə ifadə olunmuş MAPS 21 ("Pine Avenue Tower A") kreditindən ibarətdir. Godo Kaisha GK001 kreditinin müddəti 9 sentyabr 2024-cü ilə qədərdir və kupon dərəcəsi illik 0.81% (2018: 0.81%) təşkil edir. Həmin kredit üçün investisiya mülkiyyəti girov qoyulmuşdur. MAPS 21 kreditinin müddəti 2023-cü ilin iyun ayında qədərdir və kupon dərəcəsi illik 3.6% (2018: 3.6%) təşkil edir. Bu kredit üçün investisiya mülkiyyəti girov qoyulmuşdur. Qeyd 10-a baxın.

Fond hedcinq uçotu aparmır və xarici valyuta öhdəlikləri və ya faiz dərəcələrinin dəyişməsi riskləri ilə bağlı hər hansı hedcinq əməliyyatı həyata keçirməmişdir.

Cari borcların ədalətli dəyəri diskontlaşdırmanın təsiri əhəmiyyətli olmadığına görə təxminən onların balans dəyərinə bərabərdir. Ədalətli dəyər Godo Kaisha GK001 krediti üçün 0.81% (2018: 0.81%), MAPS 21 krediti üçün isə 3.6% (2018: 3.6%) ilə diskontlaşdırılmış nağd pul axınlarına əsasən müəyyən edilir. Bu kreditlər ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilir.

Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərdə dəyişikliklər

Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklərin təhlili və təqdim olunan hər bir dövr üzrə Fondun belə öhdəliklərində dəyişikliklər aşağıdakı cədvəldə göstərilir. Bu öhdəliklər pul vəsaitlərinin hərəkəti haqqında hesabatda maliyyələşdirmə fəaliyyətinin tərkibində qeydə alınır:

	Maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər
	Borclar
1 yanvar 2018-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**469,979**
Nağd pul axınları	456,300
Məzənnə fərqi üzrə düzəlişlər	9,702
31 dekabr 2018-ci il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**935,981**
Məzənnə fərqi üzrə düzəlişlər	(7,915)
31 dekabr 2019-cu il tarixinə maliyyələşdirmə fəaliyyətindən yaranan öhdəliklər	**928,066**

14. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivləri üzrə faiz gəliri

Min Azərbaycan manatı ilə	2019	2018
Dövlət istiqrazları	124,380	60,193
Agentlik istiqrazları	260,072	233,421
Korporativ istiqrazlar	538,086	546,902
Cəmi faiz gəliri	**922,538**	**840,516**

15. Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqi

Xarici valyuta əməliyyatları üzrə xalis məzənnə fərqləri aşağıdakılardan ibarətdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqindən reallaşdırılmamış xalis zərər	(496,576)	(1,375,080)
Xarici valyuta əməliyyatları üzrə məzənnə fərqindən reallaşdırılmış xalis zərər	(27,691)	(36,157)
Cəmi xarici valyuta əməliyyatları üzrə məzənnə fərqindən xalis zərər	**(524,267)**	**(1,411,237)**

16. Mənfəət və ya zərər hesablarında ədalətli dəyərlə ölçülən maliyyə aktivlərinin yenidən qiymətləndirilməsi üzrə xalis (zərər)/gəlir

FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri üzrə xalis gəlir/(zərər) aşağıdakılardan ibarətdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Ədalətli dəyər düzəlişi üzrə reallaşdırılmamış gəlir/(zərər)	2,164,974	(999,149)
Ticarət əməliyyatları üzrə reallaşdırılmış gəlir	80,317	151,640
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri üzrə xalis gəlir/(zərər)	**2,245,291**	**(847,509)**

17. Əməliyyat xərcləri

Əməliyyat xərcləri aşağıdakılardan ibarətdir:

Min Azərbaycan manatı ilə	2019	2018
Aktivlərin idarə edilməsi haqları	2,850	2,887
Törəmə müəssisələrin əməliyyat xərcləri	73,281	54,779
Əmək haqqı, məvaciblər və işçilərə müavinətlər	6,755	6,813
DSMF-ə ayırmalar	1,447	1,423
Bank komisyon haqları	2,687	2,575
Amortizasiya xərcləri	6,226	8,478
Qısamüddətli lisenziya haqqı	3,865	4,735
Rabitə xərcləri	61	86
Sair əməliyyat xərcləri	6,265	21,737
Cəmi əməliyyat xərcləri	**103,437**	**103,513**

18. Fond tərəfindən köçürmələr

2019-cu il ərzində Dövlət Büdcəsinə, habelə, dövlət təşkilatlarına, dövlətə məxsus müəssisələrə və şirkətlərə köçürmələr aşağıdakılar əsasında həyata keçirilmişdir:

- "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2019-cu il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2018-ci il tarixli 449 nömrəli Fərmanı;

2018-ci il ərzində Dövlət Büdcəsinə, habelə, dövlət təşkilatlarına, dövlətə məxsus müəssisələrə və şirkətlərə köçürmələr aşağıdakılar əsasında həyata keçirilmişdir:

- "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli 1770 nömrəli Fərmanı;
- "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2018-ci il büdcəsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli 1770 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 iyul 2018-ci il tarixli 209 nömrəli Fərmanı.

19. Mənfəət vergisi

Fond vergi hesabatlarını Rusiya Federasiyası, Lüksemburq, Yaponiya və Fransanın vergi qanunvericiliyinin tələbləri əsasında hazırlayır.

Azərbaycan Respublikası Prezidentinin 509-IVQD saylı 21 dekabr 2012-ci il tarixli Fərmanına və Milli Məclisin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklərin edilməsi haqqında 29 dekabr 2012-ci il tarixli qanununa uyğun olaraq, 1 yanvar 2013-cü ildən etibarən ARDNF korporativ mənfəət vergisinin ödənilməsindən azad edilmişdir. ARDNF-in Cersi adalarında qeydiyyatdan keçmiş bütün şirkətləri "Beynəlxalq Xidmət Şirkətləri" olduğuna görə korporativ mənfəət vergisindən azaddırlar. Nəticə etibarilə ARDNF-in Azərbaycan və Böyük Britaniyadakı fəaliyyəti ilə bağlı müvəqqəti fərqlər mövcud deyil. Yaponiya hökuməti ilə imzalanmış ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişə əsasən Tokumei Kumiai ("TK") investisiyalarından əldə edilmiş gəlirlər bu ölkədə vergiyə cəlb edilmir. Cənubi Koreyadakı törəmə müəssisə də aktivləri ilə bağlı əməliyyatlardan yaranan gəlirə görə vergidən azaddır və yalnız payçılara gəlirlərdən ödənişlər edərkən ödəmə mənbəyində tutulan vergi ödəməlidir.

Rusiya Federasiyasında fəaliyyət göstərən şirkətlər üçün standart korporativ mənfəət vergisi dərəcələri 2019 və 2018-ci illər üzrə 20% təşkil etmişdir. Lüksemburq və Fransa törəmə müəssisələri müvafiq olaraq 17% (2018: 17%) və 33.33% (2018: 33.33%) dərəcəsində mənfəət vergisinə cəlb edilir. Yaponiya törəmə müəssisəsi 34.59% (2018: 34.59%) dərəcəsində mənfəət vergisinə cəlb edilir.

Təxirə salınmış vergilər maliyyə hesabatlarındakı aktiv və öhdəliklərin balans dəyəri ilə onların vergi bazası arasındakı müvəqqəti fərqlərin xalis vergi effektini əks etdirir. Müvəqqəti fərqlər əsasən gəlir və xərclərin müxtəlif üsullarla tanınmasından, eləcə də müəyyən aktivlərin qeydə alınmış dəyərindən yaranır.

20. Ədalətli dəyər haqqında açıqlamalar

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş) (ii) 2-ci səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür. Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi bütövlükdə ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

(a) Təkrarlanan ədalətli dəyər qiymətləndirmələri

Təkrarlanan ədalətli dəyər qiymətləndirmələri maliyyə vəziyyəti haqqında hesabatda hər bir hesabat dövrünün sonunda mühasibat uçotu standartları ilə tələb edilən və ya icazə verilən qiymətləndirmələrdir. Təkrarlanan ədalətli dəyər qiymətləndirmələrinin aid edildiyi ədalətli dəyər iyerarxiyalarının səviyyəsi aşağıda göstərilir:

Min Azərbaycan manatı ilə	31 dekabr 2019				31 dekabr 2018			
	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Cəmi	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Cəmi
Aktivlərin ədalətli dəyəri								
Maliyyə aktivləri								
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	**48,492,532**	**7,609,063**	**3,510,925**	**59,612,520**	**49,633,997**	**5,450,817**	**2,253,461**	**57,338,275**
- Agentlik/ Beynəlmiləl qurumların istiqrazları	9,293,635	-	-	9,293,635	13,082,224	-	-	13,082,224
- Korporativ istiqrazlar	17,591,710	7,609,063	-	25,200,773	23,336,142	5,450,817	-	28,786,959
- Suveren istiqrazlar	12,429,189	-	-	12,429,189	2,915,648	-	-	2,915,648
- Özəl səhm fondları	-	-	902,260	902,260	-	-	641,363	641,363
- Daşınmaz əmlak fondları	-	-	2,608,665	2,608,665	-	-	1,612,098	1,612,098
- Səhmlər	8,036,393	-	-	8,036,393	6,229,752	-	-	6,229,752
- Pul bazarı alətləri	1,141,605	-	-	1,141,605	4,070,231	-	-	4,070,231
Qeyri-maliyyə aktivləri	**8,381,163**	**-**	**2,517,219**	**10,898,382**	**3,558,246**	**-**	**2,584,684**	**6,142,930**
- İnvestisiya mülkiyyəti	-	-	2,517,219	2,517,219	-	-	2,584,684	2,584,684
- Qızıl külçələr	8,381,163	-	-	8,381,163	3,558,246	-	-	3,558,246
Cəmi təkrarlanan ədalətli dəyərlə qiymətləndirilən aktivlər	**56,873,695**	**7,609,063**	**6,028,144**	**70,510,902**	**53,192,243**	**5,450,817**	**4,838,145**	**63,481,205**

31 dekabr 2019 və 31 dekabr 2018-ci il tarixinə qiymətləndirmə modeli və ədalətli dəyərin qiymətləndirilməsi üzrə 2-ci Səviyyə üçün istifadə edilən ilkin məlumatlar aşağıda təsvir edilir:

Min Azərbaycan manatı ilə	Ədalətli dəyər	Qiymətləndirmə modeli	İstifadə edilən ilkin məlumatlar
Aktivlərin ədalətli dəyəri			
Maliyyə aktivləri			
2019			
- Korporativ istiqrazlar	7,609,063	Pul axınlarının diskontlaşdırılması modeli	Dövlət istiqrazlarının gəlirlilik əyrisi
2018			
- Korporativ istiqrazlar	5,450,817	Pul axınlarının diskontlaşdırılması modeli	Dövlət istiqrazlarının gəlirlilik əyrisi

31 dekabr 2019-cu il tarixinə 3-cü Səviyyə üzrə ədalətli dəyərin qiymətləndirilməsində istifadə olunan ilkin məlumatlar və qiymətləndirmə modelləri, eləcə də bu qiymətləndirmələrin ilkin məlumatlardakı mümkün dəyişikliklərə qarşı həssaslığı aşağıdakı kimidir:

Min Azərbaycan manatı ilə	Ədalətli dəyər	Qiymətləndirmə modeli	İstifadə edilən ilkin məlumatlar	İlkin məlumatların həcmi (orta çəki)	Əsaslandırılmış dəyişiklik	Ədalətli dəyərin qiymətləndirilməsi üzrə həssaslıq
Aktivlərin ədalətli dəyəri						
Maliyyə aktivləri						
İnvestisiya mülkiyyəti						
"78 St James Street", London	329,795	Qalıq qiymətləndirmə yanaşması	Xalis icarə dəyəri	21,955 min AZN	+/- 5%	18,411/ (18,411)
"Gallery Actor", Moskva	91,358	Pul axınlarının diskontlaşdırılması	Hədəflənən gəlirlilik norması	12%	+/- 1%	(3,239)/ 3,406
"SCI 8 Place Vendome", Paris	359,529	Gəlirin kapitallaşdırılması, Pul axınlarının diskontlaşdırılması, Birbaşa müqayisə üsulu	Gəlirlilik dərəcəsi	3.5-4.5%	+/- 0.5%	(77,021)/ 30,676
"Pine Avenue Tower A", Seul	819,378	Pul axınlarının diskontlaşdırılması, Müqayisə üsulu	Hədəflənən gəlirlilik norması / Əqd qiyməti	4.6-4.8%, AZN 11,760-12,936 m2	+/- 0.25%, +/- 5%	(15,950)/ 17,640, (20,654)/ 20,654
"Kirarito Ginza" , Tokio	917,159	Gəlirin kapitallaşdırılması	Gəlirlilik dərəcəsi	2.4%	+/- 0.1%	(32,351)/ 35,432
3-cü Səviyyə üzrə cəmi təkrarlanan ədalətli dəyər qiymətləndirmələri	**2,517,219**					

31 dekabr 2018-ci il tarixinə 3-cü Səviyyə üzrə ədalətli dəyərin qiymətləndirilməsində istifadə olunan ilkin məlumatlar və qiymətləndirmə modelləri, eləcə də bu qiymətləndirmələrin ilkin məlumatlardakı mümkün dəyişikliklərə qarşı həssaslığı aşağıdakı kimidir:

Min Azərbaycan manatı ilə	Ədalətli dəyər	Qiymətləndirmə modeli	İstifadə edilən ilkin məlumatlar	İlkin məlumatların həcmi (orta çəki)	Əsaslandırılmış dəyişiklik	Ədalətli dəyərin qiymətləndirilməsi üzrə həssaslıq
Aktivlərin ədalətli dəyəri						
Maliyyə aktivləri						
İnvestisiya mülkiyyəti						
"78 St James Street", London	258,348	Qalıq qiymətləndirmə yanaşması	Xalis icarə dəyəri	18,137 min AZN	+/- 5%	19,604/ (18,623)
"Gallery Actor", Moskva	80,092	Pul axınlarının diskontlaşdırılması	Hədəflənən gəlirlilik norması	12-15%	+/- 1%	(2,889)/ 3,031
"SCI 8 Place Vendome", Paris	362,328	Gəlirin kapitallaşdırılması, Pul axınlarının diskontlaşdırılması, Birbaşa müqayisə üsulu	Gəlirlilik dərəcəsi	3.5-4.5%	+/- 0.5%	(33,942)/ 49,596
"Pine Avenue Tower A", Seul	784,076	Pul axınlarının diskontlaşdırılması, Müqayisə üsulu	Hədəflənən gəlirlilik norması / Əqd qiyməti	5-5.3%, AZN 10,951-12,624 m^2	+/- 0.25%, +/- 5%	(14,213)/ 15,651, 18,764/ 18,685
"Kirarito Ginza" , Tokio	897,373	Gəlirin kapitallaşdırılması	Gəlirlilik dərəcəsi	2.4%	+/- 0.1%	(32,351)/ 35,432
"Palazzo Turati", Milan	202,467	Pul axınlarının diskontlaşdırılması	Kapitalın orta çəkili dəyəri və GOCR	5.01-4.07%	+/- 0.25%	(389)/389
3-cü Səviyyə üzrə cəmi təkrarlanan ədalətli dəyər qiymətləndirmələri	**2,584,684**					

Özəl səhm və daşınmaz əmlak fondlarındakı investisiyalar üçün vergi və faiz xərclərindən əvvəlki gəlirlərin (EBITDA) artması hesablanmış dəyərin yüksək olmasına gətirib çıxara bilər. Bundan əlavə, bazarın olmadığı təqdirdə diskontun artması dəyərin azalmasına səbəb ola bilər. Fond tərəfindən 3-cü Səviyyədəki fond investisiyalarının ədalətli dəyərinin qiymətləndirilməsində istifadə edilən müşahidə edilə bilməyən ilkin məlumatlar arasında heç bir əlaqə müəyyən edilməmişdir.

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə ədalətli dəyər iyerarxiyasının 3-cü Səviyyəsi üzrə dəyişikliklərin alətlərin növünə görə üzləşdirilməsi aşağıda göstərilir:

Min Azərbaycan manatı ilə	FVTPL kateqoriyasında ölçülən qiymətli kağızlar Korporativ səhmlər
1 yanvar 2019-cu il tarixinə ədalətli dəyər	**2,253,461**
İl üzrə mənfəət və ya zərərdə tanınmış gəlir	46,464
Sair məcmu gəlirlərdə tanınmış gəlir	(36,388)
Alışlar	1,247,388
31 dekabr 2019-cu il tarixinə ədalətli dəyər	**3,510,925**

31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə ədalətli dəyər iyerarxiyasının 3-cü Səviyyəsi üzrə dəyişikliklərin alətlərin növünə görə üzləşdirilməsi aşağıda göstərilir:

Min Azərbaycan manatı ilə	FVTPL kateqoriyasında ölçülən qiymətli kağızlar Korporativ səhmlər
1 yanvar 2018-ci il tarixinə ədalətli dəyər	**1,440,247**
İl üzrə mənfəət və ya zərərdə tanınmış gəlir	165,375
Sair məcmu gəlirlərdə tanınmış gəlir	(63,077)
Alışlar	710,916
31 dekabr 2018-ci il tarixinə ədalətli dəyər	**2,253,461**

b) Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər

Ədalətli dəyərin ədalətli dəyər iyerarxiyalarının səviyyələri üzrə təhlili və ədalətli dəyərlə qiymətləndirilməyən aktivlərin balans dəyəri aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	31 dekabr 2019				31 dekabr 2018			
	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Balans dəyəri	1-ci Səviyyə	2-ci Səviyyə	3-cü Səviyyə	Balans dəyəri
Aktivlər								
Sair maliyyə aktivləri								
- Ticarət debitor borcları	-	4,283	-	4,283	-	4,382	-	4,382
- Müddətli depozitlər	-	7,577	-	7,577	-	-	-	-
Cəmi aktivlər	**-**	**11,860**	**-**	**11,860**	**-**	**4,382**	**-**	**4,382**
Öhdəliklər								
Sair borc öhdəlikləri								
- Müddətli kredit	-	928,066	-	928,066	-	935,981	-	935,981
Sair maliyyə öhdəlikləri								
- Ticarət kreditor borcları	-	17,762	-	17,762	-	16,154	-	16,154
- İcarə öhdəlikləri	-	77,792	-	77,792	-	-	-	-
Cəmi öhdəliklər	**-**	**1,023,620**	**-**	**1,023,620**	**-**	**952,135**	**-**	**952,135**

Ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsində ədalətli dəyərin qiymətləndirilməsi pul vəsaitlərinin diskontlaşdırılması yanaşmasından istifadə etməklə həyata keçirilmişdir. Fəal bazar qiyməti olmayan dəyişkən faizli maliyyə alətlərinin ədalətli dəyəri onların balans dəyərinə bərabərdir. Fəal bazar qiyməti olmayan sabit faizli maliyyə alətlərinin ədalətli dəyəri analoji kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün mövcud faiz dərəcələrini tətbiq etməklə diskont edilmiş gələcək pul vəsaitlərinin hərəkəti metoduna əsaslanır.

21. Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi

MHBS 9 “Maliyyə alətləri” standartına uyğun olaraq, Fond maliyyə aktivlərini aşağıdakı kateqoriyalara təsnifləşdirir: (a) FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri; (b) FVOCI kateqoriyasında ölçülən borc alətləri; (c) FVOCI kateqoriyasında ölçülən pay alətləri və (d) amortizasiya olunmuş dəyərlə ölçülən maliyyə aktivləri. FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri iki alt-kateqoriyaya bölünür: (i) FVTPL kateqoriyasında məcburi qaydada ölçülən aktivlər və (ii) ilkin tanınma zamanı həmin kateqoriyaya aid edilmiş aktivlər.

31 dekabr 2019-cu il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	FVTPL kateqoriyasında ölçülən (məcburi)	Amortizasiya olunmuş dəyərlə ölçülən	Cəmi
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri			**2,590,446**
- Pul bazarı fondları	1,429,032	-	1,429,032
- Bank hesabları	-	1,160,617	1,160,617
- Qısamüddətli depozitlər	-	797	797
FVTPL kateqoriyasında ölçülən aktivlər			**59,612,520**
- Agentlik/Beynəlmiləl qurumların istiqrazları	9,293,635	-	9,293,635
- Korporativ istiqrazlar	25,200,773	-	25,200,773
- Suveren istiqrazlar	12,429,189	-	12,429,189
- Pul bazarı alətləri	1,141,605	-	1,141,605
- Özəl səhm fondları	902,260	-	902,260
- Daşınmaz əmlak fondları	2,608,665	-	2,608,665
- Səhmlər	8,036,393	-	8,036,393
Sair maliyyə aktivləri			**11,860**
- Sair	-	11,860	11,860
Cəmi MALİYYƏ AKTİVLƏRİ	**61,041,552**	**1,173,274**	**62,214,826**

31 dekabr 2018-ci il tarixinə maliyyə aktivlərinin növləri ilə yuxarıda qeyd edilən qiymətləndirmə kateqoriyalarının üzləşdirilməsi aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	FVTPL kateqoriyasında ölçülən (məcburi)	Amortizasiya olunmuş dəyərlə ölçülən	Cəmi
AKTİVLƏR			
Pul vəsaitləri və onların ekvivalentləri	-		**1,264,588**
- Qısamüddətli depozitlər	-	4,437	4,437
- Pul bazarı fondları	553,139	-	553,139
- Bank hesabları	-	707,012	707,012
FVTPL kateqoriyasında ölçülən aktivlər	-	-	**57,338,275**
- Agentlik/Beynəlmiləl qurumların istiqrazları	13,082,224	-	13,082,224
- Korporativ istiqrazlar	28,786,959	-	28,786,959
- Suveren istiqrazlar	2,915,648	-	2,915,648
- Pul bazarı alətləri	4,070,231	-	4,070,231
- Özəl səhm fondları	641,363	-	641,363
- Daşınmaz əmlak fondları	1,612,098	-	1,612,098
- Səhmlər	6,229,752	-	6,229,752
Sair maliyyə aktivləri	-	-	**4,382**
- Sair	-	4,382	4,382
Cəmi MALİYYƏ AKTİVLƏRİ	**57,891,414**	**715,831**	**58,607,245**

31 dekabr 2019 və 31 dekabr 2018-ci il tarixinə Fondun bütün maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə uçota alınmışdır.

22. Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi Fondun əməliyyatlarının mühüm elementidir. Fondun əməliyyatlarına xas olan risklər kredit riskinə, likvidlik, bazar və əməliyyat risklərinə aiddir. Həmin risklərlə bağlı Fondun risklərin idarə edilməsi siyasəti aşağıda icmal edilir.

Kredit riski. Fond kredit riskinə məruzdur ki, bu, maliyyə öhdəliyi olan bir tərəfin öhdəliyini yerinə yetirməməsi və nəticədə digər tərəfin maliyyə zərərinə məruz qalması riskidir. Fondun pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri və investisiyaları kredit riskinə məruz qala bilər. Fond kredit risklərini Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli 511 nömrəli Fərmanı ilə təsdiq edilmiş, 21 dekabr 2001-ci il tarixli 607 nömrəli Fərmanı, 1 mart 2005-ci il tarixli 202 saylı Fərmanı, 10 fevral 2010-cu il tarixli 216 nömrəli Fərmanı, 27 oktyabr 2011-ci il tarixli 519 nömrəli Fərmanı ilə əlavə və dəyişikliklər edilmiş "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi Qaydaları"na (bundan sonra birlikdə "Qaydalar") müvafiq olaraq idarə edir.

Kredit riski investisiya aktivlərinin düzgün seçilməsi, investisiya aktivlərinin kredit keyfiyyəti və hər investisiya aktivi üzrə investisiya məbləğinin limitlərinin müəyyən edilməsi ilə idarə olunur və nəzarət altında saxlanılır.

Aşağıdakı cədvəldə Fondun saxladığı qiymətli kağızların kredit reytinqi haqqında məlumat təqdim olunmuşdur. Cədvəldə beynəlxalq Standard & Poor's, Fitch və Moody's agentliklərinin reytinqləri üzrə təsnifat verilmişdir. Aktiv müxtəlif kredit reytinqinə malik olduqda təyin edilən daha aşağı reytinq istifadə olunur.

2019	AAA	AA	A	BBB	BB	B	D	Cəmi
Pul vəsaitləri və onların ekvivalentləri*	1,429,032	4,446	557,992	593,499	-	4,505	-	**2,589,474**
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri**	15,560,954	4,646,437	10,237,554	7,952,656	7,644,475	2,022,213	913	**48,065,202**

*Azərbaycan Respublikası Mərkəzi Bankında yerləşdirilmiş 972 min AZN məbləğində nağd pul qalıqları Mərkəzi Bankların kredit reytinqləri olmadığına görə yuxarıdakı cədvəldə əks etdirilmir.

**8,036 milyon AZN məbləğində səhmlər, eləcə də daşınmaz əmlak və özəl səhm fondlarındakı 3,511 milyon AZN məbləğində investisiya yatırımları yuxarıdakı cədvəldə əks etdirilmir. Fondun daşınmaz əmlak və özəl səhm fondlarındakı investisiyaları üzrə investisiya strategiyaları vardır. Kompleks yoxlama mərhələsində Fond fondların investisiya təcrübələrinin miqyasını, Tam ortağın öncəki investisiyalarında iştirak etmiş pay sahiblərinin rəylərini, işçi heyətinin təhsil və təcrübəsini, fondun təşkili və maliyyə axınlarının idarə olunmasında istifadə olunan maliyyə mexanizmləri ilə bağlı təhlillər aparır və onları 10 ballıq şkala üzrə qiymətləndirir. 31 dekabr 2019-cu il tarixinə daşınmaz əmlak və özəl səhm fondları müvafiq olaraq 8-9 və 7-8 bal civarında qiymətləndirilmişdir.

2018	AAA	AA	A	BBB	BB	B	D	Cəmi
Pul vəsaitləri və onların ekvivalentləri	553,139	5,560	151,933	550,050	1,661	1,425	-	**1,263,768**
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	10,978,994	6,495,932	16,190,765	7,704,085	6,049,317	1,432,592	3,377	**48,855,062**

Səhm portfeli Fondun İzləmə Xətası göstəricilərinə əsaslandığı indekslərin (MSCI World, MSCI Europe ex UK, S&P 100) passiv replikasiyasını əks etdirir. İzləmə Xətası həddi illik olaraq 30 baza dərəcəsi həcmində öncədən müəyyən olunmuşdur.

Eyni zamanda, Fond standart kənarlaşma, riskə məruz dəyər (RMD) və Beta kimi bazar riski göstəricilərini daxili hesabatlarında əks etdirir.

Xarici menecerlər. Qaydalara uyğun olaraq, Fondun valyuta vəsaitinin idarə edilməsinə xarici menecer cəlb edildikdə xarici menecerin özünün və ya onun əsas təsisçisinin kredit reytinqi investisiya dərəcəli kredit reytinqindən (Baa3 (Moody's) və ya BBB-(Standard & Poor's, Fitch)) aşağı olmamalı, və ya onun aktivlərinin idarə edilməsində beş ildən az olmayan müsbət təcrübəsi, və yaxud dəyəri 1 milyard ABŞ dolları məbləğindən az olmayan aktivlərin idarə edilməsi sahəsində sərişteşi olmalıdır.

Valyuta riski. Valyuta riski xarici valyuta məzənnələrinin dəyişməsi nəticəsində maliyyə alətinin dəyərinin dəyişməsi riskidir. Fondun nağd pul axınları və aktivlərinin dəyəri əsas xarici valyutaların məzənnələrinin dəyişməsi riskinə məruz qalır. Valyuta riski İnvestisiya Siyasətinə uyğun olaraq müəyyən valyutalar üçün çəki əmsallarını əks etdirən valyuta yerləşdirilməsinə əsasən idarə olunur. Bundan başqa, İnvestisiya Siyasətindəki valyuta yerləşdirilməsinə əsasən Fond hedcinq məqsədilə valyuta törəmələrini istifadə etmək hüququna malikdir. Valyutanın yenidən balanslaşdırılması daxili prosedurlara uyğun olaraq rüblük həyata keçirilir. Valyutanın yerləşdirilməsi Fondun çox-aktivli və diversifikasiya edilmiş investisiya portfeli üzrə həyata keçirilir.

31 dekabr 2019-cu il tarixində başa çatmış il üzrə Fondun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

2019	AZN	ABŞ dolları	Avro	İngilis funt sterlinqi	Türk lirəsi	Avstraliya dolları	Rusiya rublu	Digər	Cəmi
Maliyyə aktivləri									
Pul vəsaitləri və onların ekvivalentləri	1,010	1,980,627	340,082	210,650	4,434	2,108	398	51,137	2,590,446
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	-	29,911,197	22,261,867	3,267,653	585,602	407,745	480,631	2,697,825	59,612,520
Sair maliyyə aktivləri	-	-	-	2,631	-	-	8,917	312	11,860
Cəmi maliyyə aktivləri	**1,010**	**31,891,824**	**22,601,949**	**3,480,934**	**590,036**	**409,853**	**489,946**	**2,749,274**	**62,214,826**
Maliyyə öhdəlikləri									
Borc öhdəlikləri	-	-	-	-	-	-	-	(928,066)	(928,066)
Sair maliyyə öhdəlikləri	(1,202)	-	(4,246)	(309)	-	-	(1,097)	(10,908)	(17,762)
İcarə öhdəlikləri	-	-	-	(70,386)	-	-	-	(7,406)	(77,792)
Cəmi maliyyə öhdəlikləri	**(1,202)**	**-**	**(4,246)**	**(70,695)**	**-**	**-**	**(1,097)**	**(946,380)**	**(1,023,620)**
Açıq mövqe	**(192)**	**31,891,824**	**22,597,703**	**3,410,239**	**590,036**	**409,853**	**488,849**	**1,802,894**	**61,191,206**

31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə Fondun məruz qaldığı valyuta riski üzrə ümumi təhlil aşağıdakı cədvəldə əks olunur:

2018	AZN	ABŞ dolları	Avro	İngilis funt sterlinqi	Türk lirəsi	Avstraliya dolları	Rusiya rublu	Digər	Cəmi
Maliyyə aktivləri									
Pul vəsaitləri və onların ekvivalentləri	895	946,368	156,640	104,004	1,313	5,899	2,543	46,926	1,264,588
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	-	29,528,796	21,657,260	2,646,222	524,211	380,231	316,871	2,284,684	57,338,275
Sair maliyyə aktivləri	-	-	-	1,783	-	-	1,379	1,220	4,382
Cəmi maliyyə aktivləri	**895**	**30,475,164**	**21,813,900**	**2,752,009**	**525,524**	**386,130**	**320,793**	**2,332,830**	**58,607,245**
Maliyyə öhdəlikləri									
Borc öhdəlikləri	-	-	-	-	-	-	-	(935,981)	(935,981)
Sair maliyyə öhdəlikləri	(1,320)	-	(2,805)	(71)	-	-	(501)	(11,457)	(16,154)
Cəmi maliyyə öhdəlikləri	**(1,320)**	**-**	**(2,805)**	**(71)**	**-**	**-**	**(501)**	**(947,438)**	**(952,135)**
Açıq mövqe	**(425)**	**30,475,164**	**21,811,095**	**2,751,938**	**525,524**	**386,130**	**320,292**	**1,385,392**	**57,655,110**

Valyuta riskinə həssaslıq. Aşağıdakı cədvəldə Fondun 31 dekabr 2019 və 2018-ci il tarixinə monetar aktivləri və proqnozlaşdırılan nağd pul axınları üzrə əhəmiyyətli riskləri göstərilir. Təhlil mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda bütün digər dəyişən göstəricilər sabit qalmaqla, valyuta məzənnəsinin manata qarşı məntiqi baxımdan mümkün dərəcədə hərəkət etməsinin təsirini hesablayır.

	İl üzrə mənfəət/ (zərərə) təsir		Kapitala təsir		İl üzrə mənfəət/(zərərə) təsir		Kapitala təsir	
	31 dekabr 2019				31 dekabr 2018			
AZN/ABŞ dolları	**+ 10%**	3,189,182	3,189,182		**+ 10%**	3,047,516	3,047,516	
	- 10%	(3,189,182)	(3,189,182)		**- 10%**	(3,047,516)	(3,047,516)	
AZN/Avro	**+ 10%**	2,259,770	2,566,296		**+ 10%**	2,181,110	2,430,770	
	- 10%	(2,259,770)	(2,566,296)		**- 10%**	(2,181,110)	(2,430,770)	
AZN/İngilis funt sterlinqi	**+ 10%**	341,024	373,815		**+ 10%**	275,194	308,827	
	- 10%	(341,024)	(373,815)		**- 10%**	(275,194)	(308,827)	
AZN/Türk lirəsi	**+ 10%**	59,004	59,004		**+ 10%**	52,552	52,552	
	- 10%	(59,004)	(59,004)		**- 10%**	(52,552)	(52,552)	
AZN/Avstraliya dolları	**+ 10%**	40,985	40,985		**+ 10%**	38,613	38,613	
	- 10%	(40,985)	(40,985)		**- 10%**	(38,613)	(38,613)	
AZN/Rus rublu	**+ 10%**	48,885	57,327		**+ 10%**	32,029	39,250	
	- 10%	(48,885)	(57,327)		**- 10%**	(32,029)	(39,250)	

Əmtəə riski. Qızılın qiymətindəki dəyişikliklər Fonda təsir göstərir. Aşağıdakı cədvəldə qızılın qiymətinin dəyişməsinin təsiri göstərilir:

AZN/XAU	31 dekabr 2019		31 dekabr 2018	
	10%	-10%	10%	-10%
İl üzrə mənfəət/(zərərə) təsir	838,116	(838,116)	355,825	(355,825)
Kapitala təsir	838,116	(838,116)	355,825	(355,825)

Coğrafi konsentrasiya. 31 dekabr 2019-cu il tarixinə Fondun maliyyə aktiv və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıda göstərilir:

2019	Azərbaycan	Avropa	Amerika	Asiya	Avstraliya və Okeaniya	Beynəlxalq təşkilatlar	Cəmi
Maliyyə aktivləri							
Pul vəsaitləri və onların ekvivalentləri	1,047	1,861,192	688,693	39,514	-	-	2,590,446
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	9,045,673	22,075,302	17,705,373	5,797,909	1,501,217	3,487,046	59,612,520
Sair maliyyə aktivləri	-	11,548	-	312	-	-	11,860
Cəmi maliyyə aktivləri	**9,046,720**	**23,948,042**	**18,394,066**	**5,837,735**	**1,501,217**	**3,487,046**	**62,214,826**
Maliyyə öhdəlikləri							
Borc öhdəlikləri	-	-	-	(928,066)	-	-	(928,066)
Sair maliyyə öhdəlikləri	(1,202)	(5,652)	-	(10,908)	-	-	(17,762)
İcarə öhdəlikləri		(70,386)		(7,406)			(77,792)
Cəmi maliyyə öhdəlikləri	**(1,202)**	**(76,038)**	**-**	**(946,380)**	**-**	**-**	**(1,023,620)**
Xalis mövqe	**9,045,518**	**23,872,004**	**18,394,066**	**4,891,355**	**1,501,217**	**3,487,046**	**61,191,206**

31 dekabr 2018-ci il tarixinə Fondun maliyyə aktiv və öhdəliklərinin coğrafi konsentrasiyası aşağıda göstərilir:

2018	Azərbaycan	Avropa	Amerika	Asiya	Avstraliya və Okeaniya	Beynəlxalq təşkilatlar	Cəmi
Maliyyə aktivləri							
Pul vəsaitləri və onların ekvivalentləri	933	785,999	436,821	40,835	-	-	1,264,588
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	6,957,699	22,405,476	14,727,172	6,512,370	1,727,172	5,008,386	57,338,275
Sair maliyyə aktivləri	-	3,162	-	1,220	-	-	4,382
Cəmi maliyyə aktivləri	**6,958,632**	**23,194,637**	**15,163,993**	**6,554,425**	**1,727,172**	**5,008,386**	**58,607,245**
Maliyyə öhdəlikləri							
Borc öhdəlikləri	-	-	-	(935,981)	-	-	(935,981)
Sair maliyyə öhdəlikləri	(1,320)	(3,377)	-	(11,457)	-	-	(16,154)
Cəmi maliyyə öhdəlikləri	**(1,320)**	**(3,377)**	**-**	**(947,438)**	**-**	**-**	**(952,135)**
Xalis mövqe	**6,957,312**	**23,191,260**	**15,163,993**	**5,606,987**	**1,727,172**	**5,008,386**	**57,655,110**

Digər risk konsentrasiyaları. Rəhbərlik Fondun portfellərinə dair hesabatlar ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiqlənmiş investisiya qaydalarının müqayisəsinə əsasən kredit riski üzrə konsentrasiyaya nəraszarət edir və müvafiq məlumatları açıqlayır. 31 dekabr 2019 və 2018-ci il tarixinə Fondun risklər üzrə əhəmiyyətli konsentrasiyası olmamışdır.

Faiz dərəcəsi riski. İnvestisiya portfelində sabit gəlirli qiymətli kağızların payının artması səbəbindən Fond bazar faiz dərəcələrinin dəyişməsinin onun maliyyə vəziyyətinə və nağd pul axınlarına təsiri ilə əlaqədar riskə məruz qalır. Belə dəyişikliklər faiz marjalarının artmasına, lakin gözlənilməz dəyişikliklər baş verdiyi halda itkilərin azalmasına və ya yaranmasına gətirib çıxara bilər. Rəhbərlik portfel üzrə ortaçəkili investisiya müddətini maksimal 48 ay (4 durasiya) müəyyən edir.

Faiz dərəcəsi riskinə həssaslıq. 31 dekabr 2019 və 2018-ci il tarixinə depozitlər və borc qiymətli kağızları faiz gəliri gətirən idi və bu səbəbdən də onlar faiz dərəcəsi riskinə məruz qalmışdır. Fond bu riski maliyyə bazarlarındakı vəziyyətdən asılı olaraq, investisiya portfelindəki aktivlərin müddətini tədricən artırmaq və ya azaltmaqla idarə edir. Risklərin gündəlik idarə edilməsi və monitorinqi yuxarıda qeyd edilən limitlərə uyğun olaraq Risklərin İdarə Edilməsi Departamenti tərəfindən həyata keçirilir.

Aşağıdakı cədvəldə faiz dərəcəsi 1% dəyişərkən Fondun maliyyə aktivlərinin ədalətli dəyərindəki dəyişikliyin xalis təsiri göstərilir. Faiz dərəcəsi riskinin həssaslığının təhlili “dəyişkən risk göstəricisində məntiqi baxımdan mümkün dəyişiklik” əsasında həyata keçirilmişdir. Belə dəyişmənin dərəcəsi rəhbərlik tərəfindən təyin edilir və rəhbərliyə təqdim edilən risk hesabatlarında əks etdirilir.

Vergidən əvvəlki mənfəət/(zərərə) təsir:

	31 dekabr 2019		31 dekabr 2018	
	Faiz dərəcəsi 1%	Faiz dərəcəsi -1%	Faiz dərəcəsi 1%	Faiz dərəcəsi -1%
Aktivlər:				
Pul vəsaitləri və onların ekvivalentləri	39	(39)	15	(15)
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	(612,085)	612,085	(334,166)	334,166
Vergidən əvvəlki mənfəət/(zərərə) xalis təsir	**(612,046)**	**612,046**	**(334,151)**	**334,151**
Kapitala təsir	**(612,046)**	**612,046**	**(334,151)**	**334,151**

Likvidlik riski. Rəhbərliyin siyasəti hər bir şəraitdə Fondun öhdəliklərini yerinə yetirmək üçün likvidliyin lazım olan səviyyədə saxlanılmasından ibarətdir. Likvidlik səviyyəsini təmin etmək üçün 100 milyon ABŞ dollarından az olmayan məbləğdə pul vəsaitləri və onların ekvivalentləri saxlanılır və likvidlik riskinə gündəlik olaraq nəzarət edilir. İl ərzində büdcə transfertlərinə görə likvidlik səviyyəsi Fondun vəsaitlərinin yerləşdirilməsi zamanı nəzərə alınır (yüksək likvidliyə malik borc öhdəlikləri və pul bazarları alətləri sub-portfelinə ən azı 60% investisiya yatırılmalıdır) və bu isə öz növbəsində əlavə olaraq Fondun investisiya portfeli üzrə likvidliyin təmin edilməsinə təkan verir.

Aşağıdakı cədvəldə 31 dekabr 2019-cu il tarixinə maliyyə öhdəlikləri müqavilə üzrə ödəmə müddətlərinə görə təsnifləşdirilir. Cədvəldə göstərilən öhdəliklərin məbləğinə müqavilə üzrə diskontlaşdırılmamış pul axınları daxildir. Belə diskontlaşdırılmamış pul axınları maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlərdən fərqlənir, belə ki, maliyyə vəziyyəti haqqında hesabatdakı məbləğlər diskontlaşdırılmamış pul axınlarına əsasən hesablanır.

Maliyyə vəziyyəti haqqındakı hesabatdakı maddələr üzrə Fondun aktivlərinin likvidlik riski üzrə təhlili aşağıdakı cədvəldə əks olunur:

2019	1 aya qədər	1 aydan 3 aya qədər	3 aydan 1 ilə qədər	1 ildən 5 ilədək	5 ildən çox	Müddətsiz	Cəmi
Maliyə aktivləri							
Pul vəsaitləri və onların ekvivalentləri	-	797	-	-	-	2,589,649	2,590,446
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	2,020,129	2,740,790	9,868,602	28,718,165	4,717,517	11,547,317	59,612,520
Sair maliyyə aktivləri	4,283	1,937	5,640	-	-	-	11,860
Cəmi maliyyə aktivləri	**2,024,412**	**2,743,524**	**9,874,242**	**28,718,165**	**4,717,517**	**14,136,966**	**62,214,826**
Maliyyə öhdəlikləri							
Borc öhdəlikləri	(331)	(4,631)	(14,888)	(984,648)	-	-	(1,004,498)
İcarə öhdəlikləri	(233)	(466)	(2,098)	(10,480)	(245,945)	-	(259,222)
Sair maliyyə öhdəlikləri	(17,762)	-	-	-	-	-	(17,762)
Cəmi maliyyə öhdəlikləri	**(18,326)**	**(5,097)**	**(16,986)**	**(995,128)**	**(245,945)**	**-**	**(1,281,482)**
Likvidlik intervalı	**2,006,086**	**2,738,427**	**9,857,256**	**27,723,037**	**4,471,572**	**14,136,966**	**60,933,344**

2018	1 aya qədər	1 aydan 3 aya qədər	3 aydan 1 ilə qədər	1 ildən 5 ilədək	5 ildən çox	Müddətsiz	Cəmi
Maliyyə aktivləri							
Pul vəsaitləri və onların ekvivalentləri	4,437	-	-	-	-	1,260,151	1,264,588
FVTPL kateqoriyasında ölçülən maliyyə aktivləri	3,093,230	2,065,143	7,886,959	28,646,098	9,417,093	6,229,752	57,338,275
Sair maliyyə aktivləri	4,382	-	-	-	-	-	4,382
Cəmi maliyyə aktivləri	**3,102,049**	**2,065,143**	**7,886,959**	**28,646,098**	**9,417,093**	**7,489,903**	**58,607,245**
Maliyyə öhdəlikləri							
Borc öhdəlikləri	(327)	(4,760)	(15,261)	(1,014,750)	-	-	(1,035,098)
Sair maliyyə öhdəlikləri	(16,154)	-	-	-	-	-	(16,154)
Cəmi maliyyə öhdəlikləri	**(16,481)**	**(4,760)**	**(15,261)**	**(1,014,750)**	**-**	**-**	**(1,051,252)**
Likvidlik intervalı	**3,085,568**	**2,060,383**	**7,871,698**	**27,631,348**	**9,417,093**	**7,489,903**	**57,555,993**

Qiymət riski. Qiymət riski hər hansı qiymətli kağıza və ya onun emitentinə və ya ümumiyyətlə bazara təsir göstərən faktorlara görə maliyyə alətinin bazar qiymətinin dəyişməsi riskidir. Fondun aktivləri ümumi və xüsusi bazar faktorlarının təsiri nəticəsində qiymət riskinə məruz qalır.

	31 dekabr 2019		31 dekabr 2018	
	Qiymətli kağızların qiymətində 1% artım	Qiymətli kağızların qiymətində 1% azalma	Qiymətli kağızların qiymətində 1% artım	Qiymətli kağızların qiymətində 1% azalma
Vergidən əvvəlki mənfəət/ (zərərə) təsir	596,125	(596,125)	573,383	(573,383)
Xalis aktivlərə/kapitala təsir	596,125	(596,125)	573,383	(573,383)

Əməliyyat riski. Əməliyyat riski sistemlərin nasazlığı, işçilərin səhvi, saxtakarlığı və ya xarici hadisələr nəticəsində yaranan riskdir. Nəzarət sistemi işləməyəndə əməliyyat riskləri nüfuza xələl vura, hüquqi nəticələrə və ya maliyyə zərərlərinə gətirib çıxara bilər. Fond bütün əməliyyat risklərinin aradan götürülməsini güman edə bilməz, lakin Fond bu riskləri nəzarət sistemi və potensial risklərin izlənməsi və onlarla bağlı tədbirlərin görülməsi yolu ilə idarə edə bilər. Nəzarət sisteminə vəzifələrin səmərəli bölünməsi, daxil olma, təsdiq etmə və tutuşdurma prosedurları, heyətin təlimləndirilməsi və qiymətləndirilməsi prosesləri, o cümlədən daxili auditin istifadə edilməsi daxildir.

23. Təəhhüdlər və şərti öhdəliklər

Balansdankənar əməliyyatlar. 11 avqust 2006-cı il tarixdə Fond ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi arasında sərbəst (qalıq) büdcə vəsaitlərinin etibarlı idarəetməyə verilməsi haqqında Aktivlərin İdarə Edilməsi Müqaviləsi imzalanmışdır. Bu müqaviləyə uyğun olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin sərbəst büdcə vəsaitləri Fonda köçürülməli və Azərbaycan Respublikası Maliyyə Nazirliyi ilə müqavilədə göstərilmiş aktivlərin idarə edilməsi qaydaları əsasında Fondun idarə edilməsinə verilməlidir. Fond bu aktivləri əvəzsiz olaraq Maliyyə Nazirliyinin adından və Maliyyə Nazirliyinin xeyrinə, onun xərcləri və riskləri hesabına idarə edir. 31 dekabr 2019-cu il tarixinə bu aktivlərin ümumi dəyəri hesablanmış faizlər də daxil olmaqla, 2,208 milyon AZN (31 dekabr 2018: 577,064 min AZN) təşkil etmişdir.

24. Əlaqəli tərəflərlə əməliyyatlar

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar bir və ya bir neçə qrupun nəzarəti altında olsun və ya onlardan biri digərinə nəzarət edə bilsin və yaxud maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı qərar qəbul edərkən digər tərəfə əhəmiyyətli təsir göstərə bilsin. Əlaqəli tərəflər ilə hər hansı mümkün münasibətlər nəzərdən keçirilərkən həmin münasibətlərin mahiyyətinin onların hüquqi formasından üstünlüyü prinsipi tətbiq olunur.

Fond və onun əlaqəli tərəfləri hesab olunan törəmə müəssisələr arasında həyata keçirilən əməliyyatlar hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarına daxil edilməmişdir və hazırkı Qeyddə açıqlanmır. Bütün dövlət müəssisələri və onların törəmə müəssisələri Fondla ümumi nəzarəti altında olan müəssisələr hesab olunur. Həmin müəssisələrlə əməliyyatlar aşağıda əlaqəli tərəflərlə əməliyyatlar kimi təqdim edilir:

	İllər	Əlaqəli tərəflərdən daxilolmalar	Birgə müəssisələrə investisiyanın balans dəyəri	Əlaqəli tərəflərə köçürmələr	Əlaqəli tərəflərdən alınmış istiqrazların balans dəyəri	Əlaqəli tərəflərdən alınmış istiqrazlar üzrə faiz gəliri	Əlaqəli tərəflərlə bank hesabları	Balansdan-kənar hesablar
SOCAR	**2019**	**14,049,684**						
	2018	16,525,824						
Azərbaycan Qaz Təchizatı Şirkəti	**2019**	**471,371**						
	2018	-						
Əməliyyat Şirkətləri	**2019**	**883,635**						
	2018	907,243						
Dövlət Büdcəsi	**2019**			**11,364,300**				
	2018			10,959,000				
Azərbaycan Respublikası Maliyyə Nazirliyi	**2019**				-	-		**2,207,798**
	2018				74,289	3,917		577,064
"Azərbaycan Meliorasiya və Su təsərrüfatı" ASC	**2019**			-				
	2018			89,999				
Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	**2019**			-				
	2018			176,128				
Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu	**2019**			**200,000**				
	2018			199,979				
Azərbaycan Respublikası Mərkəzi Bankı	**2019**						**972**	
	2018						820	
Azərbaycan Respublikası Təhsil Nazirliyi	**2019**			-				
	2018			7,236				
Azərbaycan Beynəlxalq Bankı	**2019**				**1,436,610**	**55,614**	**71**	
	2018				1,432,593	55,571	112	
Cənub Qaz Dəhlizi QSC	**2019**				**4,793,334**	**169,915**		
	2018				4,412,344	147,997		
Mercury Investments and Holdings Ltd.	**2019**				**1,222,709**	**18,842**		
	2018				260,336	10,548		
Azerbaijan (ACG) Ltd	**2019**				**289,931**	**12,601**		
	2018				337,452	13,150		
SOCAR (Abşeron)	**2019**				**875,334**	**48,502**		
	2018				440,686	8,222		
SOCAR (Qarabağ)	**2019**				**427,755**	**3,382**		
	2018							
"Azerbaijan Rigs" MMC	**2019**		**895,751**					
	2018		1,014,898					
"Capitals Property S.a.r.l" MMC	**2019**		**151,448**					
	2018		152,316					

Əsas idarəedici heyət

Əsas idarəedici heyət Fondun İcraçı Direktoru, İcraçı Direktorun Müavini və Maliyyə və Əməliyyatlar Müdiriyyətinin Müdirindən ibarətdir. Əsas idarəedici heyətin üzvlərinin məcmu əmək haqqı və bu kateqoriya daxilində tam məşğulluq ekvivalenti əsasında müəyyən edilən və ödəniş alan rəhbərlərin sayı aşağıdakı cədvəldə göstərilir:

Min Azərbaycan manatı ilə	2019	2018
Qısamüddətli ödənişlər:		
- Əmək haqqı xərcləri	282	299
- Dövlət Sosial Müdafiə Fonduna ayırmalar	82	65
Əsas idarəedici heyətin sayı	**3**	**3**

25. Strukturlaşdırılmış müəssisələrdə iştirak payları

Konsolidasiya edilmiş strukturlaşdırılmış müəssisələr. Tokumei Kumiai (“TK”) sazişi çərçivəsində bir və ya daha çox mühüm idarəetmə səlahiyyətinə malik olmayan investor (“TK investor”) Yaponiya əməliyyat şirkətinə (“TK operator”) həmin şirkət tərəfindən həyata keçirilən biznesdə (“TK biznes”) mənfəət/zərər müqabilində investisiya yatırır. TK-nın vergi statusuna uyğun olaraq, Yaponiya rezident şirkəti TK biznesində müstəqil paya sahib olmalıdır. TK-GK qaydalarına uyğunluq məqsədilə ARDNF və “Mitsubishi UFJ Trust and Banking (“MUTB”)” şirkəti “Kirarito Ginza”nın əldə edilməsinə dair TK sazişi imzalamışdır. Həmin sazişə əsasən “MUTB” Yaponiya rezident şirkəti qismində çıxış edir və TK Biznesi (TK operator tərəfindən əmlakın əldə edilməsi) üçün tələb olunan investisiya məbləğinin 2%-i həcmində, yəni 1,100 milyon Yapon yeni (9,643 min AZN) məbləğində sərmayə yatırmışdır. TK-da nəzərdə tutulan mənfəətin ARDNF-ə ötürülməsi məqsədilə Yaponiya ilə keçmiş Sovet İttifaqı arasında bağlanmış vergi sazişinə əsasən 0% dərəcə ilə ödəmə mənbəyində tutulan TK-GK vergi strukturu seçilmişdir. Həmin saziş üzrə ARDNF-in ümumi investisiya qoyuluşu 51,989 milyon Yapon yeni (455,736 min AZN) təşkil etmişdir. Müvafiq olaraq, ARDNF və “MUTB” TK biznesindəki mənfəət və ya zərərdə proporsional paya sahib olmuşdur. 2016-cı ildə MUTB onun iştirak payını əldə edən və aktivlərin idarəedilməsi meneceri vəzifəsini tutan “PGIM Foreign Investment Inc” tərəfindən əvəzlənmişdir. “PGIM Foreign Investment Inc”-nin Aktivlərin İdarəedilməsi Menecerləri adından PGIM Real Estate (Yaponiya) şirkəti çıxış edir.

TK operator investorlardan əldə etdiyi vəsait hesabına Tokio şəhərinin Ginza rayonunda yerləşən ticarət kompleksi üçün 52,300 milyon Yapon yeni məbləğində (458,462 min AZN) sərmayə yatırmışdır. Daşınmaz əmlak MUBS 40-da nəzərdə tutulan investisiya mülkiyyəti anlayışına cavab verir. ARDNF TK operator ilə investisiya mülkiyyətinin inkişafı və idarə edilməsinə dair Strateji Planı özündə əks etdirən Saziş imzalamışdır. TK operator həmin Sazişə və Strateji Plana uyğun olaraq şirkəti idarə edir.

TK sazişi investisiya mülkiyyətinin idarə edilməsi və inkişafı ilə əlaqadar Fondun hüquqlarını məhdudlaşdırır. Buna görə, MHBS 12-nin tələbinə əsasən TK operator konsolidasiya edilməmiş strukturlaşdırılmış müəssisələr kateqoriyasına aid edilir. MHBS 12-yə uyğun olaraq, strukturlaşdırılmış müəssisə elə müəssisədir ki, onun idarə edilməsi və üzərində nəzarət həyata keçirilərkən səsvermə və ya bənzər hüquqlar üstünlük təşkil edən amil olmur. Bu struktura əsasən yalnız inzibati məsələlərlə bağlı səsvermə hüquqları və Şirkətin əhəmiyyətli fəaliyyəti müqavilə vasitəsilə idarə olunur.

TK sazişinin spesifik xüsusiyyətlərinə əsaslanaraq rəhbərlik hesab edir ki, ARDNF və TK operator arasında rəhbər/agent münasibətləri mövcuddur. MHBS 10-a uyğun olaraq investor agentə həvalə edilən qərarın qəbul edilməsi səlahiyyətlərini rəhbər/investorun özü tərəfindən saxlanılan səlahiyyətlər kimi hesab edir. Rəhbərlik MHBS 10-nun B60-cı bəndini və Aktivlərin İdarəedilməsi Menecerlərinin payına düşən məhdudlaşdırılmış 2% investisiyasını nəzərə alaraq hesab edir ki, TK operator ARDNF-in agentidir və buna görə də ARDNF investisiya obyektini konsolidasiya etməlidir.

26. Hesabat tarixindən sonrakı hadisələr

“Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2020-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli 906 nömrəli Fərmanına uyğun olaraq, Fondun 2020-ci il büdcəsinin gəlirləri və xərcləri müvafiq olaraq 12,384,088 min AZN və 11,589,910 min AZN məbləğində təsdiq edilmişdir.

Fondun 2020-ci il büdcəsinin əsas xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

- Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinə transfertin yuxarı həddi – 11,350,000 min AZN;
- Məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsi – 200,000 min AZN;
- “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı”nın maliyyələşdirilməsi – 10,000 min AZN;
- Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər – 29,910 min AZN.

Covid-19 pandemiyası. 2019-cu ilin sonlarından Çində başlayan yeni növ COVID-19 (koronavirus) xəstəliyi hökumət tərəfindən karantin rejiminin tətbiq edilməsi, bəzi layihələrin dayandırılması və bizneslərin bağlanması ilə nəticələnmişdir. Dünya bazarlarında hökm sürən iqtisadi şərait Fondun fəaliyyətində bir sıra çətinliklər yaratmışdır. Hal-hazırda xam neftin qiymətlərinə olan cari tələb dəyişkənliyi Fondun biznes məqsədlərini həyata keçirmək qabiliyyətinə təsir göstərir. Bu təsirlər COVID-19 pandemiyasının təsir etdiyi belə bazarlarda və xam neftin qiymətlərində ciddi qeyri-sabitlik fonunda özünü daha aydın biruzə verir. Xam neftin qiymətlərinin qeyri-sabit olması cari və növbəti maliyyə dövrlərində Fondun aktivlərinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərə bilər. Fondun üzləşdiyi başqa bir məsələ digər suveren fondlar kimi, Fondun birjada kotirovka olunan səhmlərdən ibarət olan investisiya portfelinin qısamüddətli qiymət dəyişkənliyindən yaranan müvəqqəti zərərə məruz qala bilməsidir.

Fondun investisiya siyasətində yuxarıda qeyd olunan risklərin azaldılması üçün nəzərdə tutulan bir neçə vacib mexanizmlər mövcuddur. Belə ki, Fondun investisiya portfelinin 70%-ə qədərini yüksək likvidli investisiyalar, o cümlədən borc öhdəlikləri və pul bazarları alətləri təşkil edir. Bundan əlavə, investisiya portfelinin 80%-dən çoxu yüksək likvid və daha az qiymət dəyişkənliyi ilə xarakterizə olunan sabit gəlirli qiymətli kağızlar və qızıldan ibarətdir ki, ümumiyyətlə, bu aktivlər bazar dəyişkənliyi və qeyri-müəyyənlik dövründə daha etibarlı alətlər hesab olunurlar.

Fond bazarın vəziyyətini yaxından izləyir və bazar vəziyyəti ilə bağlı öz mövqeyini qiymətləndirməkdə davam edir. Sürətlə dəyişən bazar vəziyyətinə qarşı tək yumşaltma tədbiri kifayət etməyəcəyi halda, Fond diqqətlə hazırlanmış və ölçülmüş yanaşmasını davam etdirmək niyyətindədir.

Pandemiyanın uzun müddət davam edəcəyi halda, Fondun əməliyyatlarına təsir göstərib-göstərməməsi hazırda məlum deyil. Fond maliyyə resurslarının pandemiya dövründə yetərli olacağını hesab edir. Rəhbərlik bu vəziyyəti düzəliş edilməsini tələb etməyən hesabat tarixindən sonrakı hadisə hesab edir. Rəhbərlik mövcud vəziyyətin potensial təsirini izləməyə davam edəcək və istənilən təsiri azaltmaq üçün bütün mümkün tədbirləri görəcəkdir.

ƏLAVƏ

Suveren Fondlar (SF)
“Santyaqo Prinsipləri”
Ümumi Qəbul olunmuş Prinsip və Normalar (ÜQPN) üzrə qiymətləndirmə
Aprel, 2020

Prinsiplər/Alt-prinsiplər	Cavablar
A. Hüquqi Əsaslar, Məqsədlər və Makroiqtisadi Siyasətlə Əlaqələndirmə **Prinsip 1.** SF-in hüquqi əsasları möhkəm olmalı, onun effektiv fəaliyyətini və məqsədlərinə nail olmasını dəstəkləməlidir. **Alt-prinsip 1.1.** SF-in hüquqi əsasları SF-in və onun əməliyyatlarının hüquqi cəhətdən möhkəmliyini təmin etməlidir. **Alt-prinsip 1.2.** SF-in hüquqi bazasının və strukturunun, eləcə də SF ilə digər dövlət orqanları arasında hüquqi əlaqələrin əsas xüsusiyyətləri ictimaiyyətə açıqlanmalıdır.	ARDNF-nin hüquqi əsasları Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Fondu haqqında Əsasnamə”də (bundan sonra “ARDNF-nin Əsasnaməsi”) aydın şəkildə təyin olunmuşdur. ARDNF büdcədənkənar dövlət təsisatı, hüquqi şəxsdir və onun fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyası və qanunları, Prezidentin fərman və sərəncamları və “ARDNF-nin Əsasnaməsi” rəhbər tutulur. ARDNF-nin hüquqi əsasları, strukturu və digər dövlət qurumları ilə əlaqələrinə dair bütün hüquqi sənədlər ictimaiyyətə açıqlanır və Fondun rəsmi internet səhifəsindən əldə oluna bilər. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf
Prinsip 2. SF-in fəaliyyətinin məqsədi aydın şəkildə müəyyən olunmalı və ictimaiyyətə açıqlanmalıdır.	ARDNF-nin yaradılmasının əsas məqsədi neft və qaz sazişlərinin icrasından əldə olunan gəlirlərin toplanmasını və səmərəli idarə olunmasını təmin etməkdir. ARDNF-nin əsas vəzifələri ölkədə makroiqtisadi stabilliyin (valyuta daxilolmalarının mənfi təsirlərinin neytrallaşdırılması) qorunması və vəsaitlərin indiki və gələcək nəsillər üçün toplanıb artırılmasıdır. Yuxarıda qeyd edilən ARDNF-nin yaradılmasının əsas məqsədi, həmçinin ARDNF-nin əsas vəzifələri Fondun rəsmi internet səhifəsinə yerləşdirilmişdir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/qqh59kviix.pdf https://www.oilfund.az/fund/about/mission
Prinsip 3. SF-in fəaliyyətinin ölkədə birbaşa makroiqtisadi təsirləri olarsa, bu fəaliyyətin ümumi makroiqtisadi siyasətin tərkib hissəsi olmasını təmin etmək məqsədi ilə o, yerli maliyyə və pul-kredit orqanları ilə yaxından əlaqələndirilməlidir.	ARDNF-nin qanunvericiliyinə əsasən Fondun vəsaitləri Azərbaycan Respublikası daxilində investisiya edilə bilməz. ARDNF-nin xərcləri Milli Məclis tərəfindən təsdiq olunan icmal büdcənin tərkib hissəsidir. Büdcə Sistemi Haqqında qanuna əsasən icmal büdcə müvafiq dövlət qurumları ilə (Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi və s.) məsləhətləşmələr və ARDNF-nin iştirakı ilə hazırlanır. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/storage/images/oigo5rbbvn.pdf https://oilfund.az/storage/uploads/f0waqk7ikt.pdf

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 4. SF-in maliyyələşmə və vəsaitlərinin xərclənməsinə dair ümumi yanaşmaya uyğun olaraq dəqiq və ictimaiyyət üçün açıq olan siyasət, qaydalar, prosedurlar və ya mexanizmləri olmalıdır. **Alt-prinsip 4.1.** SF-in maliyyələşmə mənbələri ictimaiyyətə açıqlanmalıdır. **Alt-prinsip 4.2.** SF-in vəsaitlərinin xərclənməsinə aid ümumi yanaşma ictimaiyyət üçün açıq olmalıdır.	ARDNF-nin maliyyələşmə və vəsaitlərinin xərclənməsinə dair prosedur qaydalar "ARDNF-nin Əsasnaməsi" və "Azərbaycan Respublikası Dövlət Neft Fondunun (büdcə) gəlir və xərclər proqramının tərtibi və icrası qaydaları"nda (bundan sonra "ARDNF-nin büdcəsinə dair qaydalar") aydın şəkildə müəyyən olunmuşdur. Bu qaydalar ARDNF-nin rəsmi internet səhifəsində yerləşdirilmişdir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/storage/images/oigo5rbbvn.pdf https://oilfund.az/storage/uploads/f0waqk7ikt.pdf
Prinsip 5. SF-ə aid müvafiq statistik məlumatlar Fondun ali idarəedici orqanına və ya lazım olan hallarda makroiqtisadi məlumatlar sisteminə daxil edilməsi məqsədi ilə digər lazımi orqanlara vaxtlı-vaxtında təqdim olunmalıdır.	ARDNF-yə aid statistik məlumatlar aylıq əsasda Prezident Administrasiyasına və Maliyyə Nazirliyinə, həmçinin rüblük və illik əsasda Dövlət Statistika Komitəsinə göndərilir. ARDNF həmçinin özünün gəlir və xərcləri ilə bağlı məlumatları Hesablama Palatasına və digər müvafiq məlumatları Vergilər Nazirliyinə, Dövlət Sosial Müdafiə Fonduna və digər əlaqəli dövlət orqanlarına təqdim edir. Əlavə olaraq, ARDNF öz fəaliyyəti ilə bağlı müvafiq məlumatları müntəzəm olaraq Dünya Bankına və Beynəlxalq Valyuta Fonduna təqdim edir. ARDNF-nin fəaliyyəti ilə bağlı bütün məlumatlar (audit olunmuş illik hesabatlar, rüblük hesabatlar və s.) Fondun rəsmi internet səhifəsi vasitəsi ilə ictimaiyyətə çatdırılır. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/storage/images/oigo5rbbvn.pdf https://oilfund.az/storage/uploads/f0waqk7ikt.pdf
B. İnstitusional əsaslar və İdarəetmə strukturu **Prinsip 6.** SF güclü idarəetmə strukturuna malik olmalı və bu idarəetmə strukturu Fondun məqsədlərini həyata keçirmək üçün hesabatlılıq və əməliyyat müstəqilliyini dəstəkləyən rol və öhdəliklərin aydın və effektiv bölgüsünü təmin etməlidir.	ARDNF-nin üç-pilləli idarəetmə strukturu var və ölkə Prezidenti ali idarəetmə səlahiyyətlərinə malikdir. ARDNF-nin fəaliyyətinə nəzarəti Baş nazirin sədrlik etdiyi Müşahidə Şurası həyata keçirir. Müşahidə Şurasının digər üzvləri Milli Məclis sədrinin müavini, Maliyyə naziri, İqtisadiyyat naziri, Mərkəzi Bankın sədri, Prezidentin köməkçisi-Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri və Prezidentin köməkçisi-Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiridir. ARDNF-in əməliyyat idarəetməsi İcraçı direktora həvalə olunmuşdur. Azərbaycan Respublikası Prezidenti, Müşahidə Şurası və İcraçı direktorun hüquq və vəzifələri "ARDNF-nin Əsasnaməsi"ndə aydın şəkildə göstərilmişdir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf
Prinsip 7. Ali idarəedici orqan SF-in məqsədlərini müəyyən etməli, aydın şəkildə müəyyən olunmuş prosedurlara əsasən Fondun idarəetmə orqan(lar)ının üzvlərini təyin etməli və SF-in əməliyyatları üzərində nəzarəti həyata keçirməlidir.	ARDNF-nin təsis olunmasının məqsədləri Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "ARDNF-nin Əsasnaməsi"ndə aydın şəkildə müəyyən edilmişdir. 5-ci və 6-cı Prinsiplərə verilən rəylərə də bax. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 8. İdarəetmə orqan(lar)ı SF-in maraqları çərçivəsində fəaliyyət göstərməli və öz funksiyalarını həyata keçirmək üçün aydın şəkildə müəyyən olunmuş mandata, müvafiq səlahiyyət və səriştəyə malik olmalıdır.	Azərbaycan Respublikası Baş nazirinin sədrlik etdiyi Müşahidə Şurasının heyət üzvlərini Azərbaycan Respublikası Maliyyə naziri, Mərkəzi Bankın sədri, İqtisadiyyat naziri, Milli Məclis sədrinin müavini və Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri, Prezident Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri təşkil edirlər. Müşahidə Şurasının öz funksiyalarını yerinə yetirməsi üçün aşkar təyinatı, müvafiq vəzifə və səlahiyyətləri vardır. Müşahidə Şurasının bütün vəzifə və öhdəlikləri müvafiq normativ qanunvericiliklə tam şəkildə müəyyən olunmuşdur. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://oilfund.az/fund/management/supervisory
Prinsip 9. SF-in əməliyyat idarəetməsi onun strategiyalarını müstəqil əsasda və aydın şəkildə müəyyən olunmuş öhdəliklərə uyğun olaraq həyata keçirməlidir.	"ARDNF-nin Əsasnaməsi", "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar" (bundan sonra "İnvestisiya qaydaları") və "ARDNF-nin büdcəsinə dair qaydalar" İcraçı direktorun rol və öhdəliklərini aydın şəkildə müəyyən edir. Bu rol və öhdəliklərə müvafiq olaraq, İcraçı direktor ARDNF-nin əməliyyat idarəetməsində müstəqilliyə malikdir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/storage/images/oigo5rbbvn.pdf
Prinsip 10. SF-in əməliyyatlarına dair hesabatlılıq sistemi müvafiq qanunvericilik, nizamnamə, digər təsisat sənədləri və ya idarəetmə razılaşmasında aydın şəkildə müəyyən olunmalıdır.	ARDNF-də hesabatlılıq sistemi "ARDNF-nin Əsasnaməsi", "İnvestisiya qaydaları", "ARDNF-nin büdcəsinə dair qaydalar" və "Büdcə Sistemi Haqqında qanun"da aydın şəkildə müəyyən olunmuşdur. Fondun fəaliyyətini əks etdirən rüblük hesabatlar və audit olunmuş illik hesabatlar müntəzəm olaraq hazırlanaraq ictimaiyyətə açıqlanır. ARDNF-nin fəaliyyətinə dair bütün məlumatlar Fondun daimi yenilənən rəsmi internet səhifəsində mövcuddur. ARDNF həmçinin vaxtaşırı olaraq mətbuat konfransları təşkil edir. 5-ci Prinsipə verilən rəylərə də bax. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/storage/images/oigo5rbbvn.pdf https://oilfund.az/storage/uploads/f0waqk7ikt.pdf
Prinsip 11. SF-in əməliyyatları və fəaliyyəti üzrə illik hesabatı və onu müşayiət edən maliyyə hesabatları nizamlı şəkildə tanınmış beynəlxalq və ya Milli Mühasibat Standartlarına uyğun olaraq hazırlanmalıdır.	ARDNF fəaliyyətə başladığı ildən illik hesabatlar və onu müşayiət edən maliyyə hesabatlarını hazırlamışdır. ARDNF-nin bütün maliyyə hesabatları Maliyyə Hesabatının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanır. Fondun bütün illik hesabatları və onu müşayiət edən maliyyə hesabatları ARDNF-nin rəsmi internet səhifəsində yerləşdirilir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/report-and-statistics/report-archive

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 12. SF-in əməliyyatları və maliyyə hesabatları beynəlxalq və ya milli audit standartlarına uyğun olaraq ardıcıl surətdə illik audit olunmalıdır.	ARDNF fəaliyyətə başladığı ildən nüfuzlu müstəqil audit şirkətləri tərəfindən audit olunur. Auditorun seçilməsi prosesi Azərbaycan Respublikasının "Dövlət Satınalmaları" haqqında mövcud qanunvericiliyinə müvafiq qaydada təşkil edilmiş açıq tender vasitəsilə müəyyən olunur. 2019-2021-ci illər dövrü üçün ARDNF-nin maliyyə hesabatlarının auditi "Price Waterhouse Coopers" şirkətinə həvalə olunmuşdur. ARDNF-nin fəaliyyətinə dair bütün illik hesabatlar və onu müşayiət edən maliyyə hesabatları onun rəsmi internet səhifəsində yerləşdirilir. ARDNF-də eyni zamanda müntəzəm olaraq daxili audit hesabatlarını hazırlayan daxili auditor fəaliyyət göstərir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf https://www.oilfund.az/report-and-statistics/report-archive http://www.e-qanun.az/framework/1029
Prinsip 13. Peşəkar və etik standartlar aydın şəkildə müəyyən olunmalı, SF-in idarəetmə orqanının, rəhbərliyinin və işçi heyətinin üzvlərinə bildirilməlidir.	Davranış və etik standartlar "İnvestisiya qaydaları"nda aydın şəkildə müəyyən olunmuşdur. ARDNF-nin vəzifəli şəxsləri və əməkdaşlarının peşə davranışı Beynəlxalq Maliyyə Bazarları Assosiasiyasının (ACİ, Paris) Davranış Məcəlləsi ilə təsbit edilmiş etik normalara və davranış qaydalarına, həmçinin "ARDNF-nin əməkdaşlarının etik davranış Qaydaları"na uyğun gəlməlidir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://oilfund.az/fund/management/behavior-rules
Prinsip 14. SF-in əməliyyatlarının idarə olunması məqsədi ilə üçüncü tərəflərlə qurulmuş bütün münasibətlər maliyyə və iqtisadi əsaslara söykənməli, eyni zamanda aydın qayda və prosedurlara əsaslanmalıdır.	ARDNF-nin üçüncü tərəflərlə əlaqəli fəaliyyəti maliyyə və iqtisadi əsaslara söykənir. ARDNF-nin "İnvestisiya qaydaları" və "İnvestisiya siyasəti" üçüncü tərəflərlə münasibətlərini tənzimləyir. Xarici menecerlərlə əlaqəli bütün məsələlər ARDNF-nin fəaliyyətinə dair müvafiq sənədlərdə təfərrüatlı və aydın şəkildə müəyyən olunmuşdur. Xarici menecerlərin təyin olunması "Dövlət Satınalmaları" haqqında Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Xarici menecerlər menecerin kredit reytinqi, idarə etdiyi aktivlərin həcmi, aktivlərin idarə edilməsi sahəsində təcrübə, təklif olunan gəlirlilik və risk dərəcəsi, təklif olunan ödəniş norması və s. kimi meyarlar əsasında seçilir. Xarici menecerlərin investisiya fəaliyyətinin onların müvafiq mandatına uyğunluğu gündəlik əsasda, portfellərinin gəlirliliyi isə aylıq əsasda yoxlanılır. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/investments/investment

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 15. SF fəaliyyət və əməliyyatlarını həyata keçirdiyi ölkələrin bütün normativ qaydalarına və şəffaflıq tələblərinə riayət etməlidir.	ARDNF əməliyyat və fəaliyyətlərini həyata keçirdiyi ölkələrin bütün müvafiq normativ qaydalarına və şəffaflıq tələblərinə riayət edir.
Prinsip 16. SF-in idarəetmə strukturu, məqsədləri, eləcə də SF-in ali idarəedici orqandan əməliyyat müstəqilliyi ictimaiyyətə açıqlanmalıdır.	ARDNF-nin idarəetmə strukturu, məqsədləri və əməliyyat müstəqilliyi müvafiq qanunvericilikdə aydın şəkildə müəyyən olunmuşdur. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf
Prinsip 17. SF beynəlxalq maliyyə bazarlarında sabitliyin təmin edilməsinə dəstək vermək, eləcə də investisiya etdiyi ölkələrdə etibarını artırmaq zəminində öz fəaliyyətinin iqtisadi və maliyyə istiqamətlərinə dair müvafiq maliyyə məlumatlarını ictimaiyyətə açıqlamalıdır.	ARDNF-nin illik olaraq hazırlayıb, ictimaiyyətə açıqladığı hesabatlarda eyni zamanda audit olunmuş maliyyə hesabatları da yer alır. Rüblük hesabatlar və ARDNF-nin fəaliyyətinə dair bütün digər maliyyə məlumatları Fondun rəsmi internet səhifəsində yerləşdirilir. ARDNF-nin vəsaitinin ümumi məbləği, vəsaitlərinin bölüşdürülməsi, seçilmiş bençmark, illik gəlirlilik səviyyəsi və s. bu kimi maliyyə məlumatlarına daxildir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/en/report-and-statistics/report-archive# https://www.oilfund.az/en/investments/quarterly-investment-results
C. İnvestisiya və Riskin idarə olunmasının əsasları **Prinsip 18.** SF-in investisiya siyasəti aydın, eyni zamanda ali idarəedici orqan və ya idarəetmə orqan(lar)ı tərəfindən müəyyən olunan Fondun məqsədlərinə, risk dözümlülüyünə, investisiya strategiyasına uyğun olmalı və fundamental portfel idarəetməsi prinsiplərinə əsaslanmalıdır. **Alt-prinsip 18.1.** İnvestisiya siyasəti SF-in maliyyə risklərinin səviyyəsini və borclanmadan mümkün istifadəni müəyyən etməlidir. **Alt-prinsip 18.2.** İnvestisiya siyasəti daxili və (ya) xarici investisiya menecerlərindən hansı dərəcədə istifadə olunma səviyyəsini, onların fəaliyyət və səlahiyyət çərçivələrini, eyni zamanda onların seçilməsi və icrasına nəzarət prosesini təyin etməlidir. **Alt-prinsip 18.3.** SF-in İnvestisiya siyasətinin məzmunu ictimaiyyətə açıqlanmalıdır.	ARDNF-nin vəsaitlərinin idarə edilməsinin əsas istiqamətləri və investisiya qərarlarının şəffaflığının təmin olunması məsələləri "İnvestisiya Qaydaları" və "İnvestisiya Siyasəti" vasitəsi ilə tənzimlənir. Digər məsələlərlə yanaşı, bu sənədlər vəsaitlərin strateji bölgüsü, investisiya portfelinin valyuta tərkibi, bençmark, risk meyarları üzrə limitlər, ARDNF-nin xarici menecerləri üçün müəyyən olunmuş minimal tələblər, investisiya istiqamətləri üzrə tətbiq edilən limitlər, həmçinin Fondun tərəf müqabillərinin (kastodial bankların, müxbir bankların və s.) kredit göstəriciləri üzrə limitləri müəyyən edir. Derivativlər (svop, forvard, fyüçers və s.) yalnız mümkün riskin minimuma endirilməsi (hedcinq) və ya investisiya portfelinin valyuta tərkibinin və aktivlər strukturunun optimallaşdırılması məqsədi ilə istifadə oluna bilər. ARDNF-nin xarici menecerlərin fəaliyyəti ilə bağlı rəhbər tutduğu qayda və prosedurlar üçün 14-cü Prinsipə verilmiş rəyə baxa bilərsiniz. "İnvestisiya Qaydaları" və "İnvestisiya Siyasəti" ARDNF-nin rəsmi internet səhifəsində yerləşdirilmişdir. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/investments/investment

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 19. SF-in investisiya qərarları Fondun investisiya siyasətinə uyğun olaraq risklər nəzərə alınmaqla gəlirlərin maksimallaşdırılmasına istiqamətlənməli, eləcə də maliyyə və iqtisadi əsaslara söykənməlidir. **Alt-prinsip 19.1.** Əgər investisiya qərarları iqtisadi və maliyyə əsaslarına malik olmazsa, bu qərarlar, investisiya siyasətində aydın şəkildə əks olunmalı və ictimaiyyətə açıqlanmalıdır. **Alt-prinsip 19.2.** SF-in vəsaitlərinin idarə edilməsi bu sahədə özünü doğrultmuş, qabaqcıl prinsiplərə əsaslanmalıdır.	"İnvestisiya Siyasəti"nə əsasən ARDNF-nin investisiya qərarları risklər nəzərə alınmaqla gəlirliliyin maksimumlaşdırılması məqsədinə əsaslanır. ARDNF-nin bütün investisiyaları vəsaitlərin idarə olunması sahəsində qabaqcıl təcrübəyə əsasən sırf iqtisadi və maliyyə qərarlarına söykənir. Həmçinin 18-ci Prinsipə verilən rəyə bax. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/investments/investment
Prinsip 20. SF, özəl qurumlarla rəqabət şəraitində ikən hər hansı xüsusi əhəmiyyətli informasiyadan və ya dövlətin təsir vasitələrindən faydalanmamalıdır.	"ARDNF-nin Əsasnaməsi"nə əsasən Fond daxili bazarda investisiya edə bilməz. "İnvestisiya Qaydaları"na əsasən ARDNF öz investisiya qərarlarını tam müstəqil şəkildə qəbul edir. ARDNF-nin təşkilati və hüquqi əsasları onun hər hansı xüsusi əhəmiyyətli informasiyadan istifadəsinin qarşısını alır. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/storage/images/sswctj9vko.pdf
Prinsip 21. SF səhmdar mülkiyyət hüquqlarını onun səhmlərə investisiya dəyərinin əsas elementi hesab edir. SF öz səhmdar hüquqlarından istifadə etdikdə, bunu SF-in investisiya siyasətinə uyğun şəkildə, investisiyaların maliyyə dəyərinə ziyan vurmadan həyata keçirməlidir. SF, onun səhmdar hüquqlarından istifadəsini müəyyən edən əsas meyarlar da daxil olmaqla, səsvermə hüququna sahib, katirovka olunmuş qurumların səhmlərinə ümumi yanaşmanı ictimaiyyətə açıqlamalıdır.	ARDNF səhm bazarlarında investisiya fəaliyyətinə 2012-ci ildə başlamışdır və hazırkı mərhələdə öz səhmdar mülkiyyət hüququndan istifadə etməmək qənaətindədir.

Prinsiplər/Alt-prinsiplər	Cavablar
Prinsip 22. SF, onun investisiya fəaliyyəti ilə bağlı riskləri müəyyən edən, qiymətləndirən və idarə edən struktura malik olmalıdır. **Alt-prinsip 22.1.** Risklərin idarə edilməsi sistemi etibarlı informasiyaya və müntəzəm hesabatvermə sistemlərinə əsaslanmalı və bunlar da öz növbəsində müvafiq risklərin məqbul hesab olunan ölçü və səviyyələrdə, nəzarət və həvəsləndirmə mexanizmləri, davranış kodeksləri, biznesin davamlı planlaşdırılması və müstəqil audit funksiyası çərçivəsində monitorinqi və idarə edilməsinə imkan verməlidir. **Alt-prinsip 22.2.** SF-in risklərin idarə edilməsi sisteminə ümumi yanaşması ictimaiyyətə açıqlanmalıdır.	ARDNF-nin maliyyə əməliyyatları risklərinin müəyyən edilməsi, ölçülməsi və idarə olunması Fondun ümumi idarəetmə sistemində xüsusi yer tutur. Müvafiq normativ sənədlər ("İnvestisiya Qaydaları", "İnvestisiya Siyasəti" və s.), risklərin idarə edilməsi üzrə ixtisaslaşmış bölmə (Risklərin idarə edilməsi departamenti), daxili və xarici audit funksiyaları, eyni zamanda "RiskMetrics" "RiskManager 4" kimi alətlər və daxildə hazırlanmış modellər ARDNF-də risklərin idarə edilməsi sistemini dəstəkləyir. "İnvestisiya Qaydaları" və "İnvestisiya Siyasəti" risklərin idarə edilməsinin əsas istiqamətlərini müəyyənləşdirir, bazar, kredit, konsentrasiya və likvidlik riskləri üzrə əsas risk limitlərini təyin edir. Bununla yanaşı, risk limitləri gündəlik əsasda gəlirlilik və risk hesabatları vasitəsilə nəzarətdə saxlanılır. "İnvestisiya Qaydaları" və "İnvestisiya Siyasəti" sənədlərində bəhs olunan amillərə əlavə olaraq, bazar riskinin müntəzəm olaraq daha təfsilatlı təhlili və nəzarəti aparılır. Təhlil prosesində faiz dərəcəsi həssaslıq təhlili (bir ödəmə müddəti üzrə faiz dərəcəsi dürasiyası (key rate duration), PV01 və s.), konsentrasiya riski (qruplar üzrə dürasiya, qruplar üzrə riskə məruz dəyər (RMD), marjinal RMD və s.), az ehtimallı hadisələr (şərti RMD, stress test) və ssenari üzrə təhlil kimi metodlardan istifadə edilir. ARDNF-nin əməliyyat riskləri daxili prosedur və qaydalar, eləcə də iş fəaliyyətinin davamlılığı əsasında idarə olunur. **Daha ətraflı məlumat üçün bax:** https://www.oilfund.az/storage/images/lfdho8sr9y.pdf https://www.oilfund.az/investments/investment
Prinsip 23. SF-in vəsait və investisiyalarının gəlirliliyi (bençmarkdan istifadə olunduğu təqdirdə, mütləq və bençmarkla nisbətdə) aydın müəyyən olunmuş prinsip və standartlara uyğun olaraq hesablanmalı və bu informasiya hesabat şəklində Fondun ali idarəedici orqanına göndərilməlidir.	ARDNF-nin vəsaitləri ilə bağlı ətraflı məlumatlar (investisiya portfelinin xarici valyutalar üzrə bölgüsü, kredit reytinqləri, yerləşdirilmə müddəti və coğrafi regionlar üzrə təsnifata dair məlumatlar daxil olmaqla) rüblük pres-relizlər vasitəsi ilə ictimaiyyətə çatdırılır. ARDNF-nin investisiyalarının gəlirliliyi bu sahədə mövcud olan ən yaxşı təcrübə əsasında hesablanır və illik hesabata daxil edilir. İllik hesabatlar və rüblük məlumatlar ARDNF-nin rəsmi internet səhifəsində yerləşdirilir. **Daha ətraflı məlumat üçün bax:** https://oilfund.az/report-and-statistics/report-archive
Prinsip 24. ÜQPN-nin tətbiqi SF və ya onun verdiyi səlahiyyətlər əsasında başqa bir qurum tərəfindən müntəzəm olaraq nəzarətdə saxlanılmalıdır.	Bu hesabat ilk dəfə ARDNF-nin rəsmi internet səhifəsində 2011-ci ilin aprel ayında yerləşdirilmişdir və illik əsasda nəzərdən keçirilir.

© Azərbaycan Respublikası
Dövlət Neft Fondu